# NAXÇIVAN MUXTAR RESPUBLİKASI
# ALİ MƏHKƏMƏSİNİN BÜLLETENİ


| | |
|---|---|
| **Buraxılış üçün məsul şəxs:**<br>*R.R.Süleymanov*<br><br>**Redaksiya heyəti :**<br>*Ə.K.Allahverdiyev*<br>*Y.S.Qurbanov*<br>*İ.M.Mirzəyev*<br>*V.K.Quliyev*<br>*M.Ə.Əliyev*<br>*G.Ə.Qurbanova*<br><br>**Məsul katib:**<br>*Y.F.Xəlilov* | **Redaksiyanın ünvanı:**<br>*Naxçıvan şəhəri, Atatürk küçəsi, 19*<br><br>*Tel: 544-61-71*<br>*Faks: 544-70-82*<br><br>*E-mail:*<br>*alimehkeme@nakhchivan.az*<br><br>*Rəsmi sayt:*<br>*www.supremecourt.nakhchivan.az*<br>*www.alimehkeme.nakhchivan.az* |


## *M Ü N D Ə R İ C A T*


Əbədiyaşar xilaskar ........................................................................................ 4

***YENİ SƏNƏDLƏR, NORMATİV AKTLAR ....................................................... 12***

"Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikasının Qanunu.................. 13

"Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2012-ci il 21 dekabr tarixli 520-IVQD nömrəli Qanununun tətbiqi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı ........................................................................................ 14

"Məhkəmə-Hüquq Şurası haqqında"Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikasının Qanunu.................. 15

"Məhkəmə-Hüquq Şurası haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2012-ci il 21 dekabr

tarixli 521-IVQD nömrəli Qanununun tətbiqi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ............ 16

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2009-cu il 19 mart tarixli 44 nömrəli qərarı ilə təsdiq edilmiş "Dövlət qulluqçusunun əlavə peşə təhsilinin növü, forması, müddəti və maliyyə təminatı Qaydaları"nda dəyişikliklər edilməsi barədə ............ 17

"İnzibati vəzifələrin altıncı-doqquzuncu təsnifatlarına uyğun olan vakant vəzifələrin tutulmasının Ümumi Şərtləri"nin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2009-cu il 17 sentyabr tarixli 143 nömrəli qərarında dəyişikliklər edilməsi haqqında ............ 18

Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 4 avqust tarixli 911 nömrəli Fərmanı ilə təsdiq edilmiş "İnzibati və yardımçı vəzifələrin Təsnifat Toplusu"nda dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanı ............ 26

"İnzibati və yardımçı vəzifələrin Təsnifat Toplusunun təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 4 avqust tarixli 911 nömrəli Fərmanında dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanı ............ 39

R.R.Süleymanovun Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin sədri təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı .... 41

Naxçıvan Muxtar Respublikasının bir sıra birinci instansiya məhkəmələrinin hakim və sədrlərinin təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ............ 42

Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsi hakiminin təyin edilməsi haqqında Azərbaycan Respublikası Milli Məclisinin qərarı ............ 42

***MƏHKƏMƏ FƏALİYYƏTİ............ 43***

MÜLKİ KOLLEGİYADAN ............ 43

Mülki mühakimə sahəsində məhkəmə fəaliyyətinə dair 2012-ci ilin yekunları üzrə statistik məlumatların təhlili ............ 43

İNZİBATİ-İQTİSADİ KOLLEGİYADAN ............ 49

Məhkəmə fəaliyyətinə dair 2012-ci ilin yekunları üzrə statistik məlumatların təhlili ............ 49

CİNAYƏT KOLLEGİYASINDAN ............ 51

Məhkəmə fəaliyyətinə dair 2012-ci ilin yekunları üzrə statistik məlumatların təhlili ........ 51

HƏRBİ KOLLEGİYADAN ........ 57

Hərbi kollegiyanın 2012-ci ilin yekunları üzrə fəaliyyətinin nəticələrini əks etdirən statistik məlumatlar ........ 57

***İNSAN HÜQUQLARI VƏ MƏHKƏMƏ TƏCRÜBƏSİ ........ 58***

İnsan Hüquqları üzrə Avropa Məhkəməsi (Üçüncü seksiya) 29 may 2001-ci il tarixli qərarı "Frans Fişer (Franz Fischer) Avstriyaya qarşı" iş ........ 58

***NƏZƏRİYYƏ VƏ HÜQUQTƏTBİQETMƏ PROBLEMLƏRİ........ 70***

Etibarnamə və əqdlərdə təmsilçilik institutları ilə bağlı bəzi mülahizələr........ 70

***HAKİMLƏRİN MİLLİ VƏ BEYNƏLXALQ QURUMLARINDA ........ 76***

"Ədalət mühakiməsinin büllur tərəzisi" mükafatı uğrunda 2012-ci ildə keçirilmiş beynəlxalq müsabiqə haqqında........ 76

***AZAD TRİBUNA........ 79***

Mülki işlər üzrə məhkəmə qərarlarının icrasına hakim nəzarətinin həyata keçirilməsi, bu sahədə problemlər və onların həlli yollarına dair mülahizələr... 79

***ALİ MƏHKƏMƏNİN MƏTBUAT XİDMƏTİNDƏN ........ 88***

2012-ci ilin noyabr-dekabr, 2013-cü ilin yanvar-aprel aylarında keçirilən tədbirlərin xülasəsi........ 88

# ƏBƏDİYAŞAR XİLASKAR
# HEYDƏR ƏLİYEV 90

***Dahi Heydər Əliyev şəxsiyyətinin Azərbaycan dövlətçilik tarixində müstəsna yeri vardır. Azərbaycançılıq məfkurəsinin parlaq daşıyıcısı kimi Heydər Əliyev öz müdrik siyasəti, dönməz əqidəsi və tarixi uzaqgörənliyi sayəsində milli dövlətçilik ideyasının gerçəkləşdirilməsinə, müasir Azərbaycan dövlətinin qurulmasına və xalqımızın müstəqillik arzusuna çatmasına nail olmuşdur.***

*(Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 90 illik yubileyi haqqında Azərbaycan Respublikası Prezidentinin 21 yanvar 2013-cü il tarixli Sərəncamından)*

İstənilən xalqın yaranmış tarixi şəraitdən bəhrələnərək öz müstəqil və suveren dövlətini qurması, ilk növbədə lider amili ilə əlaqədar olmaqla yanaşı, onun yaradıcı təfəkkürü, siyasi əzmkarlığı, yüksək intellekti, təşəbbüskarlığı və dövlətçilik səriştəsi sayəsində mümkündür. Bütövlükdə millətin taleyində tarixi dönüşə zəmin yaradan taleyüklü anlarda bir daha təsdiqlənmişdir ki, əsl siyasi rəhbər öz sarsılmaz cəsarəti, çevik və prinsipial qərarları, ən çıxılmaz vəziyyətdə çıxış yolu tapmaq məharəti ilə seçilən fitri istedada malik fenomenal şəxsiyyətlərdir. Milli tariximizə bu kimi keyfiyyətləri ilə öz adını əbədi həkk etmiş əbədiyaşar lider məhz Heydər Əliyevdir. Bu nadir tarixi sima XX əsrin sonunda xalqımızı əsrlər boyu can atdığı həqiqi müstəqillik amalına qovuşdurmuş, mütərəqqi müddəalarla zəngin olan yeni dövlətçilik konsepsiyasını irəli sürmüş, onun dayanıqlı inkişafı üçün etibarlı zəmin hazırlamışdır.

Dünyada tarix haqqında danışanlar və yazanlar çox olsa da tarix yaradanların sayı azdır. Çünki tarix yaratmaq tarix yazmaqdan qat-qat çətin və məsuliyyətlidir. Ulu öndər Heydər Əliyev də tarix yaradan dahi şəxsiyyətlərdən biridir. Heydər Əliyev öz xalqına, vətəninə sonsuz sədaqəti, tükənməz məhəbbəti, uzaqgörənliyi, xeyirxahlığı, düşünülmüş və gərgin əməyi ilə Azərbaycanın iyirminci əsr ictimai siyasi, iqtisadi, mədəni və mənəvi həyatında yeni bir tarix yaratmışdır. Sağlığında ümummilli liderlik ucalığına yüksəlmiş bu müdrik şəxsiyyət böyük fədakarlıqlar hesabına qurub-yaratdığı dövlətin sarsılmazlığını, demokratik yüksəlişini, Azərbaycanın müstəqilliyinin əbədiliyini, daimiliyini, dönməzliyini qoruyub saxlaya bilmişdir. Heydər Əliyevin ümummilli liderə çevrilməsini təmin edən ən başlıca amil

onun ən çətin və mürəkkəb siyasi şəraitdə məsuliyyətdən boyun qaçırmaması, xalqının, dövlətinin problemlərinə biganə qalmaması olmuşdur. Əgər Ulu öndər Heydər Əliyevin rəhbərliyi altında ötən əsrdə Azərbaycanın sosial-iqtisadi, mədəni yüksəlişi üçün həyata keçirilən tədbirlər, milli şüurun oyanışı istiqamətində görülən nəhəng işlər olmasaydı, biz bu gün Azərbaycanın suveren dövlət kimi mövcudluğundan söhbət aça bilməzdik.

Yaxın tarixi təcrübəmiz əyani olaraq sübut etdi ki, əgər müstəqillik həqiqi mənada xalqa xidmət edirsə, millətə öz milli həyatını sərbəst, özünəməxsus şəkildə qurmaq imkanı verirsə, yalnız bu halda o, milli inkişafın ən müqəddəm şərti hesab olunur. Ümummilli lider Heydər Əliyevin vaxtilə söylədiyi ***"Heç kəsin şübhəsi olmasın ki, ömrümün bundan sonrakı hissəsini harada olursa-olsun yalnız və yalnız Azərbaycan Respublikasının müstəqil dövlət kimi inkişaf etməsinə həsr edəcəyəm"*** deyimini bu gün də xatırlamamaq mümkün deyil.

Hər kəsə yaxşı məlumdur ki, Heydər Əliyevin ikinci dəfə siyasi hakimiyyətə gəlişi nəinki Azərbaycanı, bütöv bir xalqı məhv olmaq təhlükəsindən xilas etdi. 1993-cü ilin iyun hadisələrinə qiymət verməyi bacaran hər bir kəs dərindən dərk edir ki, Dahi rəhbər o dövrdə qardaş qırğınının, vətəndaş müharibəsinin qarşısını almağa həyatını təhlükəyə atmaqla, ölüm təhlükəsindən çəkinməyərək nail oldu. Bu, Heydər Əliyev ömrünün yeni bir qəhrəmanlıq salnaməsi idi. Vətənini və xalqını sonsuz məhəbbətlə sevən, andına, sədaqətinə sadiq qalan, qətiyyəti, inamı, müdrikliyi ilə milyonları öz ətrafında birləşdirməyi bacaran, hadisələri düzgün qiymətləndirib reallıqlardan lazımi nəticələr çıxara bilən yalnız Heydər Əliyev kimi vətənpərvər insan, uzaqgörən siyasətçi bu tarixi yarada və yaza bilərdi.

Heydər Əliyevin ömrü Azərbaycanın iyirminci əsr tarixinə müdriklik, vətənpərvərlik, azərbaycançılıq kimi bəşəri dəyərləri bəxş etməklə bərabər, həm də yeni tariximizdə xalq-rəhbər birliyinin yenilməzliyini həqiqətə çevirdi, xalqına, dininə, dilinə, tarixinə, milli adət-ənənəsinə sadiq olanların daim yaşayacağını sübut etdi, bəşəriyyət, azad dünya, xoşbəxt gələcək üçün qurub yaradanların heç zaman unudulmayacağını göstərdi.

Öz liderinin müdrik, uzaq hədəflərə hesablanmış, qətiyyətli və çevik addımlar atmaq əzmindən yetərincə xəbərdar olan Azərbaycan xalqı ən mürəkkəb vəziyyətlərdə belə arxayın idi. Təkcə bu səbəbə görə ki, baş qaldıran təhlükələr, həyatın mürəkkəblikləri, cılız və ucuz siyasi kombinasiyalar Heydər Əliyev şəxsiyyətinin əzəməti qarşısında son dərəcə bəsit görünürdü. Tale 1993-cü ildə Azərbaycanı növbəti dəfə çətin sınaqlarla üz-üzə gətirəndə xalqın yeganə xilaskar kimi Heydər Əliyevi hakimiyyətdə görmək istəyi də məhz bu zərurətdən qaynaqlanırdı. Əgər bu həlledici mərhələdə tarixə ***"Milli Qurtuluş Günü"*** kimi düşmüş əlamətdar hadisə baş verməsəydi, xalqın təkidli tələbi ilə ümummilli lider Heydər Əliyevin hakimiyyətə qayıdışı gerçəkləşməsəydi, müstəqil, qüdrətli, durmadan tərəqqi edən, yeniləşən və demokratikləşən Azərbaycan dövləti də var ola bilməzdi.

Böyük strateqin irəli sürdüyü demokratikləşmə konsepsiyası xalqın təkamülə əsaslanan demokratiya yolu ilə irəliləməsi, vətəndaş cəmiyyəti institutlarının iqtisadi uğurlara adekvat olaraq inkişaf etməsi, insan hüquq və azadlıqlarına etibarlı təminat mexanizmlərinin formalaşdırılması, habelə məhkəmə-hüquq sisteminin

müasirləşdirilməsi məsələlərini özündə ehtiva etmişdir. Ulu öndər Heydər Əliyev dəfələrlə qeyd etmişdir ki, demokratikləşmə prosesi dövlətin siyasi, iqtisadi, sosial-mədəni həyatının modernləşdirilməsi, əhalinin maarifləndirilməsi, təfəkkürünün və vərdişlərinin tədricən dəyişdirilməsi, ictimai davranış normalarının yeniləşməsi ilə birgə həyata keçirilməlidir. Ümummilli liderin həyata keçirdiyi labüd tədbirlərin nəticəsi kimi bir tərəfdən Milli Ordunun formalaşdırılması, Azərbaycanın milli mənafeyini qorumağa qadir olan nizami silahlı qüvvələrin yaradılması, torpaqlarımızın müdafiə olunması ilə bağlı mühüm addımlar atılması, digər tərəfdən atəşkəsə nail olmaq üçün bütün siyasi və diplomatik vasitələrin işə salınması və bunun nəticəsində 1994-cü ilin mayında ölkəmiz üçün həyati əhəmiyyət kəsb edən atəşkəsin əldə olunması respublikanın hüquqi, iqtisadi, sosial, mədəni və digər sahələrində islahatların aparılmasına böyük üfüqlər açmışdır.

1995-ci ildə xalqın azad iradəsi əsasında müdrik rəhbərin silinməz dəsti xəttinin, zəngin həyat təcrübəsinin və işıqlı zəkasının ən böyük əsəri olan, dünya standartlarının tələblərinə tam dolğunluğu ilə cavab verən, Azərbaycanın mütərəqqi ənənələrə söykənən ilk müstəqil Konstitusiyasının qəbuluna nail olan ümummilli lider sonrakı mərhələlərdə dövlət-vətəndaş münasibətlərinin hüquq müstəvisində nizama salındığı, insan və vətəndaş hüquq və azadlıqlarının ali dəyərlər səviyyəsində qorunduğu, humanizm prinsipinin möhkəm təmələ çevrildiyi ədalətli cəmiyyətin formalaşdırılması, idarəçilikdə demokratik ənənələrin tam bərqərar olması naminə misilsiz xidmətlər göstərmişdir. İctimai həyatın bütün sahələrində haqq-ədalət meyarının gözlənilməsinə çalışan Ulu öndər yalnız bu yolla dövlətlə xalq arasında möhkəm mənəvi, siyasi və hüquqi əlaqəyə, qarşılıqlı etimada nail olmağı mümkün hesab etmişdir.

Ümumxalq səsverməsi yolu ilə qəbul edilmiş müstəqil Azərbaycanın ilk Konstitusiyası ölkənin gələcək inkişaf prioritetlərini müəyyən etməklə yanaşı, insan hüquq və azadlıqlarının təminatını dövlətin ali məqsədi kimi ön sıraya çıxarmışdır. Konstitusiyada hakimiyyət bölgüsü prinsipi dəqiq formulə edilmiş, zamanın tələbi ilə səsləşən məhkəmə-hüquq islahatlarının həyata keçirilməsinə fundamental hüquqi zəmin yaranmışdır.

Böyük öndər ədalətli idarəçilik sistemi yaratmadan cəmiyyətin dövlətə etimad və inamının formalaşdırılmasını qeyri-mümkün hesab edərək bunun üçün ilk növbədə məhkəmə-hüquq sistemində dövrün tələblərinə cavab verən mütərəqqi islahatların aparılmasına nail olmuşdur. Məhkəmə-hüquq islahatlarını prioritet məsələ olaraq məqsəd seçən Ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə məhkəmə hakimiyyəti anlayışı ilk milli konstitusiyamızda öz əksini tapmış, Əsas Qanunda məhkəmə hakimiyyətinə verilən səlahiyyətlərə hakimlərin sərbəstliyi və müstəqilliyi daxil edilməklə ölkədə insan hüquqularının qorunması və məhkəmə sistemində ədalət mühakiməsinin səmərəli təşkili baxımından mütərəqqi addımlar atılmışdır. ***“Ədalət iki şeydən sarsıla bilər: cinayətkar cəzasız qalanda və günahsız cəzalandırılanda”*** - deyən böyük öndər ilk gündən məhkəmə orqanlarının dövlət idarəçilik sistemindəki müstəsna rolunu düzgün dəyərləndirmiş, insan və vətəndaş hüquq və azadlıqlarının etibarlı müdafiə mexanizmlərinin formalaşdırılması baxımından ədalət mühakiməsinin səmərəliliyinin yüksəldilməsini vacib saymışdır. Ardıcıl olaraq

aparılan məhkəmə-hüquq islahatlarının başlıca məqsədi Azərbaycanda qanunun aliliyinin təmin edilməsi, məhkəmə orqanları sisteminin dövlət idarəçilik mexanizmində nüfuzlu və müstəqil təsisat kimi təşəkkül tapması, ədalət mühakiməsinin həyata keçirilməsi zamanı insan hüquq və azadlıqlarının müdafiəsinin yüksək səviyyədə təşkil olunması, cinayət və mülki mühakimədə demokratik prinsiplərin qorunması, peşəkar hakim korpusunun formalaşdırılması, məhkəmələrin fəaliyyətində şəffaflığın təmin edilməsi və digər məsələlərin həlli olmuşdur.

Azərbaycanın hüquqi dövlət və humanizm prinsiplərinə sadiqliyini əks etdirən daha bir mühüm hadisə isə ölkədə Avropa Şurasına üzvlüyə qədər ölüm hökmünün tamamilə ləğv edilməsi olmuşdur. 1993-cü ildə ölüm cəzası üzərində moratoriumun qoyulması, 1995-ci ildə əfv komissiyasının bərpası, 10 fevral 1998-ci il tarixdə ölüm cəzasının tam ləğvi isə Ulu öndərin daxilən yüksək humanizm, insanpərvərlik kimi keyfiyyətlərə malik olduğunun ən parlaq göstəriciləridir.

Ümummilli liderin rəhbərliyi dövründə respublikamız insan hüquq və azadlıqlarının, eləcə də demokratik təsisatların inkişafı ilə bağlı bir sıra mühüm beynəlxalq-hüquqi sənədlərə qoşulmuş, bütün bunların nəticəsi kimi 1996-cı ildən Avropa Şurasında "xüsusi qonaq statusu" ilə təmsil olunan Azərbaycan 2001-ci il yanvarın 17-də qurumun Nazirlər Komitəsinin qərarı ilə Avropa Şurasının tamhüquqlu üzvlüyünə qəbul edilmişdir. 25 dekabr 2001-ci il tarixdə isə Milli Məclis "İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında" Avropa Konvensiyasını ratifikasiya etməklə demokratik dəyərlərə, ədalətə, insan hüquq və azadlıqlarının təminatına yüksək sadiqlik nümayiş etdirmişdir. 15 aprel 2002-ci il tarixdə ratifikasiya sənədi depozitə edilmək üçün Avropa Şurasının Baş katibinə təqdim olunmuş, bununla da, ölkə vətəndaşları Avropa İnsan Hüquqları Məhkəməsinə müraciət etmək imkanı əldə etmişdir.

Ulu öndərin fitri idarəçilik keyfiyyətləri, səlis, rəvan və yüksək məntiqə söykənən nitqi, qətiyyətli mövqeyi, ən çətin situasiyalarda çevik qərarlar qəbul etmək qabiliyyəti hər zaman böyük ehtiramla, rəğbətlə anılır. Bir ictimai-iqtisadi formasiyadan digərinə keçid dövründə qanunların yeni dövrün tələblərinə uyğun müasirləşdirilməsini və dayanıqlı inkişafa zəmin yaradan mükəmməl qanunvericilik sisteminin formalaşdırılmasının zəruriliyini düzgün qiymətləndirən Heydər Əliyev bu məqsədlə ölkə parlamentinin inkişafına xüsusi diqqət göstərmişdir. Müharibə şəraiti ilə əlaqədar Ulu öndər ilk növbədə müdafiə sisteminin hüquqi bazasının möhkəmləndirilməsinə diqqət yetirmiş, nizami ordu quruculuğuna xidmət edən qanunların hazırlanmasını və qəbulunu təmin etmişdir.

Ümummilli lider Heydər Əliyevin milli dövlətçilik qarşısında ən böyük, misilsiz xidmətlərindən biri də müstəqil Azərbaycanın yeni neft strategiyasının hazırlanması və 1994-cü ildən uğurla həyata keçirilməsi ilə bağlıdır. Miqyasına görə XX əsrin analoqu olmayan qlobal layihələrindən biri kimi alternativ enerji mənbələri axtarışında olan müasir dünyanın yeni geoiqtisadi xəritəsinin müəyyənləşməsinə əsaslı təsir göstərən *"Əsrin müqaviləsi"* Azəbaycanın siyasi və iqtisadi cəhətdən gün keçdikcə daha da möhkəmlənməsinə, beynəlxalq iqtisadi münasibətlər sisteminə sürətli inteqrasiyasına güclü təkan vermişdir.

Azərbaycanın dünya dövlətləri arasında öz layiqli yerini tutması, çiçəklənən ölkəyə çevrilməsi üçün qədəm qoymağa hazırlaşdığı inkişaf yolunu Ulu öndər belə xarakterizə etmişdir: ***"Biz Azərbaycanda demokratik, müstəqil respublika quraraq sivilizasiyalı cəmiyyət uğrunda mübarizə apararaq ümumi, dünyəvi, bəşəri dəyərlərin hamısından istifadə etməliyik. Biz çalışmalıyıq ki, Azərbaycan uzun illərdən, əsrlərdən sonra ilk dəfə müstəqilliyini aldıqdan sonra bütün dünyaya öz tarixi nailiyyətlərini, milli ənənələrini nümayiş etdirə bilsin. Güman edirəm ki, Azərbaycan xalqının həm tarixi, həm müasir potensialı olduqca böyükdür. Bunların hamısından səmərəli istifadə olunarsa, Azərbaycan həm tam müstəqil, demokratik dövlət olacaq, həm də cəmiyyətimiz tam hüquqi, ümumbəşəri dəyərlərin əsasında qurulan demokratik bir cəmiyyət olacaq".***

Böyük şəxsiyyətləri, dünya səviyyəli liderləri xarakterizə edən əsas cəhətlərdən biri hadisələrə geniş miqyaslı baxış, onları kompleks şəkildə əlaqəli görmək bacarığıdır. Heydər Əliyev dahi siyasətçi, əsl filosof kimi həmişə tarixiliyin və müasirliyin vəhdətinə böyük önəm verirdi. O, təbiətcə də belə idi, müdrik olduğu qədər də yenilikçi idi. *Tarixin dərslərindən öyrənmək və dünyada yeni, mütərəqqi nə vardırsa, Azərbaycana gətirmək, tətbiq etmək* - Heydər Əliyev müəllifi olduğu müstəqil respublikanı bu yolla qururdu.

Özünün müstəqillik konsepsiyasını ortaya qoyarkən Ulu öndər hər zaman *"qlobal düşünüb lokal hərəkət etmək lazımdır"* prinsipinə riayət edərək Azərbaycan xalqının müstəqilliyinin qorunub saxlanmasını dünya hadisələri prizmasından həllinə çalışırdı.

Məhz ümummilli liderin sayəsində düşünülmüş iqtisadi siyasət nəticəsində makroiqtisadi sabitliyə nail olunmuş və davamlı iqtisadi artımın əsası qoyulmuş, iqtisadiyyatın bütün sahələrində islahatlara başlanılmış, əhalinin həyat səviyyəsinin yaxşılaşdırılması istiqamətində ciddi addımlar atılmışdır. Əbədiyaşar xilaskar Heydər Əliyevin təşəbbüsü və rəhbərliyi altında 1995-ci ildən başlayaraq aqrar sektorun bazar prinsipləri əsasında yenidən qurulması, sovxoz və kolxozların ləğv olunması, onlara məxsus torpağın, mal-qaranın və əmlakın əhaliyə paylanması kimi tədbirlər nəticəsində kənd təsərrüfatında ciddi struktur dəyişiklikləri baş vermiş, keyfiyyətcə fərqli münasibətlər formalaşmışdır. Aqrar sektorda səmərəli təsərrüfatçılığın, sahibkarlığın inkişafının təmin olunması məqsədilə kənd təsərrüfatı məhsulları istehsalçılarının əvvəlki vergi borcları silinmişdir. Heydər Əliyevin memarı olduğu və uğurla həyata keçirdiyi torpaq islahatı Azərbaycan kəndlisinin çoxəsrlik arzusunu reallaşdırmış, onları torpağın həqiqi sahibinə çevirmişdi. Bununla yanaşı, dövlət mülkiyyətinin özəlləşdirilməsinin qanunvericilik bazası yaradılmış və müvafiq dövlət proqramları təsdiq olunmuşdu.

Hər bir millətin tarixi inkişafı, qarşıya qoyduğu hədəflərə çatmaq əzmi, ilk növbədə onun malik olduğu milli-mənəvi potensialdan, dəyərlər sistemindən asılıdır. Bu reallıqdan çıxış edən Ulu öndər Heydər Əliyev Azərbaycanı qoruyub inkişaf etdirmək, hansısa mərhələdə milli müstəqilliyə qovuşdurmaq üçün ilk növbədə xalqımızın zəngin milli-mənəvi irsini, tarixini, mədəniyyətini, dilini, bir sözlə, özünəməxsusluğunu şərtləndirən dəyərlərini qorumağa çalışmışdır.

Ulu öndər müstəqil Azərbaycana rəhbərliyi dövründə xalqın milli kimliyinin təcəssümü olan maddi-mənəvi mədəniyyət abidələrinin, adət-ənənələrin, milli irsin

qorunması və gənc nəslə aşılanması məsələlərinə xüsusi diqqət ayırmışdır. Bu dahi şəxsiyyət Azərbaycanın min illərin sınağından çıxmış mədəniyyətinə, incəsənətinə, ədəbiyyatına, folkloruna həddən artıq bağlı olmaqla bu dəyərlərin olduğu kimi xalqa qaytarılması üçün əlindən gələni əsirgəməmişdir.

Azərbaycanın qapıları ən ali, bəşəri və universal dəyərlərin üzünə məhz onun əlləri ilə açılmış, ümumilli lider bu qapıdan həyatımıza daxil olan yenilikləri minilliklər boyu tariximizlə yol gələn, bizi dünya xalqları içərisində tanıdan milli dəyərləri üstələyə bilməsinə, yad mədəniyyət stereotiplərinin milli ənənələrimiz, xalqımıza xas mənəvi keyfiyyətlərimiz üzərində hakim mövqeyə sahib olmasına heç zaman imkan verməmişdir. Ulu öndər Heydər Əliyev bu mənada həm də xalqın inanclarını, milli dəyərlərini bütün siyasi proseslərin fövqündə saxlayaraq qorumağı bacarmış liderdir.

Dahi şəxsiyyətin Azərbaycana rəhbərliyi dövründə milli-mənəvi inkişafa xüsusi qayğı göstərilmiş, elm və təhsil sahəsində yeni uğurlar əldə edilmiş, bazar iqtisadiyyatına keçidin elm və təhsil sahəsində yaratdığı problemlərin həllinə diqqət yetirilmiş, bu sahələrdə yeni dövrün tələblərinə cavab verən islahatların aparılması təmin edilmişdir. Yeni cəmiyyətin formalaşması mədəniyyətin inkişafında daha dərin dəyişikliklərlə müşahidə edilmiş, mədəniyyətin bütün sahələrinə dövlət qayğısı artırılmış, elm, mədəniyyət, ədəbiyyat, incəsənət xadimlərinin sosial müdafiəsinin təşkili istiqamətində atılan addımlar, dövlət büdcəsində baş verən artımlar hesabına bu sahələrə yönələn vəsaitlərin çoxalması ölkədə tədricən elmi-intellektual intibah mərhələsinin əsasını qoymuşdur.

Heydər Əliyevin ***AZƏRBAYCANÇILIQ İDEOLOGİYASI*** milli-mənəvi inkişafın əsas zəmini olmuşdur. O, bu barədə demişdir: ***“Azərbaycan dövlətinin milli ideologiyasının özəyini, əsasını təşkil edən azərbaycançılıqdır. Dövlətçilik, milli-mənəvi dəyərlər, ümumbəşəri dəyərlər-bunlar hamısı azərbaycançılıq anlayışının tərkib hissələridir...”***

Heydər Əliyev üçün ana dili azərbaycançılığın təməl prinsipi olmuş, imkan daxilində özü rəsmi nitqlərini Azərbaycan dilində etmiş, bunu bütün rəhbər vəzifəlilərdən də qətiyyətlə istəmişdir. Heydər Əliyevin idarəetmə siyasətində xalqın rifahının yüksəldilməsi, həyat səviyyəsinin yaxşılaşdırılması, bir sözlə, bütün tədbirlərin sosial yönümlü olması həmişə önəmli yerə malik olmuşdur. Məhz ümummilli liderin sayəsində Azərbaycan milli mətbuatı ölkəmizdə həmişə qabaqcıl ideyaların carçısı, dövrün, ictimai-siyasi həyatın güzgüsü olmuşdur. Dahi şəxsiyyət Heydər Əliyev bildirirdi ki, xalqımızın milli-mənəvi dəyərlərinin qorunmasında və zənginləşməsində, Azərbaycan ədəbi dilinin inkişafında milli mətbuat müstəsna xidmətlər göstərmək iqtidarındadır.

Heydər Əliyev ölkə rəhbəri olduğu ilk dövrlərdən gənclərin himayədarı olaraq sağlam düşüncəli yeni gənc nəslin yetişdirilməsini dövlət və cəmiyyətin mühüm vəzifəsi hesab edirdi. Bu məqsədlə ümummilli lider gənclərin dövlətin və cəmiyyətin sosial-iqtisadi, ictimai-siyasi və mədəni həyatında iştirakının təmin edilməsini vacib məsələlərdən biri kimi bəyan etmişdir. Əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş dövlət gənclər siyasəti Azərbaycan gəncliyinin gələcək inkişafında dərin izlər buraxmışdır.

Heydər Əliyev səhiyyə quruculuğu ilə əlaqədar qarşıya qoyduğu tədbirlər kompleksinə köhnə səhiyyə ocaqlarının yenidən qurulması, yenilərinin tikilməsi və ən müasir aparatlarla təchiz olunması, eləcə də əhalinin kütləvi surətdə dispanser qeydiyyatdan keçirilməsi və sahə həkimlərinin fəaliyyətinin artırılmasından başladı. Bu məqsədlə səhiyyədə radikal islahatların həyata keçirilməsi üçün zəruri olan qanunvericilik bazası təkmilləşdirildi.

Dövlətçiliyin mükəmməl təməl prinsiplərini yaradan Heydər Əliyev idarəçilikdə səriştəsizliyə, qətiyyətsizliyə, bəsitliyə birdəfəlik son qoyaraq uğurlu daxili və xarici siyasət yeritmişdir. Dövlət idarəçiliyi sahəsində zəngin təcrübəyə malik ümummilli lider əvvəllər xarici siyasətdə yol verilmiş səhvlərin aradan qaldırılması istiqamətində qətiyyətli addımlar ataraq birinci növbədə qonşu dövlətlərlə münasibətləri nizama salmağa çalışmış, balanslaşdırılmış xarici siyasət yeritməklə respublikamızın geosiyasi rəqabət meydanına çevrilməsinə yol verməmişdir. Heydər Əliyev böyük strateq kimi aparıcı dünya dövlətlərini respublikamızın tarazlı və müstəqil siyasət yeridəcəyinə inandıra bilmişdir. ***“Respublikamızın qarşısında duran əsas vəzifələrdən biri Azərbaycanın mənafeyini dünya miqyasında müdafiə edə bilən ağıllı, səriştəli xarici siyasətin yeridilməsidir. Vəzifə dünyanın bütün dövlətləri ilə bərabərhüquqlu, qarşılıqlı-faydalı əlaqələr yaratmaq və inkişaf etdirməkdən, bu əlaqələrin həm Azərbaycan Respublikasının beynəlxalq mövqelərini möhkəmləndirmək üçün, həm də respublikanın iqtisadiyyatını, elmini, mədəniyyətini inkişaf etdirmək üçün səmərəli istifadə etməkdən ibarətdir”*** - deyən ümummilli lider həmçinin bildirmişdir ki, müxtəlif dövlətlərlə və beynəlxalq təşkilatlarla qarşılıqlı faydalı əməkdaşlıq əlaqələrinin qurulması, Avroatlantik məkana inteqrasiya, sivil Qərb dəyərlərinin mənimsənilməsi Azərbaycanın xarici siyasət prioritetləri sırasında mühüm yer tutur.

Bu gün əminliklə deyə bilərik ki, Azərbaycan xalqının demokratik, hüquqi dövlətdə yaşamaq idealının real və dayanıqlı əsaslar üzərində gerçəkləşərək əbədiləşməsi çağdaş tariximizin unudulmaz dühası - ümummilli lider Heydər Əliyevin adı ilə üzvü surətdə bağlıdır. Bütün həyatını öz xalqına bəxş etmiş Heydər Əliyevin dövlət xadimi kimi zəngin fəaliyyəti Azərbaycan xalqının tarixində dərin iz buraxaraq əsl dövlət idarəçiliyi məktəbinə çevrilmişdir. Azərbaycan xalqının hələ neçə-neçə nəsli bu böyük məktəbdən, Heydər Əliyevin zəngin siyasi irsindən ölkəmizin inkişafı, xalqımızın rifahı naminə faydalanacaqdır.

**Redaksiya heyəti**



# YENİ SƏNƏDLƏR, NORMATİV AKTLAR

Bülletenin ikinci nömrəsindən (2006-cı il) onun strukturunda “Normativ-hüquqi aktlar” adlı sərlövhəyə yer ayrılmış, 2007-ci ilin birinci nömrəsindən etibarən isə həmin sərlövhə bu bölmədə dərc edilən materiallara tam uyğun gəlməsi üçün “Yeni sənədlər, normativ aktlar” adlandırılmışdır. Sərlövhəni təqdim etməkdə məqsəd muxtar respublikamızla bağlı məsələləri tənzimləyən Azərbaycan Respublikasının qanunvericiliyi, Naxçıvan Muxtar Respublikasının hüquqi aktları, qanunvericiliyə gətirilən yeniliklərlə yanaşı, Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamları, normativ-hüquqi aktlar sisteminə daxil olmayan, lakin muxtar respublikamız üçün zəruri əhəmiyyətə malik olan rəsmi sənədlərlə oxucularımızı tanış etmək olmuşdur. Bu məqsədə xidmət edən sərlövhədə indiyədək 110-dan çox qanunvericilik aktı və mühüm rəsmi sənəd dərc edilmişdir. Bu isə məhkəmə və digər hüquq-mühafizə orqanları əməkdaşlarının, habelə əhalinin muxtar respublikamızla bağlı zəruri hüquqi sənədlərlə yaxından tanış olmasına əlverişli şərait yaratmışdır.

Bülletenin bu sayının sözügedən sərlövhəsində oxucularımızı yeni qəbul edilmiş bir sıra qanunvericilik aktları ilə tanış edirik.

***Redaksiya heyəti***

## "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 5-ci bəndini rəhbər tutaraq qərara alır:

"Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikasının Qanununa (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1997, № 5, maddə 413; 1999-cu il, № 5, maddə 284, № 7, maddə 396, № 10, maddə 570; 2001-ci il, № 5, maddə 292, № 6, maddə 379, № 7, maddə 455; 2002-ci il, № 1, maddə 4, № 12, maddə 706; 2003-cü il, № 6, maddə 278; 2004-cü il, № 2, maddə 57, № 3, maddə 133, № 4, maddə 199, № 8, maddələr 597, 598, № 9, maddə 669; 2005-ci il, № 1, maddə 7, № 8, maddə 686; 2006-cı il, № 1, maddə 4, № 12, maddə 1005; 2007-ci il, № 5, maddələr 439, 446, № 7, maddə 712, № 11, maddə 1078, № 12, maddə 1222; 2008-ci il, № 3, maddə 163, № 7, maddə 609; 2009-cu il, № 2, maddə 46, № 11, maddə 878; 2010-cu il, № 7, maddə 596, № 10, maddə 842) aşağıdakı dəyişikliklər edilsin:

1. 93-1-ci maddənin birinci hissəsində "təşkilinin" sözündən sonra "və hakimlərin müstəqilliyinin" sözləri əlavə edilsin;

2. Aşağıdakı məzmunda 97-1-ci maddə əlavə edilsin:

"97-1. Hakimlərin ezam edilməsi

Hakimlər öz razılığı ilə Məhkəmə-Hüquq Şurasının qərarına əsasən 2 ilədək müddətə Məhkəmə-Hüquq Şurasının Aparatına, habelə müvafiq icra hakimiyyəti orqanının müraciəti olduqda, tədris fəaliyyətində və ya birinci və apellyasiya instansiyası məhkəmələrində bu Qanunun 86-cı maddəsinin ikinci hissəsində nəzərdə tutulmuş sahələr üzrə işin təşkili vəziyyətinin yoxlanılmasında iştirak etmək üçün həmin quruma ezam edilə bilərlər. Zərurət olduqda bu müddət ezam edilmiş hakimin razılığı ilə yenidən 2 ilədək uzadıla bilər.

Məhkəmə-Hüquq Şurasının Aparatına və ya müvafiq icra hakimiyyəti orqanına ezam edilmiş hakimin hakimlik stajı davam edir, hakimlərin statusundan irəli gələn maddi və sosial təminatları və imtiyazları saxlanılır.

Ezam edilmiş hakim özünün və ya ezam edildiyi qurumun təşəbbüsü ilə Məhkəmə-Hüquq Şurasının qərarı ilə əvvəl işlədiyi vəzifəyə qaytarılır.";

3. 114-cü maddədə:

3.1. üçüncü hissədən "1-ci və" sözləri çıxarılsın;

3.2. dördüncü hissədə "3-5-ci bəndlərində" sözlərindən əvvəl "1-ci və" sözləri əlavə edilsin.

**İlham Əliyev**
*Azərbaycan Respublikasının Prezidenti*

Bakı şəhəri, 21 dekabr 2012-ci il.

§

## "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2012-ci il 21 dekabr tarixli 520-IVQD nömrəli Qanununun tətbiqi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu bəndini rəhbər tutaraq, "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2012-ci il 21 dekabr tarixli 520-IVQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədi ilə qərara alıram:

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. üç ay müddətində Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini hazırlasın və Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. üç ay müddətində Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını təmin etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin etsin və bu barədə Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

3. Müəyyən edilsin ki:

3.1. "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikası Qanununun 97-1-ci maddəsinin birinci hissəsində nəzərdə tutulmuş "müvafiq icra hakimiyyəti orqanı"nın səlahiyyətlərini Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi, Naxçıvan Muxtar Respublikasının ərazisində (yalnız birinci instansiya məhkəmələrinə münasibətdə) Naxçıvan Muxtar Respublikasının Ədliyyə Nazirliyi həyata keçirir;

3.2. həmin Qanunun 97-1-ci maddəsinin ikinci hissəsində "müvafiq icra hakimiyyəti orqanı" dedikdə Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi və Naxçıvan Muxtar Respublikasının Ədliyyə Nazirliyi nəzərdə tutulur.

**İlham Əliyev**
*Azərbaycan Respublikasının Prezidenti*

Bakı şəhəri, 31 yanvar 2013-cü il.

**§**

## "Məhkəmə-Hüquq Şurası haqqında"Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 5-ci bəndini rəhbər tutaraq qərara alır:

"Məhkəmə-Hüquq Şurası haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 1, maddə 8, № 8, maddə 686; 2006, № 1, maddə 4; 2007, № 4, maddə 321; 2010, № 7, maddə 596; 2011, № 2, maddə 71, № 6, maddə 484) aşağıdakı dəyişikliklər edilsin:

1. 1-ci maddədə "təşkilinin" sözündən sonra "və hakimlərin müstəqilliyinin" sözləri əlavə edilsin.

2. 13.1-ci maddədə “, bir qayda olaraq, üç ildə bir dəfə” sözləri “beş ildə bir dəfədən az olmayaraq” sözləri ilə əvəz edilsin.

3. 14.5-ci maddədə:

3.1. birinci cümlədə “qərarlarından” sözü “qərarından həmin qərar təqdim edildiyi gündən 10 gün müddətində” sözləri ilə əvəz edilsin;

3.2. ikinci cümlədə “10 gün müddətində” sözləri “1 ay müddətində Məhkəmə-Hüquq Şurasının iclasında” sözləri ilə əvəz edilsin.

4. 19.4-cü maddədə “iki” sözü “üç” sözü ilə əvəz edilsin.

5. 21.1-ci maddənin ikinci cümləsində “bilmədikdə” sözündən sonra “və ya icraat üzrə əlavə araşdırma tələb olunduqda” sözləri əlavə edilsin.

6. 26.1-ci maddənin ikinci cümləsində “iki il altı aydır” sözləri “beş ildir” sözləri ilə əvəz edilsin.

**İlham Əliyev**
*Azərbaycan Respublikasının Prezidenti*

Bakı şəhəri, 21 dekabr 2012-ci il.

**§**

## “Məhkəmə-Hüquq Şurası haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının 2012-ci il 21 dekabr tarixli 521-IVQD nömrəli Qanununun tətbiqi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu bəndini rəhbər tutaraq, “Məhkəmə-Hüquq Şurası haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının 2012-ci il 21 dekabr tarixli 521-IVQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədi ilə qərara alıram:

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. üç ay müddətində Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının “Məhkəmə-Hüquq Şurası haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini hazırlasın və Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. üç ay müddətində Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını təmin etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "Məhkəmə-Hüquq Şurası haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin etsin və bu barədə Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

**İlham Əliyev**
*Azərbaycan Respublikasının Prezidenti*

Bakı şəhəri, 27 dekabr 2012-ci il.

§

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2009-cu il 19 mart tarixli 44 nömrəli qərarı ilə təsdiq edilmiş "Dövlət qulluqçusunun əlavə peşə təhsilinin növü, forması, müddəti və maliyyə təminatı Qaydaları"nda dəyişikliklər edilməsi barədə

Azərbaycan Respublikasının
Nazirlər Kabineti

***Qərar***

**№ 248**

Bakı şəhəri, 22 oktyabr 2012-ci il

"Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2012-ci il 20 aprel tarixli 345-IVQD nömrəli Qanununun tətbiqi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 8 may tarixli 624 nömrəli Fərmanının 1.2-ci bəndinin icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti QƏRARA ALIR:

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2009-cu il 19 mart tarixli 44 nömrəli qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, № 3, maddə 201, № 12, maddə 1079) ilə təsdiq edilmiş "Dövlət qulluqçusunun əlavə peşə təhsilinin növü, forması, müddəti və maliyyə təminatı Qaydaları"nda aşağıdakı dəyişikliklər edilsin:

1.1. 4-cü hissədə "1-5-ci kateqoriya" sözləri "ali-2-ci kateqoriya" sözləri ilə, "6-cı və 7-ci kateqoriya" sözləri "3-5-ci kateqoriya" sözləri ilə əvəz edilsin;

1.2. 4-1-ci hissədə "3-7-ci kateqoriya" sözləri "2-5-ci kateqoriya" sözləri ilə əvəz edilsin.

**Azərbaycan Respublikasının Baş naziri Artur Rasi-zadə**

§

## "İnzibati vəzifələrin altıncı-doqquzuncu təsnifatlarına uyğun olan vakant vəzifələrin tutulmasının Ümumi Şərtləri"nin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2009-cu il 17 sentyabr tarixli 143 nömrəli qərarında dəyişikliklər edilməsi haqqında

Azərbaycan Respublikasının
Nazirlər Kabineti

***QƏRAR***

**№ 249**

Bakı şəhəri, 22 oktyabr 2012-ci il

"Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2012-ci il 20 aprel tarixli 345-IVQD nömrəli Qanununun tətbiqi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 8 may tarixli 624 nömrəli Fərmanının 1.2-ci bəndinin icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti QƏRARA ALIR:

1. "İnzibati vəzifələrin altıncı-doqquzuncu təsnifatlarına uyğun olan vakant vəzifələrin tutulmasının Ümumi Şərtləri"nin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2009-cu il 17 sentyabr tarixli 143 nömrəli qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, № 9, maddə 747) aşağıdakı dəyişikliklər edilsin:

1.1. adında və 1-ci hissəsində "altıncı-doqquzuncu" sözləri "beşinci-yeddinci" sözləri ilə əvəz edilsin;

1.2. həmin qərarla təsdiq edilmiş "İnzibati vəzifələrin altıncı-doqquzuncu təsnifatlarına uyğun olan vakant vəzifələrin tutulmasının Ümumi Şərtləri"nin adında, 1-ci, 2-ci və 7-ci hissələrində "altıncı-doqquzuncu" sözləri "beşinci-yeddinci" sözləri ilə əvəz edilsin;

1.3. 8-ci hissə aşağıdakı redaksiyada verilsin:

"8. Müvafiq vəzifələr üzrə Ümumi Şərtlər aşağıdakı kimi müəyyən edilir:

8.1. İnzibati vəzifələrin beşinci təsnifatı:

8.1.1. sektor müdiri, baş mühasib

Təhsilə dair tələblər: müvafiq ali təhsil;

İş stajına dair tələblər: vəzifənin qulluq funksiyalarını nəzərə alaraq 3 ildən 5 ilədək iş stajı;

Bilməlidir: Azərbaycan Respublikasının Konstitusiyasını, Azərbaycan Respublikasının "Dövlət qulluğu haqqında", "Korrupsiyaya qarşı mübarizə haqqında", "Dövlət qulluqçularının etik davranış qaydaları haqqında", "Vətəndaşların müraciətlərinə baxılması qaydası haqqında" qanunlarını, dövlət qulluğu, dövlət orqanı və vəzifənin fəaliyyət istiqaməti üzrə münasibətləri tənzimləyən digər normativ hüquqi aktları, qulluq funksiyalarının icrası ilə əlaqədar zəruri peşə-ixtisas biliklərini, Azərbaycan haqqında ümumi məlumatları, idarəetmə, o cümlədən insan resurslarının idarə edilməsi ilə bağlı nəzəri və praktiki bilikləri;

8.1.2. baş məsləhətçi

Təhsilə dair tələblər: müvafiq ali təhsil;

İş stajına dair tələblər: vəzifənin qulluq funksiyalarını nəzərə alaraq 2 ildən 3 ilədək iş stajı;

Bilməlidir: Azərbaycan Respublikasının Konstitusiyasını, Azərbaycan Respublikasının "Dövlət qulluğu haqqında", "Korrupsiyaya qarşı mübarizə haqqında", "Dövlət qulluqçularının etik davranış qaydaları haqqında", "Vətəndaşların müraciətlərinə baxılması qaydası haqqında" qanunlarını, dövlət qulluğu, dövlət orqanı və vəzifənin fəaliyyət istiqaməti üzrə münasibətləri tənzimləyən digər normativ hüquqi aktları, qulluq funksiyalarının icrası ilə əlaqədar zəruri peşə-ixtisas biliklərini, Azərbaycan haqqında ümumi məlumatları;

8.1.3. böyük məsləhətçi

Təhsilə dair tələblər: müvafiq ali təhsil;

İş stajına dair tələblər: vəzifənin qulluq funksiyalarını nəzərə alaraq 1 ildən 2 ilədək iş stajı;

Bilməlidir: Azərbaycan Respublikasının Konstitusiyasını, Azərbaycan Respublikasının “Dövlət qulluğu haqqında”, “Korrupsiyaya qarşı mübarizə haqqında”, “Dövlət qulluqçularının etik davranış qaydaları haqqında”, “Vətəndaşların müraciətlərinə baxılması qaydası haqqında” qanunlarını, dövlət qulluğu, dövlət orqanı və vəzifənin fəaliyyət istiqaməti üzrə münasibətləri tənzimləyən digər normativ hüquqi aktları, qulluq funksiyalarının icrası ilə əlaqədar zəruri peşə-ixtisas biliklərini, Azərbaycan haqqında ümumi məlumatları;

8.1.4. aparıcı məsləhətçi, məsləhətçi

Təhsilə dair tələblər: müvafiq ali təhsil;

İş stajına dair tələblər: tələb müəyyən edilmir;

Bilməlidir: Azərbaycan Respublikasının Konstitusiyasını, Azərbaycan Respublikasının “Dövlət qulluğu haqqında”, “Korrupsiyaya qarşı mübarizə haqqında”, “Dövlət qulluqçularının etik davranış qaydaları haqqında”, “Vətəndaşların müraciətlərinə baxılması qaydası haqqında” qanunlarını, dövlət qulluğu, dövlət orqanı və vəzifənin fəaliyyət istiqaməti üzrə münasibətləri tənzimləyən digər normativ hüquqi aktları, qulluq funksiyalarının icrası ilə əlaqədar zəruri peşə-ixtisas biliklərini, Azərbaycan haqqında ümumi məlumatları;

8.1.5. hakimin köməkçisi, məhkəmə iclasının katibi

Təhsilə dair tələblər: müvafiq ali təhsil;

İş stajına dair tələblər: tələb müəyyən edilmir;

Bilməlidir: Azərbaycan Respublikasının Konstitusiyasını, Azərbaycan Respublikasının “Dövlət qulluğu haqqında”, “Korrupsiyaya qarşı mübarizə haqqında”, “Dövlət qulluqçularının etik davranış qaydaları haqqında”, “Vətəndaşların müraciətlərinə baxılması qaydası haqqında” qanunlarını, dövlət qulluğu, dövlət orqanı və vəzifənin fəaliyyət istiqaməti üzrə münasibətləri tənzimləyən digər normativ hüquqi aktları, qulluq funksiyalarının icrası ilə əlaqədar zəruri peşə-ixtisas biliklərini, Azərbaycan haqqında ümumi məlumatları;

8.1.6. idarə rəhbəri, aparat rəhbəri

Təhsilə dair tələblər: müvafiq ali təhsil;

İş stajına dair tələblər: vəzifənin qulluq funksiyalarını nəzərə alaraq 3 ildən 7 ilədək iş stajı;

Bilməlidir: Azərbaycan Respublikasının Konstitusiyasını, Azərbaycan Respublikasının “Dövlət qulluğu haqqında”, “Korrupsiyaya qarşı mübarizə haqqında”, “Dövlət qulluqçularının etik davranış qaydaları haqqında”, “Vətəndaşların müraciətlərinə baxılması qaydası haqqında” qanunlarını, dövlət

qulluğu, dövlət orqanı və vəzifənin fəaliyyət istiqaməti üzrə münasibətləri tənzimləyən digər normativ hüquqi aktları, qulluq funksiyalarının icrası ilə əlaqədar zəruri peşə-ixtisas biliklərini, Azərbaycan haqqında ümumi məlumatları, idarəetmə, o cümlədən insan resurslarının idarə edilməsi ilə bağlı nəzəri və praktiki bilikləri;

8.1.7. idarə rəhbərinin müavini

Təhsilə dair tələblər: müvafiq ali təhsil;

İş stajına dair tələblər: vəzifənin qulluq funksiyalarını nəzərə alaraq 2 ildən 5 ilədək iş stajı;

Bilməlidir: Azərbaycan Respublikasının Konstitusiyasını, Azərbaycan Respublikasının "Dövlət qulluğu haqqında", "Korrupsiyaya qarşı mübarizə haqqında", "Dövlət qulluqçularının etik davranış qaydaları haqqında", "Vətəndaşların müraciətlərinə baxılması qaydası haqqında" qanunlarını, dövlət qulluğu, dövlət orqanı və vəzifənin fəaliyyət istiqaməti üzrə münasibətləri tənzimləyən digər normativ hüquqi aktları, qulluq funksiyalarının icrası ilə əlaqədar zəruri peşə-ixtisas biliklərini, Azərbaycan haqqında ümumi məlumatları, idarəetmə, o cümlədən insan resurslarının idarə edilməsi ilə bağlı nəzəri və praktiki bilikləri;

8.1.8. şöbə müdiri

Təhsilə dair tələblər: müvafiq ali təhsil;

İş stajına dair tələblər: vəzifənin qulluq funksiyalarını nəzərə alaraq 3 ildən 5 ilədək iş stajı;

Bilməlidir: Azərbaycan Respublikasının Konstitusiyasını, Azərbaycan Respublikasının "Dövlət qulluğu haqqında", "Korrupsiyaya qarşı mübarizə haqqında", "Dövlət qulluqçularının etik davranış qaydaları haqqında", "Vətəndaşların müraciətlərinə baxılması qaydası haqqında" qanunlarını, dövlət qulluğu, dövlət orqanı və vəzifənin fəaliyyət istiqaməti üzrə münasibətləri tənzimləyən digər normativ hüquqi aktları, qulluq funksiyalarının icrası ilə əlaqədar zəruri peşə-ixtisas biliklərini, Azərbaycan haqqında ümumi məlumatları, idarəetmə, o cümlədən insan resurslarının idarə edilməsi ilə bağlı nəzəri və praktiki bilikləri;

8.1.9. şöbə müdirinin müavini

Təhsilə dair tələblər: müvafiq ali təhsil;

İş stajına dair tələblər: vəzifənin qulluq funksiyalarını nəzərə alaraq 2 ildən 3 ilədək iş stajı;

Bilməlidir: Azərbaycan Respublikasının Konstitusiyasını, Azərbaycan Respublikasının "Dövlət qulluğu haqqında", "Korrupsiyaya qarşı mübarizə haqqında", "Dövlət qulluqçularının etik davranış qaydaları haqqında", "Və-

təndaşların müraciətlərinə baxılması qaydası haqqında" qanunlarını, dövlət qulluğu, dövlət orqanı və vəzifənin fəaliyyət istiqaməti üzrə münasibətləri tənzimləyən digər normativ hüquqi aktları, qulluq funksiyalarının icrası ilə əlaqədar zəruri peşə-ixtisas biliklərini, Azərbaycan haqqında ümumi məlumatları, idarəetmə, o cümlədən insan resurslarının idarə edilməsi ilə bağlı nəzəri və praktiki bilikləri;

8.1.10. rəhbər

Təhsilə dair tələblər: müvafiq ali təhsil;

İş stajına dair tələblər: vəzifənin qulluq funksiyalarını nəzərə alaraq 3 ildən 5 ilədək iş stajı;

Bilməlidir: Azərbaycan Respublikasının Konstitusiyasını, Azərbaycan Respublikasının "Dövlət qulluğu haqqında", "Korrupsiyaya qarşı mübarizə haqqında", "Dövlət qulluqçularının etik davranış qaydaları haqqında", "Vətəndaşların müraciətlərinə baxılması qaydası haqqında" qanunlarını, dövlət qulluğu, dövlət orqanı və vəzifənin fəaliyyət istiqaməti üzrə münasibətləri tənzimləyən digər normativ hüquqi aktları, qulluq funksiyalarının icrası ilə əlaqədar zəruri peşə-ixtisas biliklərini, Azərbaycan haqqında ümumi məlumatları, idarəetmə, o cümlədən insan resurslarının idarə edilməsi ilə bağlı nəzəri və praktiki bilikləri.

8.2. İnzibati vəzifələrin altıncı təsnifatı:

8.2.1. sektor müdiri, baş mühasib

Təhsilə dair tələblər: müvafiq ali təhsil;

İş stajına dair tələblər: vəzifənin qulluq funksiyalarını nəzərə alaraq 2 ildən 3 ilədək iş stajı;

Bilməlidir: Azərbaycan Respublikasının Konstitusiyasını, Azərbaycan Respublikasının "Dövlət qulluğu haqqında", "Korrupsiyaya qarşı mübarizə haqqında", "Dövlət qulluqçularının etik davranış qaydaları haqqında", "Vətəndaşların müraciətlərinə baxılması qaydası haqqında" qanunlarını, dövlət qulluğu, dövlət orqanı və vəzifənin fəaliyyət istiqaməti üzrə münasibətləri tənzimləyən digər normativ hüquqi aktları, qulluq funksiyalarının icrası ilə əlaqədar zəruri peşə-ixtisas biliklərini, Azərbaycan haqqında ümumi məlumatları, idarəetmə, o cümlədən insan resurslarının idarə edilməsi ilə bağlı nəzəri və praktiki bilikləri;

8.2.2. baş məsləhətçi

Təhsilə dair tələblər: müvafiq ali təhsil;

İş stajına dair tələblər: vəzifənin qulluq funksiyalarını nəzərə alaraq 1 ildən 2 ilədək iş stajı;

Bilməlidir: Azərbaycan Respublikasının Konstitusiyasını, Azərbaycan Respublikasının "Dövlət qulluğu haqqında", "Korrupsiyaya qarşı mübarizə

haqqında", "Dövlət qulluqçularının etik davranış qaydaları haqqında", "Vətəndaşların müraciətlərinə baxılması qaydası haqqında" qanunlarını, dövlət qulluğu, dövlət orqanı və vəzifənin fəaliyyət istiqaməti üzrə münasibətləri tənzimləyən digər normativ hüquqi aktları, qulluq funksiyalarının icrası ilə əlaqədar zəruri peşə-ixtisas biliklərini, Azərbaycan haqqında ümumi məlumatları;

8.2.3. böyük məsləhətçi, aparıcı məsləhətçi, məsləhətçi

Təhsilə dair tələblər: müvafiq ali təhsil;

İş stajına dair tələblər: tələb müəyyən edilmir;

Bilməlidir: Azərbaycan Respublikasının Konstitusiyasını, Azərbaycan Respublikasının "Dövlət qulluğu haqqında", "Korrupsiyaya qarşı mübarizə haqqında", "Dövlət qulluqçularının etik davranış qaydaları haqqında", "Vətəndaşların müraciətlərinə baxılması qaydası haqqında" qanunlarını, dövlət qulluğu, dövlət orqanı və vəzifənin fəaliyyət istiqaməti üzrə münasibətləri tənzimləyən digər normativ hüquqi aktları, qulluq funksiyalarının icrası ilə əlaqədar zəruri peşə-ixtisas biliklərini, Azərbaycan haqqında ümumi məlumatları;

8.2.4. rəhbər müavini

Təhsilə dair tələblər: müvafiq ali təhsil;

İş stajına dair tələblər: vəzifənin qulluq funksiyalarını nəzərə alaraq 1 ildən 2 ilədək iş stajı;

Bilməlidir: Azərbaycan Respublikasının Konstitusiyasını, Azərbaycan Respublikasının "Dövlət qulluğu haqqında", "Korrupsiyaya qarşı mübarizə haqqında", "Dövlət qulluqçularının etik davranış qaydaları haqqında", "Vətəndaşların müraciətlərinə baxılması qaydası haqqında" qanunlarını, dövlət qulluğu, dövlət orqanı və vəzifənin fəaliyyət istiqaməti üzrə münasibətləri tənzimləyən digər normativ hüquqi aktları, qulluq funksiyalarının icrası ilə əlaqədar zəruri peşə-ixtisas biliklərini, Azərbaycan haqqında ümumi məlumatları, idarəetmə, o cümlədən insan resurslarının idarə edilməsi ilə bağlı nəzəri və praktiki bilikləri;

8.2.5. hakimin köməkçisi, məhkəmə iclasının katibi

Təhsilə dair tələblər: müvafiq ali təhsil;

İş stajına dair tələblər: tələb müəyyən edilmir;

Bilməlidir: Azərbaycan Respublikasının Konstitusiyasını, Azərbaycan Respublikasının "Dövlət qulluğu haqqında", "Korrupsiyaya qarşı mübarizə haqqında", "Dövlət qulluqçularının etik davranış qaydaları haqqında", "Vətəndaşların müraciətlərinə baxılması qaydası haqqında" qanunlarını, dövlət qulluğu, dövlət orqanı və vəzifənin fəaliyyət istiqaməti üzrə münasibətləri

tənzimləyən digər normativ hüquqi aktları, qulluq funksiyalarının icrası ilə əlaqədar zəruri peşə-ixtisas biliklərini, Azərbaycan haqqında ümumi məlumatları;

8.2.6. şöbə müdiri

Təhsilə dair tələblər: müvafiq ali təhsil;

İş stajına dair tələblər: vəzifənin qulluq funksiyalarını nəzərə alaraq 2 ildən 3 ilədək iş stajı;

Bilməlidir: Azərbaycan Respublikasının Konstitusiyasını, Azərbaycan Respublikasının "Dövlət qulluğu haqqında", "Korrupsiyaya qarşı mübarizə haqqında", "Dövlət qulluqçularının etik davranış qaydaları haqqında", "Vətəndaşların müraciətlərinə baxılması qaydası haqqında" qanunlarını, dövlət qulluğu, dövlət orqanı və vəzifənin fəaliyyət istiqaməti üzrə münasibətləri tənzimləyən digər normativ hüquqi aktları, qulluq funksiyalarının icrası ilə əlaqədar zəruri peşə-ixtisas biliklərini, Azərbaycan haqqında ümumi məlumatları, idarəetmə, o cümlədən insan resurslarının idarə edilməsi ilə bağlı nəzəri və praktiki bilikləri;

8.2.7. şöbə müdirinin müavini

Təhsilə dair tələblər: müvafiq ali təhsil;

İş stajına dair tələblər: vəzifənin qulluq funksiyalarını nəzərə alaraq 1 ildən 2 ilədək iş stajı;

Bilməlidir: Azərbaycan Respublikasının Konstitusiyasını, Azərbaycan Respublikasının "Dövlət qulluğu haqqında", "Korrupsiyaya qarşı mübarizə haqqında", "Dövlət qulluqçularının etik davranış qaydaları haqqında", "Vətəndaşların müraciətlərinə baxılması qaydası haqqında" qanunlarını, dövlət qulluğu, dövlət orqanı və vəzifənin fəaliyyət istiqaməti üzrə münasibətləri tənzimləyən digər normativ hüquqi aktları, qulluq funksiyalarının icrası ilə əlaqədar zəruri peşə-ixtisas biliklərini, Azərbaycan haqqında ümumi məlumatları, idarəetmə, o cümlədən insan resurslarının idarə edilməsi ilə bağlı nəzəri və praktiki bilikləri;

8.2.8. rəhbər və onun müavini

Təhsilə dair tələblər: müvafiq ali təhsil;

İş stajına dair tələblər: vəzifənin qulluq funksiyalarını nəzərə alaraq 1 ildən 3 ilədək iş stajı;

Bilməlidir: Azərbaycan Respublikasının Konstitusiyasını, Azərbaycan Respublikasının "Dövlət qulluğu haqqında", "Korrupsiyaya qarşı mübarizə haqqında", "Dövlət qulluqçularının etik davranış qaydaları haqqında", "Vətəndaşların müraciətlərinə baxılması qaydası haqqında" qanunlarını, dövlət qulluğu, dövlət orqanı və vəzifənin fəaliyyət istiqaməti üzrə münasibətləri

tənzimləyən digər normativ hüquqi aktları, qulluq funksiyalarının icrası ilə əlaqədar zəruri peşə-ixtisas biliklərini, Azərbaycan haqqında ümumi məlumatları, idarəetmə, o cümlədən insan resurslarının idarə edilməsi ilə bağlı nəzəri və praktiki bilikləri.

8.3. İnzibati vəzifələrin yeddinci təsnifatı:

8.3.1. sektor müdiri, baş mühasib

Təhsilə dair tələblər: müvafiq ali təhsil;

İş stajına dair tələblər: bir qayda olaraq tələb müəyyən edilmir. Vəzifənin qulluq funksiyalarını nəzərə alaraq 1 ildən 2 ilədək iş stajı tələb edilə bilər;

Bilməlidir: Azərbaycan Respublikasının Konstitusiyasını, Azərbaycan Respublikasının "Dövlət qulluğu haqqında", "Korrupsiyaya qarşı mübarizə haqqında", "Dövlət qulluqçularının etik davranış qaydaları haqqında", "Vətəndaşların müraciətlərinə baxılması qaydası haqqında" qanunlarını, dövlət qulluğu, dövlət orqanı və vəzifənin fəaliyyət istiqaməti üzrə münasibətləri tənzimləyən digər normativ hüquqi aktları, qulluq funksiyalarının icrası ilə əlaqədar zəruri peşə-ixtisas biliklərini, Azərbaycan haqqında ümumi məlumatları, idarəetmə, o cümlədən insan resurslarının idarə edilməsi ilə bağlı nəzəri və praktiki bilikləri;

8.3.2. baş məsləhətçi, böyük məsləhətçi, aparıcı məsləhətçi, məsləhətçi

Təhsilə dair tələblər: müvafiq ali təhsil;

İş stajına dair tələblər: tələb müəyyən edilmir;

Bilməlidir: Azərbaycan Respublikasının Konstitusiyasını, Azərbaycan Respublikasının "Dövlət qulluğu haqqında", "Korrupsiyaya qarşı mübarizə haqqında", "Dövlət qulluqçularının etik davranış qaydaları haqqında", "Vətəndaşların müraciətlərinə baxılması qaydası haqqında" qanunlarını, dövlət qulluğu, dövlət orqanı və vəzifənin fəaliyyət istiqaməti üzrə münasibətləri tənzimləyən digər normativ hüquqi aktları, qulluq funksiyalarının icrası ilə əlaqədar zəruri peşə-ixtisas biliklərini, Azərbaycan haqqında ümumi məlumatları;

8.3.3. hakimin köməkçisi, məhkəmə iclasının katibi

Təhsilə dair tələblər: müvafiq ali təhsil;

İş stajına dair tələblər: tələb müəyyən edilmir;

Bilməlidir: Azərbaycan Respublikasının Konstitusiyasını, Azərbaycan Respublikasının "Dövlət qulluğu haqqında", "Korrupsiyaya qarşı mübarizə haqqında", "Dövlət qulluqçularının etik davranış qaydaları haqqında", "Vətəndaşların müraciətlərinə baxılması qaydası haqqında" qanunlarını, dövlət qulluğu, dövlət orqanı və vəzifənin fəaliyyət istiqaməti üzrə münasibətləri tənzimləyən digər

normativ hüquqi aktları, qulluq funksiyalarının icrası ilə əlaqədar zəruri peşə-ixtisas biliklərini, Azərbaycan haqqında ümumi məlumatları;

8.3.4. yerli icra hakimiyyəti orqanlarının ərazi vahidləri üzrə nümayəndələri və onların müavinləri

Təhsilə dair tələblər: müvafiq ali təhsil;

İş stajına dair tələblər: tələb müəyyən edilmir;

Bilməlidir: Azərbaycan Respublikasının Konstitusiyasını, Azərbaycan Respublikasının "Dövlət qulluğu haqqında", "Korrupsiyaya qarşı mübarizə haqqında", "Dövlət qulluqçularının etik davranış qaydaları haqqında", "Vətəndaşların müraciətlərinə baxılması qaydası haqqında" qanunlarını, dövlət qulluğu, dövlət orqanı və vəzifənin fəaliyyət istiqaməti üzrə münasibətləri tənzimləyən digər normativ hüquqi aktları, qulluq funksiyalarının icrası ilə əlaqədar zəruri peşə-ixtisas biliklərini, Azərbaycan haqqında ümumi məlumatları.".

**Azərbaycan Respublikasının Baş naziri Artur Rasi-zadə**

§

## Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 4 avqust tarixli 911 nömrəli Fərmanı ilə təsdiq edilmiş "İnzibati və yardımçı vəzifələrin Təsnifat Toplusu"nda dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 4 avqust tarixli 911 nömrəli Fərmanı ilə təsdiq edilmiş "İnzibati və yardımçı vəzifələrin Təsnifat Toplusu"nu "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2012-ci il 20 aprel tarixli 345-IVQD nömrəli Qanununa uyğunlaşdırmaq məqsədi ilə qərara alıram:

1. Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 4 avqust tarixli 911 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2003, № 8, maddə 440; 2006, № 3, maddə 229, № 6, maddə 498; 2007, № 2, maddələr 86, 101, № 3, maddələr 217, 227, № 7, maddə 714, № 9, maddə 867, № 10, maddə 948, № 12, maddə 1242; 2008, № 1, maddə 9, № 3, maddələr 173, 179, № 6, maddə 499, № 8, maddələr 717, 723; 2009, № 2, maddə 66, № 6, maddələr 419, 421, 422; 2010, № 2, maddə 80, № 3, maddə 183, № 10, maddə 850) ilə təsdiq edilmiş "İnzibati və yardımçı vəzifələrin

Təsnifat Toplusu"nun 1-ci hissəsinin 1.9-cu, 1.10-cu bəndləri, 2-ci və 3-cü hissələri aşağıdakı redaksiyada verilsin:

"1.9. Dövlət orqanlarında aşağıdakı inzibati vəzifələr nəzərdə tutulur:

1.9.1. Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri;

1.9.2. Azərbaycan Respublikasının Dövlət müşaviri;

1.9.3. Azərbaycan Respublikası Prezidentinin Katibliyinin rəisi;

1.9.4. Azərbaycan Respublikası Prezidentinin müşaviri;

1.9.5. Azərbaycan Respublikası Prezidentinin köməkçisi;

1.9.6. Azərbaycan Respublikası Prezidentinin mətbuat katibi;

1.9.7. Azərbaycan Respublikası Prezidentinin Protokol Xidmətinin rəisi;

1.9.8. Azərbaycan Respublikası Prezidentinin Administrasiyası rəhbərinin müavini;

1.9.9. Azərbaycan Respublikası Prezidentinin Administrasiyasında şöbə müdiri;

1.9.10. Azərbaycan Respublikası Prezidentinin Protokol Xidməti rəisinin müavini;

1.9.11. Azərbaycan Respublikası Prezidentinin Administrasiyasında şöbə müdirinin müavini;

1.9.12. Azərbaycan Respublikası Prezidentinin Administrasiyası rəhbərinin köməkçisi;

1.9.13. Azərbaycan Respublikası Prezidentinin İşlər müdiri və onun birinci müavini;

1.9.14. Azərbaycan Respublikası Prezidentinin İşlər müdirinin müavini;

1.9.15. Azərbaycan Respublikası Prezidentinin İşlər müdirinin köməkçisi;

1.9.16. dövlət orqanı aparatının rəhbəri;

1.9.17. dövlət orqanı aparatının rəhbərinin müavini;

1.9.18. dövlət orqanı rəhbərinin müşaviri, köməkçisi;

1.9.19. Azərbaycan Respublikası Milli Məclisinin, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin və Azərbaycan Respublikası Nazirlər Kabinetinin aparatları rəhbərlərinin köməkçiləri;

1.9.20. Azərbaycan Respublikası Baş nazirinin müavininin köməkçisi;

1.9.21. Azərbaycan Respublikası Milli Məclisi sədrinin müavininin köməkçisi;

1.9.22. Dövlət müşavirinin köməkçisi;

1.9.23. Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkilinin (Ombudsmanın) köməkçisi;

1.9.24. Azərbaycan Respublikasının Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyasının katibi;

1.9.25. Azərbaycan Respublikası Nazirlər Kabinetinin Mətbuat xidmətinin rəhbəri və onun müavini;

1.9.26. mərkəzi icra hakimiyyəti orqanları yanında yaradılan dövlət agentliklərinin və dövlət xidmətlərinin rəhbərləri;

1.9.27. mərkəzi icra hakimiyyəti orqanları yanında yaradılan dövlət agentlikləri və dövlət xidmətləri rəhbərlərinin müavinləri;

1.9.28. yerli icra hakimiyyəti başçısının birinci müavini, müavini;

1.9.29. dövlət orqanı aparatında şöbə müdiri;

1.9.30. dövlət orqanı aparatında şöbə müdirinin müavini;

1.9.31. dövlət orqanında işlər müdiri;

1.9.32. dövlət orqanında işlər müdirinin müavini;

1.9.33. mərkəzi icra hakimiyyəti orqanları yanında, tabeliyində olan orqanların rəhbərləri;

1.9.34. mərkəzi icra hakimiyyəti orqanları yanında, tabeliyində olan orqanların rəhbərlərinin müavinləri;

1.9.35. sektor müdiri;

1.9.36. baş mühasib, baş məsləhətçi;

1.9.37. böyük məsləhətçi;

1.9.38. aparıcı məsləhətçi;

1.9.39. məsləhətçi, məhkəmə iclasının katibi, hakimin köməkçisi;

1.9.40. yerli icra hakimiyyəti başçısının inzibati ərazi dairəsi üzrə nümayəndəsi və onun müavini;

1.9.41. yerli icra hakimiyyəti başçısının sahə inzibati ərazi dairəsi üzrə nümayəndəsi və onun müavini.

1.10. Dövlət orqanlarında aşağıdakı yardımçı vəzifələr nəzərdə tutulur:

baş mütəxəssis, böyük mütəxəssis, aparıcı mütəxəssis, mütəxəssis (kargüzar, makinaçı, kuryer, arxiv qeydiyyatçısı, liftçi, sürücü və sair işçilər).

II. İnzibati və yardımçı vəzifələrin təsnifatları və adları:

2.1. “Dövlət qulluğu haqqında” Azərbaycan Respublikası Qanununun 11.1-ci maddəsinə müvafiq olaraq inzibati vəzifələrin aşağıdakı təsnifatları və adları vardır:

2.1.1. İnzibati vəzifələrin ali təsnifatı:

Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri;

Azərbaycan Respublikası Milli Məclisi Aparatının rəhbəri, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Aparatının rəhbəri, Azərbaycan Respublikası Nazirlər Kabineti Aparatının rəhbəri;

Azərbaycan Respublikasının Dövlət müşaviri.

2.1.2. İnzibati vəzifələrin birinci təsnifatı:

Azərbaycan Respublikası Prezidentinin Katibliyinin rəisi;

Azərbaycan Respublikası Prezidentinin müşaviri;

Azərbaycan Respublikası Prezidentinin köməkçisi;

Azərbaycan Respublikası Prezidentinin Mətbuat katibi;

Azərbaycan Respublikası Prezidentinin Protokol Xidmətinin rəisi;

Azərbaycan Respublikası Prezidentinin Administrasiyası rəhbərinin müavini;

Azərbaycan Respublikası Prezidentinin Administrasiyasında şöbə müdiri;

Azərbaycan Respublikası Prezidentinin İşlər müdiri, Azərbaycan Respublikası Prezidentinin Xüsusi Tibb Xidmətinin rəisi və onların birinci müavinləri;

Azərbaycan Respublikası Milli Məclisinin, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin və Azərbaycan Respublikası Nazirlər Kabinetinin aparatları rəhbərlərinin müavinləri və həmin dövlət orqanlarının aparatlarında şöbə müdirləri;

Azərbaycan Respublikası Nazirlər Kabinetinin Mətbuat xidmətinin rəhbəri;

Azərbaycan Respublikası Ali Məhkəməsi, Naxçıvan Muxtar Respublikası Ali Məclisi, Azərbaycan Respublikası Hesablama Palatası, Məhkəmə-Hüquq Şurası və Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (Ombudsman) aparatlarının rəhbərləri;

Azərbaycan Respublikası Baş nazirinin, Azərbaycan Respublikası Milli Məclisi və Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi sədrlərinin müşavirləri, köməkçiləri.

2.1.3. İnzibati vəzifələrin ikinci təsnifatı:

Azərbaycan Respublikası Prezidentinin Protokol Xidməti rəisinin müavini;

Azərbaycan Respublikası Prezidentinin Administrasiyasında şöbə müdirinin müavini;

Azərbaycan Respublikası Prezidentinin Administrasiyası rəhbərinin köməkçisi;

Azərbaycan Respublikası Prezidentinin İşlər müdirinin və Azərbaycan Respublikası Prezidentinin Xüsusi Tibb Xidməti rəisinin müavinləri;

Azərbaycan Respublikası Milli Məclisinin və Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin aparatlarında şöbə müdirinin müavini;

Azərbaycan Respublikası Nazirlər Kabinetinin Aparatında şöbə müdirinin müavini;

Azərbaycan Respublikası Nazirlər Kabinetinin Mətbuat xidməti rəhbərinin müavini;

Azərbaycan Respublikası Milli Məclisinin, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin, Azərbaycan Respublikası Nazirlər Kabinetinin İşlər müdirləri və onların müavinləri;

Azərbaycan Respublikası Ali Məhkəməsi, Naxçıvan Muxtar Respublikası Ali Məclisi, Azərbaycan Respublikası Hesablama Palatası, Məhkəmə-Hüquq Şurası, Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (Ombudsman) aparatları rəhbərlərinin müavinləri və həmin dövlət orqanlarında şöbə müdirləri;

Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin müşaviri, köməkçisi;

Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsi, Naxçıvan Muxtar Respublikası Nazirlər Kabineti və Naxçıvan Muxtar Respublikasının İnsan hüquqları üzrə müvəkkili (Ombudsman) aparatlarının rəhbərləri;

Azərbaycan Respublikası Milli Məclisi sədrinin müavininin və Azərbaycan Respublikası Baş nazirinin müavininin köməkçiləri;

Azərbaycan Respublikasının mərkəzi icra hakimiyyəti orqanları yanında yaradılan dövlət agentliklərinin və dövlət xidmətlərinin rəhbərləri, Azərbaycan Respublikasının Sahibkarlığa Kömək Milli Fondunun icraçı direktoru;

Bakı Şəhər İcra Hakimiyyəti başçısının birinci müavini və müavini.

2.1.4. İnzibati vəzifələrin üçüncü təsnifatı:

Azərbaycan Respublikası Prezidentinin Administrasiyasında sektor müdiri, baş məsləhətçi, böyük məsləhətçi, aparıcı məsləhətçi, məsləhətçi;

Azərbaycan Respublikası Dövlət müşavirinin köməkçisi;

Azərbaycan Respublikası Prezidentinin Katibliyində sektor müdiri, baş məsləhətçi, böyük məsləhətçi, aparıcı məsləhətçi, məsləhətçi;

Azərbaycan Respublikası Prezidentinin İşlər müdirinin və Azərbaycan Respublikası Prezidentinin Xüsusi Tibb Xidməti rəisinin köməkçiləri;

Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsində və Azərbaycan Respublikası Prezidentinin Xüsusi Tibb Xidmətində şöbə müdiri, onun müavini, sektor müdiri, baş mühasib, baş məsləhətçi, böyük məsləhətçi, aparıcı məsləhətçi, məsləhətçi;

Azərbaycan Respublikası Milli Məclisinin və Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin aparatlarında sektor müdiri, baş məsləhətçi, böyük məsləhətçi, aparıcı məsləhətçi, məsləhətçi;

Azərbaycan Respublikası Milli Məclisi və Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi aparatları rəhbərlərinin köməkçiləri;

Azərbaycan Respublikası Milli Məclisinin İşlər müdirinin köməkçisi;

Azərbaycan Respublikası Milli Məclisinin və Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin İşlər İdarəsində şöbə müdiri və şöbə müdirinin müavini, sektor müdiri, baş mühasib, baş məsləhətçi, böyük məsləhətçi, aparıcı məsləhətçi, məsləhətçi;

Azərbaycan Respublikası Nazirlər Kabinetinin Aparatında sektor müdiri, baş məsləhətçi, böyük məsləhətçi, aparıcı məsləhətçi, məsləhətçi;

Azərbaycan Respublikası Nazirlər Kabinetinin Aparatı rəhbərinin köməkçisi;

Azərbaycan Respublikası Nazirlər Kabinetinin İşlər İdarəsində şöbə müdiri, onun müavini, sektor müdiri, baş mühasib, baş məsləhətçi, böyük məsləhətçi, aparıcı məsləhətçi, məsləhətçi;

Azərbaycan Respublikası Ali Məhkəməsinin, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin, Azərbaycan Respublikası Hesablama Palatasının, Məhkəmə-Hüquq Şurasının, Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkilinin (Ombudsmanın) aparatlarında şöbə müdirinin müavini;

Azərbaycan Respublikasının Ali Məhkəməsi sədrinin, Azərbaycan Respublikasının Hesablama Palatası sədrinin və Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkilinin (Ombudsmanın) köməkçiləri;

Azərbaycan Respublikası Ali Məhkəməsinin İşlər müdiri və onun müavini;

Azərbaycan Respublikası apellyasiya məhkəmələri, Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyası, Azərbaycan Respublikası mərkəzi icra hakimiyyəti orqanları və onlara bərabər tutulan orqanlar, Azərbaycan Respublikası Nazirlər Kabineti yanında olan icra hakimiyyəti orqanları, Milli Televiziya və Radio Şurası aparatlarının rəhbərləri və onların müavinləri;

Bakı Şəhər İcra Hakimiyyəti başçısı Aparatının rəhbəri;

Azərbaycan Respublikasının Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyasının katibi;

Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsi, Naxçıvan Muxtar Respublikası Nazirlər Kabineti, Naxçıvan Muxtar Respublikasının İnsan hüquqları üzrə müvəkkili (Ombudsman) aparatlarının rəhbərlərinin müavinləri və onların aparatlarında şöbə müdirləri;

Azərbaycan Respublikası mərkəzi icra hakimiyyəti orqanlarının yanında yaradılan dövlət agentlikləri və dövlət xidmətləri rəhbərlərinin müavinləri, Azərbaycan Respublikasının Sahibkarlığa Kömək Milli Fondunun icraçı direktorunun müavini.

2.1.5. İnzibati vəzifələrin dördüncü təsnifatı:

Azərbaycan Respublikası Ali Məhkəməsinin Aparatında sektor müdiri, baş məsləhətçi, böyük məsləhətçi, aparıcı məsləhətçi, məsləhətçi, məhkəmə iclasının katibi, hakimin köməkçisi;

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin, Azərbaycan Respublikası Hesablama Palatasının, Məhkəmə-Hüquq Şurasının və Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkilinin (Ombudsmanın) aparatlarında sektor müdiri, baş mühasib, baş məsləhətçi, böyük məsləhətçi, aparıcı məsləhətçi, məsləhətçi;

Naxçıvan Muxtar Respublikası Baş nazirinin müşaviri, köməkçisi;

Naxçıvan Muxtar Respublikasının Bakı şəhərində Daimi Nümayəndəliyi rəhbərinin müavini;

Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkilinin (Ombudsmanın) regional mərkəzlərinin rəhbərləri və onların müavinləri;

Azərbaycan Respublikası apellyasiya məhkəmələrinin, Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının, Azərbaycan Respublikası mərkəzi icra hakimiyyəti orqanlarının və onlara bərabər tutulan orqanların, Azərbaycan Respublikası Nazirlər Kabinetinin yanında olan icra hakimiyyəti orqanlarının, Bakı Şəhər İcra Hakimiyyəti başçısının, Milli Televiziya və Radio Şurasının aparatlarında şöbə müdirləri və onların müavinləri;

Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin, Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin və Naxçıvan Muxtar Respublikasının İnsan hüquqları üzrə müvəkkilinin (Ombudsmanın) aparatlarında şöbə müdirlərinin müavinləri;

yerli icra hakimiyyəti (Bakı Şəhər İcra Hakimiyyəti istisna olmaqla) başçısının birinci müavini və müavini;

Bakı Şəhər İcra Hakimiyyəti başçısının köməkçisi;

Azərbaycan Respublikası mərkəzi icra hakimiyyəti orqanlarının və onlara bərabər tutulan orqanların, Azərbaycan Respublikası Nazirlər Kabinetinin yanında olan icra hakimiyyəti orqanlarının rəhbərlərinin müşavirləri, köməkçiləri;

Milli Televiziya və Radio Şurası sədrinin köməkçisi.

2.1.6. İnzibati vəzifələrin beşinci təsnifatı:

Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin Aparatında sektor müdiri, baş mühasib, baş məsləhətçi, böyük məsləhətçi, aparıcı məsləhətçi, məsləhətçi, məhkəmə iclasının katibi, hakimin köməkçisi;

Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin, Naxçıvan Muxtar Respublikasının İnsan hüquqları üzrə müvəkkilinin (Ombudsmanın), Azər-

baycan Respublikası Mərkəzi Seçki Komissiyasının, Azərbaycan Respublikası mərkəzi icra hakimiyyəti orqanlarının və onlara bərabər tutulan orqanların, Azərbaycan Respublikası Nazirlər Kabinetinin yanında olan icra hakimiyyəti orqanlarının, Bakı Şəhər İcra Hakimiyyəti başçısının, Milli Televiziya və Radio Şurasının aparatlarında və Azərbaycan Respublikasının Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyasının Katibliyində sektor müdiri, baş mühasib, baş məsləhətçi, böyük məsləhətçi, aparıcı məsləhətçi, məsləhətçi;

Azərbaycan Respublikası apellyasiya məhkəmələrinin aparatlarında sektor müdiri, baş mühasib, baş məsləhətçi, böyük məsləhətçi, aparıcı məsləhətçi, məsləhətçi, məhkəmə iclasının katibi, hakimin köməkçisi;

Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsi sədrinin və Naxçıvan Muxtar Respublikasının İnsan hüquqları üzrə müvəkkilinin (Ombudsmanın) köməkçiləri;

Azərbaycan Respublikası mərkəzi icra hakimiyyəti orqanlarının Naxçıvan Muxtar Respublikası üzrə idarələrinin rəhbərləri və onların müavinləri;

Naxçıvan Muxtar Respublikası mərkəzi icra hakimiyyəti orqanları aparatlarının rəhbərləri;

Naxçıvan Muxtar Respublikasının Bakı şəhərində Daimi Nümayəndəliyində sektor müdiri, baş mühasib, baş məsləhətçi, böyük məsləhətçi, aparıcı məsləhətçi, məsləhətçi;

Azərbaycan Respublikasının mərkəzi icra hakimiyyəti orqanları yanında yaradılan dövlət agentliklərinin və dövlət xidmətlərinin, Azərbaycan Respublikasının Sahibkarlığa Kömək Milli Fondunun, Naxçıvan Muxtar Respublikası Mərkəzi Seçki Komissiyasının, Naxçıvan Muxtar Respublikası mərkəzi icra hakimiyyəti orqanlarının, Naxçıvan Muxtar Respublikası Televiziya və Radio Şurasının, ağır cinayətlər məhkəmələrinin, inzibati-iqtisadi məhkəmələrin, hərbi məhkəmələrin aparatlarında şöbə müdiri və onun müavini;

Naxçıvan Muxtar Respublikası mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərlərinin köməkçiləri;

Azərbaycan Respublikasının və Naxçıvan Muxtar Respublikasının mərkəzi icra hakimiyyəti orqanlarının yerli bölmələrinin, Azərbaycan Respublikasının və Naxçıvan Muxtar Respublikasının mərkəzi icra hakimiyyəti orqanları yanında, tabeliyində olan orqanların və Naxçıvan Muxtar Respublikasının mərkəzi icra hakimiyyəti orqanları yanında yaradılan dövlət agentliklərinin və dövlət xidmətlərinin, Bakı Şəhər İcra Hakimiyyəti başçısı Aparatının birbaşa tabeliyində olan orqanların rəhbərləri;

Azərbaycan Respublikası Ali Məhkəməsinin İşlər İdarəsində şöbə müdiri, onun müavini, sektor müdiri, baş mühasib, baş məsləhətçi, böyük məsləhətçi, aparıcı məsləhətçi, məsləhətçi.

2.1.7. İnzibati vəzifələrin altıncı təsnifatı:

Azərbaycan Respublikasının mərkəzi icra hakimiyyəti orqanları yanında yaradılan dövlət agentliklərinin və dövlət xidmətlərinin, Azərbaycan Respublikasının Sahibkarlığa Kömək Milli Fondunun aparatlarında, Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkilinin (Ombudsmanın) regional mərkəzlərində, Naxçıvan Muxtar Respublikasının Mərkəzi Seçki Komissiyasında, Naxçıvan Muxtar Respublikasının mərkəzi icra hakimiyyəti orqanlarında, Naxçıvan Muxtar Respublikasının Televiziya və Radio Şurasında sektor müdiri, baş mühasib, baş məsləhətçi, böyük məsləhətçi, aparıcı məsləhətçi, məsləhətçi;

ağır cinayətlər məhkəmələrinin, inzibati-iqtisadi məhkəmələrin, hərbi məhkəmələrin aparatlarında sektor müdiri, baş mühasib, baş məsləhətçi, böyük məsləhətçi, aparıcı məsləhətçi, məsləhətçi, məhkəmə iclasının katibi, hakimin köməkçisi;

yerli icra hakimiyyəti (Bakı Şəhər İcra Hakimiyyəti istisna olmaqla) başçılarının aparatlarında şöbə müdiri və onun müavini;

Azərbaycan Respublikasının mərkəzi icra hakimiyyəti orqanlarının Naxçıvan Muxtar Respublikası üzrə idarələrinin aparatlarında sektor müdiri, baş mühasib, baş məsləhətçi, böyük məsləhətçi, aparıcı məsləhətçi, məsləhətçi;

Azərbaycan Respublikasının və Naxçıvan Muxtar Respublikasının mərkəzi icra hakimiyyəti orqanlarının yerli bölmələrinin, Azərbaycan Respublikasının və Naxçıvan Muxtar Respublikasının mərkəzi icra hakimiyyəti orqanları yanında, tabeliyində olan orqanların və Naxçıvan Muxtar Respublikasının mərkəzi icra hakimiyyəti orqanları yanında yaradılan dövlət agentliklərinin və dövlət xidmətlərinin, Bakı Şəhər İcra Hakimiyyəti başçısı Aparatının birbaşa tabeliyində olan orqanların rəhbərlərinin müavinləri;

Azərbaycan Respublikasının və Naxçıvan Muxtar Respublikasının mərkəzi icra hakimiyyəti orqanları yanında yaradılan dövlət agentliklərinin və dövlət xidmətlərinin, Azərbaycan Respublikasının və Naxçıvan Muxtar Respublikasının mərkəzi icra hakimiyyəti orqanları yanında, tabeliyində olan orqanların yerli bölmələrinin rəhbərləri və onların müavinləri.

2.1.8. İnzibati vəzifələrin yeddinci təsnifatı:

yerli icra hakimiyyəti (Bakı Şəhər İcra Hakimiyyəti istisna olmaqla) başçılarının aparatlarında, Azərbaycan Respublikasının və Naxçıvan Muxtar Respublikasının mərkəzi icra hakimiyyəti orqanlarının yerli bölmələrində,

Azərbaycan Respublikasının və Naxçıvan Muxtar Respublikasının mərkəzi icra hakimiyyəti orqanları yanında, tabeliyində olan orqanlarda, rayon (şəhər) məhkəmələrinin, Naxçıvan Muxtar Respublikasının mərkəzi icra hakimiyyəti orqanları yanında yaradılan dövlət agentliklərinin və dövlət xidmətlərinin aparatlarında, Bakı Şəhər İcra Hakimiyyəti başçısı Aparatının birbaşa tabeliyində olan orqanlarda sektor müdiri, baş mühasib, baş məsləhətçi, böyük məsləhətçi, aparıcı məsləhətçi, məsləhətçi;

Azərbaycan Respublikasının və Naxçıvan Muxtar Respublikasının mərkəzi icra hakimiyyəti orqanları yanında yaradılan dövlət agentlikləri və dövlət xidmətlərinin, Azərbaycan Respublikasının və Naxçıvan Muxtar Respublikasının mərkəzi icra hakimiyyəti orqanları yanında, tabeliyində olan orqanların yerli bölmələrində sektor müdiri, baş mühasib, baş məsləhətçi, böyük məsləhətçi, aparıcı məsləhətçi, məsləhətçi;

yerli icra hakimiyyəti başçısının inzibati ərazi dairəsi üzrə və sahə inzibati ərazi dairəsi üzrə nümayəndəsi, onun müavini, baş mühasib, baş məsləhətçi, böyük məsləhətçi, aparıcı məsləhətçi, məsləhətçi;

yerli icra hakimiyyəti (Bakı Şəhər İcra Hakimiyyəti istisna olmaqla) başçısının köməkçisi.

2.2. İnzibati vəzifələrin Təsnifat Toplusunun 2-ci hissəsində göstərilən dövlət orqanları rəhbərlərinin və onların müavinlərinin adları qanunvericiliklə müəyyən edilir.

2.3. “Dövlət qulluğu haqqında” Azərbaycan Respublikası Qanununun 10.6-cı və 11.2-ci maddələrinə, habelə bu Təsnifat Toplusunun 1.10-cu bəndinə uyğun olaraq yardımçı vəzifələrin aşağıdakı təsnifatları və adları vardır:

2.3.1. Yardımçı vəzifələrin birinci təsnifatı:

Azərbaycan Respublikası Prezidentinin Administrasiyasında baş mütəxəssis, böyük mütəxəssis, aparıcı mütəxəssis, mütəxəssis;

Azərbaycan Respublikası Prezidentinin Katibliyində baş mütəxəssis, böyük mütəxəssis, aparıcı mütəxəssis, mütəxəssis;

Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsində və Azərbaycan Respublikası Prezidentinin Xüsusi Tibb Xidmətində baş mütəxəssis, böyük mütəxəssis, aparıcı mütəxəssis, mütəxəssis;

Azərbaycan Respublikası Milli Məclisinin, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin və Azərbaycan Respublikası Nazirlər Kabinetinin aparatlarında baş mütəxəssis, böyük mütəxəssis, aparıcı mütəxəssis, mütəxəssis;

Azərbaycan Respublikası Milli Məclisinin, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin və Azərbaycan Respublikası Nazirlər Kabi-

netinin İşlər İdarəsində baş mütəxəssis, böyük mütəxəssis, aparıcı mütəxəssis, mütəxəssis.

2.3.2. Yardımçı vəzifələrin ikinci təsnifatı:

Azərbaycan Respublikası Ali Məhkəməsinin, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin, Azərbaycan Respublikası Hesablama Palatasının, Məhkəmə-Hüquq Şurasının, Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkilinin (Ombudsmanın) aparatlarında baş mütəxəssis, böyük mütəxəssis, aparıcı mütəxəssis, mütəxəssis;

Azərbaycan Respublikası Ali Məhkəməsinin İşlər İdarəsində baş mütəxəssis, böyük mütəxəssis, aparıcı mütəxəssis, mütəxəssis.

2.3.3. Yardımçı vəzifələrin üçüncü təsnifatı:

Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin, Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin, Naxçıvan Muxtar Respublikasının İnsan hüquqları üzrə müvəkkilinin (Ombudsmanın), Azərbaycan Respublikası apellyasiya məhkəmələrinin və Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının aparatlarında, Azərbaycan Respublikasının Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyasının Katibliyində, Azərbaycan Respublikası mərkəzi icra hakimiyyəti orqanlarının və onlara bərabər tutulan orqanların, Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında yaradılan icra hakimiyyəti orqanlarının, Bakı Şəhər İcra Hakimiyyəti başçısının, Milli Televiziya və Radio Şurasının, Azərbaycan Respublikasının mərkəzi icra hakimiyyəti orqanları yanında yaradılan dövlət agentliklərinin və dövlət xidmətlərinin, Azərbaycan Respublikasının Sahibkarlığa Kömək Milli Fondunun aparatlarında, Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkilinin (Ombudsmanın) regional mərkəzlərində, Naxçıvan Muxtar Respublikasının Mərkəzi Seçki Komissiyasının, Naxçıvan Muxtar Respublikasının mərkəzi icra hakimiyyəti orqanlarının, Naxçıvan Muxtar Respublikası Televiziya və Radio Şurasının aparatlarında, Naxçıvan Muxtar Respublikasının Bakı şəhərində Daimi Nümayəndəliyində, ağır cinayətlər məhkəmələrinin, inzibati-iqtisadi məhkəmələrin, hərbi məhkəmələrin aparatlarında baş mütəxəssis, böyük mütəxəssis, aparıcı mütəxəssis, mütəxəssis;

Azərbaycan Respublikasının mərkəzi icra hakimiyyəti orqanlarının Naxçıvan Muxtar Respublikası üzrə idarələrinin aparatlarında baş mütəxəssis, böyük mütəxəssis, aparıcı mütəxəssis, mütəxəssis.

2.3.4. Yardımçı vəzifələrin dördüncü təsnifatı:

yerli icra hakimiyyəti (Bakı Şəhər İcra Hakimiyyəti istisna olmaqla) başçılarının, Azərbaycan Respublikasının və Naxçıvan Muxtar Respublikasının mərkəzi icra hakimiyyəti orqanlarının yerli bölmələrinin, Azərbaycan

Respublikasının və Naxçıvan Muxtar Respublikasının mərkəzi icra hakimiyyəti orqanları yanında, tabeliyində olan orqanların, rayon (şəhər) məhkəmələrinin, Naxçıvan Muxtar Respublikasının mərkəzi icra hakimiyyəti orqanları yanında yaradılan dövlət agentliklərinin və dövlət xidmətlərinin aparatlarında, Bakı Şəhər İcra Hakimiyyəti başçısı aparatının birbaşa tabeliyində olan orqanlarda baş mütəxəssis, böyük mütəxəssis, aparıcı mütəxəssis, mütəxəssis;

Azərbaycan Respublikasının və Naxçıvan Muxtar Respublikasının mərkəzi icra hakimiyyəti orqanları yanında yaradılan dövlət agentliklərinin və dövlət xidmətlərinin, Azərbaycan Respublikasının və Naxçıvan Muxtar Respublikasının mərkəzi icra hakimiyyəti orqanları yanında, tabeliyində olan orqanların yerli bölmələrində baş mütəxəssis, böyük mütəxəssis, aparıcı mütəxəssis, mütəxəssis;

yerli icra hakimiyyəti başçısının inzibati ərazi dairəsi üzrə və sahə inzibati ərazi dairəsi üzrə nümayəndəliklərində baş mütəxəssis, böyük mütəxəssis, aparıcı mütəxəssis, mütəxəssis.

2.4. Dövlət orqanının rəhbəri Azərbaycan Respublikası Prezidentinin Administrasiyası ilə razılaşdırmaqla, ştat cədvəlində həmin orqanın strukturunun profilini əks etdirən vəzifə adlarını nəzərdə tuta bilər.

2.5. İnzibati vəzifələrin Təsnifat Toplusunun 2-ci hissəsində nəzərdə tutulmayan vəzifələrin müvafiq təsnifatlara uyğunlaşdırılması qanunvericilik, icra və məhkəmə hakimiyyəti orqanlarının rəhbərləri tərəfindən həll edilir.

III. İnzibati və yardımçı vəzifələrin ixtisas dərəcələri

3.1. Dövlət qulluqçusunun ixtisas dərəcəsi onun ixtisas səviyyəsini göstərir, vəzifə maaşına əlavə haqq almaq və sosial təminatlardan istifadə etmək, habelə "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş hallarda dövlət qulluqçusuna inzibati vəzifə tutmaq hüququ verir.

3.2. İnzibati vəzifələrin təsnifatına uyğun olaraq aşağıdakı ixtisas dərəcələri verilir:

3.2.1. Təsnifat Toplusunun 2.1.1-ci yarımbəndində nəzərdə tutulan inzibati vəzifələrin ali təsnifatı üzrə – həqiqi dövlət müşaviri, 1-ci dərəcə dövlət müşaviri və 2-ci dərəcə dövlət müşaviri.

3.2.2. Təsnifat Toplusunun 2.1.2-ci yarımbəndində nəzərdə tutulan inzibati vəzifələrin birinci təsnifatı üzrə – 1-ci dərəcə dövlət müşaviri, 2-ci dərəcə dövlət müşaviri və 3-cü dərəcə dövlət müşaviri.

3.2.3. Təsnifat Toplusunun 2.1.3-cü yarımbəndində nəzərdə tutulan inzibati vəzifələrin ikinci təsnifatı üzrə – 2-ci dərəcə dövlət müşaviri, 3-cü dərəcə dövlət müşaviri və dövlət qulluğunun baş müşaviri.

3.2.4. Təsnifat Toplusunun 2.1.4-cü yarımbəndində nəzərdə tutulan inzibati vəzifələrin üçüncü təsnifatı üzrə – dövlət qulluğunun baş müşaviri, dövlət qulluğunun müşaviri və dövlət qulluğunun kiçik müşaviri.

3.2.5. Təsnifat Toplusunun 2.1.5-ci yarımbəndində nəzərdə tutulan inzibati vəzifələrin dördüncü təsnifatı üzrə – dövlət qulluğunun müşaviri, dövlət qulluğunun kiçik müşaviri və 1-ci dərəcə dövlət qulluqçusu.

3.2.6. Təsnifat Toplusunun 2.1.6-cı yarımbəndində nəzərdə tutulan inzibati vəzifələrin beşinci təsnifatı üzrə – dövlət qulluğunun kiçik müşaviri, 1-ci dərəcə dövlət qulluqçusu və 2-ci dərəcə dövlət qulluqçusu.

3.2.7. Təsnifat Toplusunun 2.1.7-ci yarımbəndində nəzərdə tutulan inzibati vəzifələrin altıncı təsnifatı üzrə – 1-ci dərəcə dövlət qulluqçusu, 2-ci dərəcə dövlət qulluqçusu və 3-cü dərəcə dövlət qulluqçusu.

3.2.8. Təsnifat Toplusunun 2.1.8-ci yarımbəndində nəzərdə tutulan inzibati vəzifələrin yeddinci təsnifatı üzrə – 2-ci dərəcə dövlət qulluqçusu, 3-cü dərəcə dövlət qulluqçusu və kiçik dövlət qulluqçusu.

3.3. Yardımçı vəzifələrin təsnifatına uyğun olaraq aşağıdakı ixtisas dərəcələri verilir:

3.3.1. Təsnifat Toplusunun 2.3.1-ci yarımbəndində nəzərdə tutulan yardımçı vəzifələrin birinci təsnifatı üzrə – dövlət qulluğunun baş referenti, dövlət qulluğunun böyük referenti və dövlət qulluğunun 1-ci dərəcə referenti.

3.3.2. Təsnifat Toplusunun 2.3.2-ci yarımbəndində nəzərdə tutulan yardımçı vəzifələrin ikinci təsnifatı üzrə – dövlət qulluğunun böyük referenti, dövlət qulluğunun 1-ci dərəcə referenti və dövlət qulluğunun 2-ci dərəcə referenti.

3.3.3. Təsnifat Toplusunun 2.3.3-cü yarımbəndində nəzərdə tutulan yardımçı vəzifələrin üçüncü təsnifatı üzrə – dövlət qulluğunun 1-ci dərəcə referenti, dövlət qulluğunun 2-ci dərəcə referenti və dövlət qulluğunun 3-cü dərəcə referenti.

3.3.4. Təsnifat Toplusunun 2.3.4-cü yarımbəndində nəzərdə tutulan yardımçı vəzifələrin dördüncü təsnifatı üzrə – dövlət qulluğunun 2-ci dərəcə referenti, dövlət qulluğunun 3-cü dərəcə referenti və dövlət qulluğunun kiçik referenti.”.

2. 5-ci hissə ləğv edilsin.

3. Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 4 avqust tarixli 911 nömrəli Fərmanı ilə təsdiq edilmiş “İnzibati və yardımçı vəzifələrin Təsnifat Toplusu”nun 2.1.4-cü, 2.1.5-ci, 2.1.6-cı və 2.3.3-cü yarımbəndlərində Azərbaycan Respublikasının mərkəzi icra hakimiyyəti orqanlarına bərabər tutulan orqanlar dedikdə, Azərbaycan Respublikası Tarif (qiymət) Şurasının Katibliyi və Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası nəzərdə tutulur.

**İlham Əliyev**
*Azərbaycan Respublikasının Prezidenti*

Bakı şəhəri, 1 noyabr 2012-ci il.

§

## "İnzibati və yardımçı vəzifələrin Təsnifat Toplusunun təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 4 avqust tarixli 911 nömrəli Fərmanında dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "İnzibati və yardımçı vəzifələrin Təsnifat Toplusunun təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 4 avqust tarixli 911 nömrəli Fərmanını "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2012-ci il 1 oktyabr tarixli 424-IVQD nömrəli Qanununa uyğunlaşdırmaq məqsədi ilə qərara alıram:

1. "İnzibati və yardımçı vəzifələrin Təsnifat Toplusunun təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 4 avqust tarixli 911 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2003, № 8, maddə 440; 2006, № 3, maddə 229, № 6, maddə 498; 2007, № 2, maddələr 86, 101, № 3, maddələr 217, 227, № 7, maddə 714, № 9, maddə 867, № 10, maddə 948, № 12, maddə 1242; 2008, № 1, maddə 9, № 3, maddələr 173, 179, № 6, maddələr 498, 499, № 8, maddələr 717, 723; 2009, № 2, maddə 66, № 6, maddələr 419, 421, 422; 2010, № 2, maddə 80, № 3, maddə 183, № 10, maddə 850; 2011, № 2, maddə 85; 2012, № 11, maddə 1078) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 7-ci bəndə "Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinə," sözlərindən sonra "Azərbaycan Respublikasının Baş Prokurorluğuna," sözləri əlavə edilsin.

1.2. Həmin Fərmanla təsdiq edilmiş "İnzibati və yardımçı vəzifələrin Təsnifat Toplusu"nda:

1.2.1. 2.1.4-cü yarımbənd üzrə:

1.2.1.1. on dördüncü abzasa "aparatlarında" sözündən sonra ", Azərbaycan Respublikasının Baş Prokurorluğunda" sözləri əlavə edilsin;

1.2.1.2. iyirminci abzasa "şöbə müdirləri" sözlərindən sonra ", Azərbaycan Respublikasının Hərbi Prokurorluğunda və Naxçıvan Muxtar Respublikasının Prokurorluğunda şöbə müdirləri" sözləri əlavə edilsin;

1.2.2. 2.1.5-ci yarımbəndin üçüncü abzasına "məsləhətçi" sözündən sonra ", Azərbaycan Respublikasının Baş Prokurorluğunda sektor müdiri, baş məsləhətçi, böyük məsləhətçi, aparıcı məsləhətçi, məsləhətçi" sözləri əlavə edilsin;

1.2.3. 2.1.6-cı yarımbənd üzrə:

1.2.3.1. üçüncü abzasa "Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin" sözlərindən sonra "aparatında, Azərbaycan Respublikasının Hərbi Prokurorluğunda və Naxçıvan Muxtar Respublikasının Prokurorluğunda" sözləri əlavə edilsin;

1.2.3.2. doqquzuncu abzasa "onun müavini" sözlərindən sonra ", Naxçıvan Muxtar Respublikasının Hərbi Prokurorluğunda və Bakı Şəhər Prokurorluğunda şöbə müdirləri" sözləri əlavə edilsin;

1.2.3.3. on ikinci abzasa "məsləhətçi" sözündən sonra ", Azərbaycan Respublikası Baş Prokurorluğunun maddi-texniki təminat funksiyalarını həyata keçirən şöbəsində sektor müdiri, baş mühasib, baş məsləhətçi, böyük məsləhətçi, aparıcı məsləhətçi, məsləhətçi" sözləri əlavə edilsin;

1.2.4. 2.1.7-ci yarımbəndin üçüncü abzasına "hakimin köməkçisi" sözlərindən sonra ", Naxçıvan Muxtar Respublikasının Hərbi Prokurorluğunda və Bakı Şəhər Prokurorluğunda sektor müdiri, baş mühasib, baş məsləhətçi, böyük məsləhətçi, aparıcı məsləhətçi, məsləhətçi" sözləri əlavə edilsin;

1.2.5. 2.1.8-ci yarımbəndin ikinci abzasına "rayon (şəhər) məhkəmələrinin" sözlərindən sonra "aparatlarında, rayon (şəhər) prokurorluqlarında və hərbi prokurorluqlarında" sözləri əlavə edilsin;

1.2.6. 2.3.2-ci yarımbəndin ikinci abzasına "aparatlarında" sözündən sonra ", Azərbaycan Respublikasının Baş Prokurorluğunda" sözləri və üçüncü abzasına "İşlər İdarəsində" sözlərindən sonra "və Azərbaycan Respublikası Baş Prokurorluğunun maddi-texniki təminat funksiyalarını həyata keçirən şöbəsində" sözləri əlavə edilsin;

1.2.7. 2.3.3-cü yarımbəndin ikinci abzasına "hərbi məhkəmələrin aparatlarında" sözlərindən sonra ", Azərbaycan Respublikasının Hərbi Prokurorluğunda, Naxçıvan Muxtar Respublikasının Prokurorluğunda, Naxçıvan Muxtar Respublikasının Hərbi Prokurorluğunda və Bakı Şəhər Prokurorluğunda" sözləri əlavə edilsin;

1.2.8. 2.3.4-cü yarımbəndin ikinci abzasına "rayon (şəhər) məhkəmələrinin" sözlərindən sonra "aparatlarında, rayon (şəhər) prokurorluqlarında, hərbi prokurorluqlarında" sözləri əlavə edilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. üç ay müddətində Azərbaycan Respublikası Prezidentinin aktlarının bu Fərmana uyğunlaşdırılması ilə bağlı təkliflərini hazırlasın və Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

2.2. üç ay müddətində Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının bu Fərmana uyğunlaşdırılmasını təmin etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının bu Fərmana uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.4. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

3. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların bu Fərmana uyğunlaşdırılmasını təmin etsin və bu barədə Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

**İlham Əliyev**
*Azərbaycan Respublikasının Prezidenti*

Bakı şəhəri, 5 mart 2013-cü il.

§

## R.R.Süleymanovun Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin sədri təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq qərara alıram:

Ramiz Rəhim oğlu Süleymanov Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin sədri təyin edilsin.

**İlham Əliyev**
*Azərbaycan Respublikasının Prezidenti*

Bakı şəhəri, 5 mart 2013-cü il.

§

## Naxçıvan Muxtar Respublikasının bir sıra birinci instansiya məhkəmələrinin hakim və sədrlərinin təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 9-cu və 32-ci bəndlərini rəhbər tutaraq qərara alıram:

1. Qasım Vəli oğlu Əliyev Naxçıvan Muxtar Respublikası Hərbi Məhkəməsinin sədri təyin edilsin.
2. Hüseyn Nadir oğlu Zülfüqarov Şərur Rayon Məhkəməsinin sədri təyin edilsin.
3. Hüseyn Məmməd oğlu Məmmədov Naxçıvan Şəhər Məhkəməsinin hakimi və həmin məhkəmənin sədri təyin edilsin.
4. Bu Sərəncamın 1-ci və 2-ci hissələri 2013-cü il yanvarın 22-dən qüvvəyə minir.
5. Bu Sərəncamın 3-cü hissəsi 2013-cü il yanvarın 2-dən qüvvəyə minir.

**İlham Əliyev**
*Azərbaycan Respublikasının Prezidenti*

Bakı şəhəri, 14 dekabr 2012-ci il.

§

## Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsi hakiminin təyin edilməsi haqqında Azərbaycan Respublikası Milli Məclisinin qərarı

Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 10-cu bəndinə, 132-ci maddəsinin II hissəsinə, "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikası Qanununun 94-cü maddəsinin ikinci hissəsinə və 96-cı maddəsinə, bu qanunun Keçid müddəalarının 7-ci bəndinə uyğun olaraq, Azərbaycan Respublikası Prezidentinin təqdimatına əsasən Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

1. 2013-cü il yanvarın 2-də səlahiyyət müddəti bitən İlqar Məhərrəm oğlu Mirzəyev Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin hakimi təyin edilsin.
2. Bu qərar 2013-cü il yanvarın 2-dən qüvvəyə minir.

**O.ƏSƏDOV,**
*Azərbaycan Respublikası Milli Məclisinin Sədri*

Bakı şəhəri, 21 dekabr 2012-ci il.



# MƏHKƏMƏ FƏALİYYƏTİ

## MÜLKİ KOLLEGİYADAN

### Mülki mühakimə sahəsində məhkəmə fəaliyyətinə dair 2012-ci ilin yekunları üzrə statistik məlumatların təhlili

Naxçıvan Muxtar Respublikasının rayon (şəhər) məhkəmələri tərəfindən 2012-ci ildə 1001 mülki işə baxılmaqla nəticə verilmişdir. 2011-ci ildə həmin məhkəmələr tərəfindən 746 mülki işə baxılmışdır. Bu onu göstərir ki, baxılan mülki işlərin sayı 2011-ci illə müqayisədə 2012-ci ildə 34,18% artmışdır.

Naxçıvan Muxtar Respublikasının rayon (şəhər) məhkəmələrinin 2012-ci ildə mülki işlər üzrə çıxardıqları qətnamə və qərardadlardan verilmiş apellyasiya şikayətləri üzrə Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin mülki kollegiyasında 45 apellyasiya şikayətinə baxılmışdır.

Apellyasiya şikayəti ilə əlaqədar kollegiyada baxılan işləri mülki hüquq münasibətlərinin mahiyyətinə görə təsnif etdikdə bu işlər üzrə göstəricilər aşağıdakı qaydada müəyyən olunur:

- ailə münasibətləri üzrə mübahisələr – 9 iş
- mənzil mübahisələri – 7 iş
- torpaq mübahisələri – 1 iş
- müqavilələrdən əmələ gələn öhdəliklər üzrə mübahisələr – 1 iş
- xüsusi icraat işləri – 1 iş
- vərəsəlik - 1 iş
- digər mülki işlər – 17 iş

Apellyasiya şikayətləri ilə bağlı daxil olmuş 45 mülki işdən 37 işə apellyasiya qaydasında baxılmış, 23 qətnamə və 3 qərardad dəyişdirilmədən saxlanılmış, 8 qətnamə və 1 qərardad ləğv edilmiş, 2 qətnamə isə dəyişdirilmişdir.

Azərbaycan Respublikası Mülki-Prosessual Məcəlləsinin 369 və 370-ci maddələrində göstərilən əsaslarla 8 apellyasiya şikayətinin icraatına xitam verilmişdir.

Naxçıvan Muxtar Respublikasının rayon (şəhər) məhkəmələri tərəfindən 2012-ci ildə baxılmış mülki işlər üzrə çıxarılan qərarlardan verilmiş apellyasiya şikayətləri üzrə məhkəmə təcrübəsinin təhlili göstərir ki, 2011-ci illə müqayisədə 2012-ci ildə apellyasiya şikayətlərinin sayı 12,5% artmışdır. Belə ki, 2011-ci ildə birinci instansiya məhkəmələri tərəfindən mülki işlər üzrə qəbul edilmiş qərarlardan verilmiş apellyasiya şikayətləri üzrə Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin mülki kollegiyasında 40 apellyasiya şikayətinə baxılmışdır.

Qəbul edilmiş qərarların sabitliyi üzrə göstərici 2011-ci illə müqayisədə 2012-ci ildə yuxarı olmuşdur. Belə ki, 2011-ci ildə rayon (şəhər) məhkəmələri tərəfindən qəbul edilən 746 qətnamə və qərardadlardan 2,01%-i apellyasiya qaydasında dəyişdirilmiş və yaxud ləğv edilmişdirsə, 2012-ci ildə məhkəmələrin baxdığı işlər üzrə çıxarılan 1001 qətnamə və qərardadlardan 1,1%-i ləğv edilmiş və yaxud dəyişdirilmişdir. Bu isə o deməkdir ki, məhkəmə qərarlarının sabitlik göstəricisi 2011-ci ildə 97,99%, 2012-ci ildə isə 98,9% təşkil etmişdir.

Məhkəmə təcrübəsinin təhlili göstərir ki, muxtar respublikanın məhkəmələri tərəfindən 2012-ci ildə baxılmış mülki işlərin 47,55%-ni nikahın ləğvi tələbi ilə əlaqədar olan işlər təşkil etmişdir. Mənzil mübahisələri, vərəsəlik hüququ üzrə mübahisələr, mülkiyyət hüququ ilə əlaqədar mübahisələr, müqavilə öhdəliklərindən əmələ gələn tələblər, aliment tələbi və ailə münasibətləri ilə bağlı sair iddialarla əlaqədar baxılan işlərin sayı da digər mübahisələrə nisbətən daha çox olmuşdur.

Statistik məlumatlara görə kollegiya tərəfindən 2012-ci ildə apellyasiya qaydasında baxılan qərarların 24,32%-nin ləğv edilməsinə, 5,4%-nin isə dəyişdirilməsinə həmin işlərə baxılarkən birinci instansiya məhkəmələri tərəfindən maddi və prosessual hüquq normalarının tələblərinin pozulması və məhkəmənin gəldiyi nəticə üçün mühüm əhəmiyyəti olan bütün halların aydınlaşdırılmaması səbəb olmuşdur.

Apellyasiya baxışının nəticələrinə görə muxtar respublikanın ayrı-ayrı məhkəmələri üzrə 2011-2012-ci illərə dair göstəricilər aşağıdakı cədvəllərdə göstərildiyi kimi olmuşdur.

2011-ci ildə apellyasiya qaydasında baxılan işlər üzrə məlumat:

| Məhkəmənin adı | Cəmi baxılıb | Ap.şik icr. xit.verilib | Qətnamələr | | | | | Qərar-dadlar | |
|---|---|---|---|---|---|---|---|---|---|
| | | | Dəyişdirilmədən saxlanılıb | Dəyişdirilmişdir | Ləğv edilərək | | | Ləğv edilmişdir | Qüvvədə saxlanılmışdr |
| | | | | | Yeni qətnamə çıxarılıb | İddia baxılmamış saxl. | İş.ic.xit ver. | | |
| **Naxçıvan** | 17 | 3 | 8 | 1 | 3 | | | 1 | 1 |
| Babək | 4 | | 3 | | | | | | 1 |
| Şərur | 8 | 1 | | 3 | 2 | | | 2 | |
| Şahbuz | 6 | 1 | 3 | | | 1 | 1 | | |
| Culfa | 4 | | 2 | | | | | | 2 |
| Kəngərli | 1 | | | | | | | 1 | |
| **YEKUN** | 40 | 5 | 16 | 4 | 5 | 1 | 1 | 4 | 4 |

2012-ci ildə apellyasiya qaydasında baxılan işlər üzrə məlumat:

| Məhkəmənin adı | Cəmi baxılıb | Ap.şik icr. xit.verilib | Qətnamələr | | | | | Qərar-dadlar | |
|---|---|---|---|---|---|---|---|---|---|
| | | | Dəyişdirilmədən saxlanılıb | Dəyişdirilmişdir | Ləğv edilərək | | | Ləğv edilmişdir | Qüvvədə saxlanılmışdır |
| | | | | | Yeni qətnamə çıxarılıb | İddia baxılmamış saxl. | İş.ic.xit ver. | | |
| **Naxçıvan** | 17 | 3 | 7 | 1 | 1 | 2 | 2 | | 1 |
| Babək | 4 | | 2 | | 1 | | | | 1 |
| Şərur | 10 | 1 | 8 | 1 | | | | | |
| Şahbuz | 11 | 4 | 3 | | 1 | | 1 | 1 | 1 |
| **Culfa** | 3 | | 3 | | | | | | |
| **YEKUN** | 45 | 8 | 23 | 2 | 3 | 2 | 3 | 1 | 3 |

Apellyasiya qaydasında 2012-ci ildə ləğv edilmiş və yaxud dəyişdirilmiş məhkəmə qərarları üzrə ayrı-ayrı məhkəmələrin göstəricilərini bir-biri ilə, eləcə də həmin məhkəmələr tərəfindən çıxarılmış qətnamə və qərardadların ümumi sayı ilə müqayisə etdikdə müəyyən olur ki, qətnamə və qərardadların

sabitliyi üzrə ən aşağı göstəriciyə Şahbuz Rayon Məhkəməsi, ən yüksək göstəriciyə isə Culfa, Kəngərli, Ordubad və Sədərək Rayon Məhkəmələri malikdirlər. Belə ki, 2012-ci ildə Şahbuz Rayon Məhkəməsinin çıxardığı 156 qərardan 2 qətnamə və 1 qərardad, yəni həmin dövr ərzində çıxarılan qərarların 1,92%-i ləğv edildiyinə və ya dəyişdirildiyinə görə məhkəmə qərarlarının sabitliyi üzrə göstərici 98,08% olduğu halda, Culfa, Kəngərli, Ordubad və Sədərək Rayon Məhkəmələrinin qətnamə və qərardadlarının sabitliyi üzrə göstəriciləri 100% təşkil etmişdir. Çünki, həmin dövrdə Culfa Rayon Məhkəməsi tərəfindən çıxarılmış 83 qətnamə və qərardaddan heç biri ləğv edilməmiş və yaxud dəyişdirilməmiş, Kəngərli Rayon Məhkəməsi tərəfindən çıxarılmış 62, Ordubad Rayon Məhkəməsi tərəfindən çıxarılmış 46 və Sədərək Rayon Məhkəməsi tərəfindən çıxarılmış 15 qətnamə və qərardaddan isə apellyasiya şikayəti verilməmişdir.

Digər məhkəmələrin çıxardıqları məhkəmə qərarlarının sabitliyi üzrə göstəricilər isə aşağıdakı qaydada olmuşdur:

Naxçıvan Şəhər Məhkəməsi tərəfindən 2012-ci ildə çıxarılan 319 qətnamə və qərardaddan 6 qətnamə, yəni həmin dövr ərzində çıxarılan qərarların 1,88%-i ləğv edilmiş və ya dəyişdirilmiş, beləliklə, məhkəmə qərarlarının sabitlik göstəricisi 98,12% təşkil etmişdir.

Babək Rayon Məhkəməsi tərəfindən 2012-ci ildə çıxarılan 115 qətnamə və qərardaddan 1 qətnamə, yəni həmin dövr ərzində çıxarılan qərarların 0,87%-i ləğv edilmiş, beləliklə, məhkəmə qərarlarının sabitlik göstəricisi 99,13% təşkil etmişdir.

Şərur Rayon Məhkəməsi tərəfindən 2012-ci ildə çıxarılan 205 qətnamə və qərardaddan 1 qətnamə, yəni həmin dövr ərzində çıxarılan qərarların 0,49%-i dəyişdirilmiş, beləliklə, məhkəmə qərarlarının sabitlik göstəricisi 99,51% təşkil etmişdir.

2011-ci ildə baxılmış işlər üzrə qəbul edilmiş qətnamə və qərardadların sabitliyi aşağıdakı kimi olmuşdur:

- Babək Rayon Məhkəməsi – 100% (92 qətnamə və qərardaddan heç biri ləğv edilməmiş və yaxud dəyişdirilməmişdir);
- Culfa Rayon Məhkəməsi – 100% (55 qətnamə və qərardaddan heç biri ləğv edilməmiş və yaxud dəyişdirilməmişdir);
- Ordubad Rayon Məhkəməsi – 100% (36 qətnamə və qərardaddan apellyasiya şikayəti verilməmişdir);
- Sədərək Rayon Məhkəməsi – 100% (11 qətnamə və qərardaddan apellyasiya şikayəti verilməmişdir);

- Şahbuz Rayon Məhkəməsi – 98,15% (108 qərardan 2 qətnamə, yəni 1,85%-i ləğv edilmişdir);
- Naxçıvan Şəhər Məhkəməsi – 98,1% (262 qətnamə və qərardaddan 4 qətnamə və 1 qərardad, yəni 1,9%-i ləğv edilmişdir);
- Kəngərli Rayon Məhkəməsi – 98% (50 qətnamə və qərardaddan 1 qərardad, yəni 2%-i ləğv edilmişdir).
- Şərur Rayon Məhkəməsi – 94,7% (132 qərardan 5 qətnamə və 2 qərardad, yəni 5,3%-i ləğv edilmiş və ya dəyişdirilmişdir);

Qətnamə və qərardadların sabitliyi üzrə 2011-2012-ci illərə dair göstəricilərin müqayisəsi onu göstərir ki, Culfa, Ordubad və Sədərək Rayon Məhkəmələrinin əvvəl əldə olunmuş yüksək göstəriciləri dəyişməmişdir. Babək və Şahbuz Rayon Məhkəməsinin sabitlik göstəricisi aşağı düşmüşdür. Naxçıvan Şəhər, Şərur və Kəngərli Rayon Məhkəmələrinin qətnamə və qərardadlarının sabitlik göstəricisi isə 2011-ci illə müqayisədə yüksəlmişdir.

Qətnamə və qərardadların sabitlik göstəricisi, yəni buraxılan məhkəmə səhvlərinin həcmi bir çox amillərlə yanaşı, həm də məhkəmənin üzərinə düşən iş yükündən də asılı olmuşdur.

Muxtar Respublika məhkəmələrinin mülki mühakimə icraatı üzrə iş yükünə görə təsnif etdikdə müəyyən olunur ki, 2012-ci ildə ən çox mülki işlərə Naxçıvan Şəhər Məhkəməsində baxılmışdır (2011-ci ildə 262 mülki işə baxılmışdırsa, 2012-ci ildə bu məhkəmədə 319 mülki işə baxılmışdır).

Digər məhkəmələr üzrə iş yükü aşağıdakı kimi olmuşdur:

- Şərur Rayon Məhkəməsi – 205 iş (2011-ci ildə 132 işə baxılmışdır);
- Şahbuz Rayon Məhkəməsi – 156 iş (2011-ci ildə 108 işə baxılmışdır);
- Babək Rayon Məhkəməsi – 115 iş (2011-ci ildə 92 işə baxılmışdır);
- Culfa Rayon Məhkəməsi – 83 iş (2011-ci ildə 55 işə baxılmışdır);
- Kəngərli Rayon Məhkəməsi – 62 iş (2011-ci ildə 50 işə baxılmışdır);
- Ordubad Rayon Məhkəməsi – 46 iş (2011-ci ildə 36 işə baxılmışdır);
- Sədərək Rayon Məhkəməsi –15 iş (2011-ci ildə 11 işə baxılmışdır).

Göründüyü kimi 2011-ci illə müqayisədə 2012-ci ildə rayon (şəhər) məhkəmələrinin iş yükündə artım olmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin mülki kollegiyasının baxdığı mülki işlər üzrə qəbul olunmuş qətnamə və qərardadlarından 2012-ci ildə Azərbaycan Respublikası Ali Məhkəməsinin mülki kollegiyasına 19 kassasiya şikayəti verilmiş və kassasiya instansiyasında 17 şikayətə mahiyyəti üzrə baxılması nəticəsində Naxçıvan Muxtar Respublikası Ali Məhkə-

məsinin mülki kollegiyasının 16 qərarı dəyişdirilməmiş və ləğv edilməmiş, 1 qərarı isə qismən ləğv edilmişdir.

Beləliklə, 2012-ci ildə qəbul edilən qərarlar üzrə Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin mülki kollegiyasının sabitlik göstəricisi 97,30% təşkil etmişdir.

≈≈≈≈≈≈≈≈≈≈
≈≈≈≈≈≈
≈≈≈

## İNZİBATİ-İQTİSADİ KOLLEGİYADAN

### Məhkəmə fəaliyyətinə dair 2012-ci ilin yekunları üzrə statistik məlumatların təhlili

2012-ci ildə Naxçıvan Muxtar Respublikasının İnzibati-İqtisadi Məhkəməsi tərəfindən inzibati və iqtisadi mübahisələrlə bağlı 88 işə baxılmışdır. 2011-ci ildə həmin məhkəmə tərəfindən 57 işə baxılmışdır. Bu onu göstərir ki, 2011-ci illə müqayisədə 2012-ci ildə Naxçıvan Muxtar Respublikasının İnzibati-İqtisadi Məhkəməsi tərəfindən baxılıb nəticə verilmiş iqtisadi və inzibati mübahisələrlə bağlı işlərin sayı 54,39% artmışdır.

Məhkəmə təcrübəsinin təhlili göstərir ki, Naxçıvan Muxtar Respublikasının İnzibati-İqtisadi Məhkəməsinə 2012-ci ildə daxil olan işlərin böyük əksəriyyətini mübahisələndirmə haqqında (26 iş – 29,54%), eləcə də hüquqi şəxslər və fərdi sahibkarlıq fəaliyyəti subyektləri arasında olan mübahisələrlə bağlı iddia tələblərinə dair (23 iş – yəni 26,14%) işlər təşkil etmişdir.

2012-ci ildə inzibati-iqtisadi kollegiyada inzibati mübahisələrlə bağlı 6 apellyasiya şikayətinə baxılmışdır. Kollegiyada həmin şikayətlərə baxılaraq 2 iş üzrə 2 qərar dəyişdirilmədən saxlanılmış, 2 iş üzrə 2 qərar ləğv edilmiş, 2 iş üzrə isə apellyasiya şikayətinin icraatına xitam verilmişdir. Müqayisə üçün qeyd edək ki, 2011-ci ildə inzibati-iqtisadi kollegiyanın icraatına inzibati mübahisələrlə bağlı apellyasiya şikayəti daxil olmamışdır.

2012-ci ildə Naxçıvan MR İnzibati-İqtisadi məhkəməsinin iqtisadi mübahisələrlə bağlı çıxardığı qətnamə və qərardadlardan verilmiş apellyasiya şikayətləri üzrə 3 apellyasiya şikayətinə Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin inzibati-iqtisadi kollegiyasında baxılaraq 2 qərar dəyişdirilmədən saxlanılmış, 1 qərar isə baxılmadan geri qaytarılmışdır. 2011-ci ildə isə Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin İnzibati-İqtisadi kollegiyasında iqtisadi mübahisələrlə bağlı 3 işə baxılmışdır. Göründüyü kimi 2011-ci illə müqayisədə 2012-ci ildə kollegiyanın icraatına daxil olan işlərin sayı dəyişməmişdir.

2012-ci ildə inzibati-iqtisadi kollegiyada çıxarılmış 4 qərardan kassasiya şikayəti verilmiş, 3 kassasiya şikayətinə Azərbaycan Respublikası Ali Məhkəməsinin inzibati-iqtisadi kollegiyasında baxılaraq qərarlar dəyişdirilmədən saxlanılmışdır.

Müqayisə üçün qeyd edək ki, 2011-ci ildə inzibati-iqtisadi kollegiyada çıxarılmış iqtisadi mübahisələr üzrə 1 qətnamədən kassasiya şikayəti verilmiş, kassasiya şikayətinə Azərbaycan Respublikası Ali Məhkəməsinin inzibati-iqtisadi kollegiyasında baxılaraq qətnamə dəyişdirilmədən saxlanılmışdır.

Beləliklə, 2012-ci ildə Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin inzibati-iqtisadi kollegiyasının çıxardığı qərarların sabitlik göstəricisi 2011-ci ildə olduğu kimi 100% təşkil etmişdir.

≈≈≈≈≈≈≈≈≈≈
≈≈≈≈≈≈
≈≈≈

## CİNAYƏT KOLLEGİYASINDAN

### Məhkəmə fəaliyyətinə dair 2012-ci ilin yekunları üzrə statistik məlumatların təhlili

Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin ərazi yurisdiksiyasına aid olan muxtar respublika məhkəmələri tərəfindən 2012-ci ildə 23 nəfərin barəsində 19 cinayət işinə mahiyyəti üzrə baxılmışdır. Müqayisə üçün qeyd edək ki, 2011-ci ildə həmin məhkəmələr tərəfindən 18 nəfərin barəsində 17 cinayət işinə baxılmışdır.

Birinci instansiya məhkəmələri tərəfindən 2012-ci ildə baxılmış 18 cinayət işi üzrə 22 nəfərin barəsində ittiham hökmləri çıxarılmış, 1 nəfərin barəsində 1 cinayət işi üzrə icraata xitam verilmişdir.

Həmin işləri obyektə görə qruplaşdırdıqda 2011-2012-ci illərə dair göstəricilər aşağıdakı kimi olmuşdur:

| Cinayətlərin növü | 2011-ci il üzrə göstəricilər (şəxslərin və işlərin sayı) | 2012-ci il üzrə göstəricilər (şəxslərin və işlərin sayı) |
|---|---|---|
| Narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi ilə bağlı cinayətlər | 5 nəfər / 4 iş | 9 nəfər / 8 iş |
| Həyat və sağlamlıq əleyhinə olan cinayətlər | 3 / 3 | 1 / 1 |
| İnsan və vətəndaşın konstitusiya hüquq və azadlıqları əleyhinə olan cinayətlər | - | 1 / 1 |
| Mülkiyyət əleyhinə olan cinayətlər | 3 / 3 | 3 / 3 |
| İqtisadi fəaliyyət sahəsində olan cinayətlər | - | 2 / 1 |
| Korrupsiya cinayətləri və qulluq mənafeyi əleyhinə olan digər cinayətlər | 1 / 1 | 1 / 1 |
| Hərəkət təhlükəsizliyi və nəqliyyat vasitələrinin istismarı qaydaları əleyhinə olan cinayətlər | 2 / 2 | 2 / 2 |
| İdarəetmə qaydası əleyhinə olan cinayətlər | 2 / 2 | 4 / 2 |

| | | |
|---|---|---|
| Dövlətin konstitusiya quruluşunun əsasları və təhlükəsizliyi əleyhinə olan cinayətlər | 1 / 1 | - |
| Ədalət mühakiməsi əleyhinə olan cinayətlər | 1 / 1 | - |

Cədvəldən göründüyü kimi birinci instansiya məhkəmələrinin icraatına 2011-ci ildən fərqli olaraq 2012-ci ildə insan və vətəndaşın konstitusiya hüquq və azadlıqları əleyhinə olan cinayətlər və iqtisadi fəaliyyət sahəsində olan cinayətlər daxil olmuş, həyat və sağlamlıq əleyhinə olan cinayətlərdə azalma müşahidə olunmuş, narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi ilə bağlı cinayətlər isə artmışdır. Mülkiyyət əleyhinə olan cinayətlər, korrupsiya cinayətləri və qulluq mənafeyi əleyhinə olan digər cinayətlər, hərəkət təhlükəsizliyi və nəqliyyat vasitələrinin istismarı qaydaları əleyhinə olan cinayətlər və idarəetmə qaydası əleyhinə olan cinayətlər üzrə göstəricilər dəyişməmişdir. Əvvəlki ildən fərqli olaraq 2012-ci ildə dövlətin konstitusiya quruluşunun əsasları və təhlükəsizliyi, eləcə də ədalət mühakiməsi əleyhinə olan cinayətlər üzrə işlər daxil olmamışdır.

2011-2012-ci illərdə məhkumlara təyin olunan cəzalar aşağıdakı kimi olmuşdur:

| **Təyin olunan əsas cəzaların növləri** | **2011-ci il üzrə məhkumların sayı** | **2012-ci il üzrə məhkumların sayı** |
|---|---|---|
| Müəyyən müddətə azadlıqdan məhrum etmə | 11 nəfər | 12 nəfər |
| Cərimə | 5 | 6 |
| Azadlıqdan məhrum etməyə şərti məhkum etmə | 2 | 4 |

Cədvəldən göründüyü kimi müəyyən müddətə azadlıqdan məhrum etmə cəzasına məhkum edilənlər 2011-ci ildə məhkum edilmiş şəxslərin 61,11%-ni, 2012-ci ildə isə məhkum olunanların 54,54%-ni təşkil etmiş, yəni 2011-ci illə müqayisədə 2012-ci ildə cəzaların ümumi kütləsində azadlıqdan məhrum etmə cəzasının həcmi 6,57% azalmış, azadlıqdan məhrum etmə ilə bağlı olmayan cəzaların həcmi isə əksinə 6,57% artmışdır (ümumilikdə götürüldükdə).

2011-2012-ci illərdə baxılan cinayət işlərinə dair göstəricilər ayrı-ayrılıqda muxtar respublikanın birinci instansiya məhkəmələri üzrə aşağıdakı kimi olmuşdur:

| Məhkəmənin adı | 2011-ci il üzrə (məhkumun və cinayət işinin sayı) | 2012-ci il üzrə (məhkumun və cinayət işinin sayı) |
|---|---|---|
| Naxçıvan Muxtar Respublikasının Ağır Cinayətlər Məhkəməsi | 6 nəfər /6 iş | 9 nəfər / 7 iş |
| Naxçıvan Şəhər Məhkəməsi | 2 / 2 | 3 / 3 |
| Culfa Rayon Məhkəməsi | 2 / 2 | 3 / 3 |
| Şərur Rayon Məhkəməsi | 2 / 2 | 3 / 3 |
| Babək Rayon Məhkəməsi | 3 / 2 | 2 / 2 |
| Kəngərli Rayon Məhkəməsi | 1 / 1 | 3 / 1 |
| Ordubad Rayon Məhkəməsi | 1 / 1 | - |
| Sədərək Rayon Məhkəməsi | 1 / 1 | - |
| Şahbuz Rayon Məhkəməsi | - | - |

Cədvəldən göründüyü kimi 2011-ci ildən fərqli olaraq 2012-ci ildə Naxçıvan Muxtar Respublikasının Ağır Cinayətlər Məhkəməsində, Culfa, Şərur Rayon Məhkəmələrində və Naxçıvan Şəhər Məhkəməsində baxılmış cinayət işlərinin sayı artmışdır. Babək və Kəngərli Rayon Məhkəmələrinin icraatına daxil olan cinayət işləri üzrə göstəricilər dəyişməmiş, Şahbuz Rayon Məhkəməsinin icraatına isə ötən ildə olduğu kimi cinayət işi daxil olmamışdır. Ötən ildən fərqli olaraq 2012-ci ildə Sədərək və Ordubad Rayon Məhkəmələrinin icraatlarına cinayət işi daxil olmamışdır.

2012-ci ildə birinci instansiya məhkəmələrində baxılmış 6 cinayət işi üzrə çıxarılan hökmlərə apellyasiya qaydasında Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin cinayət kollegiyasında baxılaraq 4 hökm dəyişdirilmədən saxlanılmış, 2 hökm isə dəyişdirilmişdir.

Dəyişdirilən hökmlər muxtar respublikanın birinci instansiya məhkəmələrinin 2012-ci ildə çıxardıqları bütün hökmlərin 11,11%-ni təşkil etdiyi üçün məhkəmələr üzrə hökmlərin sabitlik göstəricisi 88,89% olmuşdur. Cinayət qanunu normasının düzgün tətbiq edilməməsi əsasına görə dəyişdirilən həmin hökmlər Naxçıvan Muxtar Respublikası Ağır Cinayətlər Məhkəməsinin baxdığı işlər üzrə olmuşdur.

Müqayisə üçün qeyd edək ki, 2011-ci ildə birinci instansiya məhkəmələri tərəfindən çıxarılmış 3 hökm yəni, 17,65%-i dəyişdirilmiş, beləliklə, hökmlərin sabitlik göstəricisi həmin ildə 82,35% təşkil etmişdir.

Naxçıvan Muxtar Respublikasının rayon (şəhər) məhkəmələri tərəfindən xüsusi icraat qaydasında 2012-ci ildə 39 işə (materiala) baxılmışdır. 2011-ci illə müqayisədə bu göstərici 11,36% azalmışdır (həmin dövrdə 44 işə baxılmışdır).

2012-ci ildə xüsusi icraat qaydasında həll edilən işlərdən 18 iş (46,15%) həbs qətimkan tədbirinin seçilməsi, 10 iş (25,64%) cəza çəkməkdən şərti olaraq vaxtından əvvəl azad etmə, 5 iş (12,82%) cəzaçəkmə müəssisəsinin növünün dəyişdirilməsi, 3 iş (7,69%) anlaqsız vəziyyətdə cinayət törətmiş şəxs barəsində tibbi xarakterli məcburi tədbirlərin tətbiq edilməsi barədə, 1 iş (2,56%) eksqumasiya, 1 iş (2,56%) məhkumluğun vaxtından əvvəl götürülməsi haqqında və 1 iş (2,56%) isə digər xarakterli məsələlər barəsində olmuşdur.

Muxtar respublikanın rayon (şəhər) məhkəmələri üzrə xüsusi icraat qaydasında baxılan işlərlə əlaqədar 2011 və 2012-ci illərin göstəriciləri aşağıdakı cədvəldə təsvir edildiyi kimi olmuşdur:

| **Məhkəmənin adı** | **2011-ci il üzrə (şəxslərin və işlərin sayı)** | **2012-ci il üzrə (şəxslərin və işlərin sayı)** |
|---|---|---|
| Naxçıvan Şəhər Məhkəməsi | 14 nəfər / 14 iş | 15 nəfər / 15 iş |
| Şərur Rayon Məhkəməsi | - | 4 / 4 |
| Babək Rayon Məhkəməsi | 1 / 1 | - |
| Culfa Rayon Məhkəməsi | 1 / 1 | - |
| Ordubad Rayon Məhkəməsi | 1 / 1 | - |
| Kəngərli Rayon Məhkəməsi | 27 / 27 | 18 / 18 |
| Şahbuz Rayon Məhkəməsi | - | - |
| Sədərək Rayon Məhkəməsi | - | 2 / 2 |

2012-ci ildə muxtar respublikanın rayon (şəhər) məhkəmələrinin xüsusi icraat qaydasında çıxardıqları qərarlardan 4 apellyasiya şikayəti verilmişdir. Naxçıvan Şəhər Məhkəməsi, Şərur və Sədərək Rayon Məhkəmələrinin qərarlarından verilmiş apellyasiya şikayətləri təmin edilməmiş və qərarlar dəyişdirilmədən saxlanılmışdır.

Naxçıvan Muxtar Respublikasının rayon (şəhər) məhkəmələrində 2012-ci ildə 175 nəfərin barəsində 166 inzibati xəta haqqında işə baxılmışdır.

2011-ci illə müqayisədə 2012-ci ildə baxılan inzibati xəta haqqında işlərin və barələrində inzibati tənbeh tətbiq olunan şəxslərin sayı 2 dəfə artmışdır (2011-ci ildə 80 nəfərin barəsində 79 inzibati xəta haqqında işə baxılmışdır).

2012-ci ildə barəsində inzibati tənbeh tətbiq olunan şəxslərdən 70 nəfərə (40%) inzibati həbs, 84 nəfərə (48%) inzibati cərimə, 13 nəfərə (7,43%) xəbərdarlıq, 4 nəfərə (2,28%) inzibati xətanın törədilməsində alət və ya inzibati xətanın bilavasitə obyekti olmuş predmetin müsadirəsi, 4 nəfərə (2,28%) isə inzibati xəta törətmiş fiziki şəxsin ona verilmiş xüsusi hüququnun məhdudlaşdırılması növündə inzibati tənbeh tədbirləri tətbiq olunmuşdur.

İnzibati tənbeh tədbirinin tətbiqinə dair qərarın çıxarılması ilə nəticələnən inzibati xətaları növünə görə qruplaşdırdıqda 2011 və 2012-ci illərə dair göstəricilər aşağıdakı cədvəldə təsvir olunduğu kimi olmuşdur:

| **İnzibati xətanın növləri** | **2011-ci il üzrə (şəxs və işlərin sayı)** | **2012-ci il üzrə (şəxs və işlərin sayı)** |
|---|---|---|
| Xırda xuliqanlıq | 5 nəfər / 5 iş | 48 nəfər/ 48 iş |
| Aksiz markası olmayan məhsulların, malların satılması | 26 nəfər / 26 iş | 24 nəfər / 24 iş |
| Nəqliyyat vasitələrinin sürücüləri tərəfindən yol hərəkəti qaydalarının pozulması | - | 3 nəfər/ 3 iş |
| Qanunsuz sahibkarlıq fəaliyyəti ilə məşğul olma | 36 nəfər /35 iş | 43 nəfər / 43 iş |
| Azərbaycan Respublikasının gömrük sərhədindən keçirilən malların gömrük nəzarətindən gizlədilməsi | - | 2 nəfər/ 2 iş |
| Nəqliyyat vasitələrini idarə etmək hüququ olmayan şəxslər tərəfindən nəqliyyat vasitələrinin idarə edilməsi | 2 nəfər / 2 iş | 1 nəfər / 1 iş |
| Polis işçisinin və ya hərbi qulluqçunun qanuni tələbinə qəsdən tabe olmama | 3 nəfər / 3 iş | 20 nəfər / 17 iş |
| Malların və nəqliyyat vasitələrinin bəyan edilməməsi və ya düzgün bəyan edilməməsi | - | 2 nəfər / 2iş |
| Məhkəmənin xüsusi qərardadı (qərarı) və ya hakimin təqdimatı üzrə tədbirlər görülməsi | 3 nəfər / 3 iş | 2 nəfər / 2 iş |
| Digər inzibati xətalar | 5 nəfər / 5 iş | 30 nəfər / 24 iş |

Göründüyü kimi 2011-ci illə müqayisədə 2012-ci ildə rayon (şəhər) məhkəmələri tərəfindən baxılan qanunsuz sahibkarlıq fəaliyyəti ilə məşğul olma ilə bağlı barəsində inzibati tənbeh tətbiq olunan şəxslərin sayı 19,44%, xırda xuliqanlıqla bağlı barəsində inzibati tənbeh tətbiq olunan şəxslərin sayı 9 dəfə, polis işçisinin və ya hərbi qulluqçunun qanuni tələbinə qəsdən tabe olmama ilə əlaqədar barəsində inzibati tənbeh tətbiq olunan şəxslərin sayı 7 dəfə, digər inzibati tənbeh tədbiri tətbiq olunan şəxslərin sayı isə 6 dəfə artmışdır. 2011-ci ildən fərqli olaraq 2012-ci ildə aksiz markası olmayan məhsulların, malların satılması ilə əlaqədar olan inzibati xətalar üzrə barəsində inzibati tənbeh tətbiq olunan şəxslərin sayı 7,69%, nəqliyyat vasitələrini idarə etmək hüququ olmayan şəxslər tərəfindən nəqliyyat vasitələrinin idarə edilməsi

ilə əlaqədar barəsində inzibati tənbeh tətbiq olunan şəxslərin sayı 50%, məhkəmənin xüsusi qərardadı (qərarı) və ya hakimin təqdimatı üzrə tədbirlər görülməsi ilə bağlı barəsində inzibati tənbeh tətbiq olunan şəxslərin sayı 33,33% azalmışdır. Ötən ildən fərqli olaraq 2012-ci ildə rayon (şəhər) məhkəmələrinin icraatına malların və nəqliyyat vasitələrinin bəyan edilməməsi və ya düzgün bəyan edilməməsi, Azərbaycan Respublikasının gömrük sərhədindən keçirilən malların gömrük nəzarətindən gizlədilməsi və nəqliyyat vasitələrinin sürücüləri tərəfindən yol hərəkəti qaydalarının pozulması ilə bağlı işlər daxil olmuşdur.

Baxılmış inzibati xətalara dair işlər üzrə muxtar respublika məhkəmələrinin 2011 və 2012-ci illərə dair göstəriciləri aşağıdakı cədvəldə təsvir olunduğu kimi olmuşdur:

| **Məhkəmənin adı** | **2011-ci il üzrə (şəxs və işlərin sayı)** | **2012-ci il üzrə (şəxs və işlərin sayı)** |
|---|---|---|
| Naxçıvan Şəhər Məhkəməsi | 31 nəfər / 31 iş | 53 nəfər / 53 iş |
| Şərur Rayon Məhkəməsi | 9 / 9 | 45 / 36 |
| Babək Rayon Məhkəməsi | 11 / 11 | 16 / 16 |
| Culfa Rayon Məhkəməsi | 14 / 13 | 27 / 27 |
| Ordubad Rayon Məhkəməsi | 3 / 3 | 15 / 15 |
| Kəngərli Rayon Məhkəməsi | 4 / 4 | 12 / 12 |
| Şahbuz Rayon Məhkəməsi | 8 / 8 | 3 / 3 |
| Sədərək Rayon Məhkəməsi | - | 4 / 4 |

2012-ci ildə muxtar respublikanın birinci instansiya məhkəmələri tərəfindən baxılmış inzibati xətalara dair işlərlə əlaqədar Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin cinayət kollegiyasına 1 apellyasiya şikayəti daxil olmuşdur. Naxçıvan Şəhər Məhkəməsinin qərarından verilən həmin şikayətə baxılaraq qərar dəyişdirilmədən saxlanılmışdır.

Muxtar respublikanın şəhər və rayon məhkəmələri tərəfindən 2012-ci ildə inzibati xətalara dair işlər üzrə çıxarılan qərarlardan ləğv ediləni və dəyişdiriləni olmadığından, qərarların sabitlik göstəricisi 2011-ci ildə olduğu kimi 100% təşkil etmişdir.

## HƏRBİ KOLLEGİYADAN

### Hərbi kollegiyanın 2012-ci ilin yekunları üzrə fəaliyyətinin nəticələrini əks etdirən statistik məlumatlar

**...**

**Daşqın Səfərov**
*Analitik və qanunvericiliyin sistemləşdirilməsi şöbəsinin müdiri*

**İnsan Hüquqları üzrə Avropa Məhkəməsi**
**(Üçüncü seksiya)**
**29 may 2001-ci il tarixli qərarı**
**"Frans Fişer (Franz Fischer) Avstriyaya qarşı" iş**

***(Ərizə № 37950/97)***

*Strasburq, 29 may 2001-ci il*

"Frans Fişer Avstriyaya qarşı" iş üzrə İnsan Hüquqları üzrə Avropa Məhkəməsi (üçüncü seksiya) Palatanın aşağıdakı tərkibində:
J.-P.Kosta, palatanın sədri,
B.Fürman,
F.Tülkens,
K.Yunqvirta,
Ser Nikolas Brats,
K.Tray,
M.Uqrelixidze (hakimlər),
eləcə də məhkəmə seksiyasının katibi S.Dollenin iştirakı ilə
21 mart, 10 oktyabr 2000-ci il, 10 may 2001-ci il tarixlərində qapalı iclaslar keçirərək 10 may 2001-ci ildə aşağıdakı qərarı qəbul etmişdir.

Avropa Məhkəməsində prosedur

1. İş 8 sentyabr 1997-ci ildə İnsan Hüquqları üzrə Avropa Komissiyasına Avstriya Respublikasına qarşı Avstriyanın vətəndaşı Frans Fişer (bundan sonra ərizəçi) tərəfindən İnsan hüquqlarının və Əsas Azadlıqların Müdafiəsi haqqında Avropa Konvensiyasının 25-ci maddəsinə müvafiq qaydada verilmiş 37950/97 saylı şikayət əsasında başlanılmışdır.
2. Avropa Məhkəməsində ərizəçinin maraqlarını Sent-Pelten şəhərindən olan vəkil cənab S.Qloss təmsil edirdi. Avstriya hökuməti Avropa Məhkəməsi yanında səlahiyyətli nümayəndə - Avstriya Federal Xarici İşlər Nazirliyinin beynəlxalq hüquq departamentinin rəhbəri səfir Q.Vinkler tərəfindən təmsil olunurdu.

3. Ərizəçi iddia edirdi ki, onun eyni bir hüquq pozuntusuna görə təkrarən məhkum olunmamaq və cəzalandırılmamaq hüququ pozulmuşdur.
4. Ərizə 1 noyabr 1998-ci il tarixdə, Konvensiyaya dair 11 saylı Protokol qüvvəyə mindikdən sonra Avropa Məhkəməsinə təqdim olunmuşdu (Konvensiyaya dair 11 saylı Protokolun 5-ci maddəsinin 2-ci bəndi).
5. Ərizə Avropa Məhkəməsinin üçüncü seksiyasına verilmişdi (Məhkəmə Reqlamentinin 52-ci qaydasının 1-ci bəndi). Seksiyanın tərkibində Məhkəmə Reqlamentinin 26-cı qaydasının 1-ci bəndinə əsasən bu işə baxmalı olan Palata formalaşdırılmışdı.
6. Palata 21 mart 2000-ci il tarixli qərarı ilə ərizəni baxılmaq üçün yol-verilən hesab etmişdir.

Faktlara dair

*I. İşin halları*

7. Ərizəçi 6 iyun 1996-cı ildə alkoqol sərxoşluğu vəziyyətində avtomobili idarə edərkən velosipedçini vurmuş, nəticədə velosipedçi aldığı ağır dərəcəli bədən xəsarətlərindən ölmüşdür. Velosipedçini vurduqdan sonra ərizəçi yardım göstərilməsi üçün dayanmadan avtomobili ilə hadisə yerindən getmiş və ancaq həmin gün axşam vaxtı polisə gəlmişdir.
8. Sent-Peltenin yerli inzibati hakimiyyət orqanları 13 dekabr 1996-cı ildə ərizəçini bir sıra yol-nəqliyyat hüquqpozmalarını törətməkdə təqsirli bilmiş və onun üzərinə 22010 Avstriya şillinqi məbləğində cərimə ödəmək vəzifəsi qoymuş, eyni zamanda cərimənin ödənilməsi mümkün olmadığı təqdirdə onun 20 gün müddətinə azadlıqdan məhrum edilməsinə qərar vermişdi. Bu cəzaya ərizəçinin 1960-cı il tarixli Yol Hərəkəti Qaydalarının 5(1) və 99(1) (a) maddələrini pozmaqla avtomobili alkoqol sərxoşluğu vəziyyətində idarə etdiyinə görə 9000 Avstriya şillinqi məbləğində cərimə və yaxud cərimənin ödənilməsi mümkün olmadıqda 9 gün müddətinə azadlıqdan məhrum etmə cəzası da daxil idi.
9. Sen-Peltenin Torpaq Məhkəməsi 18 mart 1997-ci ildə ərizəçini "alkoqol qəbulu nəticəsində məsuliyyəti istisna etməyən həddə sərxoşluq vəziyyətinə düşməsinə yol verdiyinə görə" Avstriya Cinayət Məcəlləsinin 81-ci maddəsinin 2-ci bəndi ilə ehtiyatsızlıqdan adam öldürmədə təqsirli bilmiş və onu 6 ay müddətinə həbs cəzasına məhkum etmişdi.
10. Ərizəçi Vena şəhərinin Yüksək Torpaq Məhkəməsində hökmü mübahisələndirərək Avropa Məhkəməsinin "Qradinger Avstriyaya qarşı" iş üzrə 23 oktyabr 1995-ci il tarixli qərarına əsasən Torpaq Məhkəməsinin hökmünün ləğv edilməli olduğunu iddia edirdi. Yüksək Torpaq Məhkəməsi etiraf etdi ki, təkrar ittihamın irəli sürülməsi Konvensiyaya dair 7 saylı

Protokolun 4-cü maddəsini pozmuşdur. Bununla belə məhkəmə müəyyən etdi ki, "Qradinger Avstriyaya qarşı" işə baxmayaraq, Avstriyanın qanunvericiliyi dəyişilməz qalmışdır. Yüksək Torpaq Məhkəməsi qeyd etdi ki, "Qradinger Avstriyaya qarşı" iş üzrə qərar presedent rolunu oynaya bilməz, ona görə ki, həmin işdə cinayət prosesi inzibati prosedurdan əvvəl həyata keçirilmişdi, hazırkı işdə isə proseslərin ardıcıllığı əksinə idi. Yüksək Torpaq Məhkəməsi izah etdi ki, ikiqat cəzalandırılma ona görə mümkün idi ki, Avstriyanın qanunvericiliyi bu cür hallarda cinayət və inzibati proseslərin qarşılıqlı əlaqələri üçün "tabeçilik" prinsipini ehtiva edən müddəaları nəzərdə tutmamışdı. Məhkəmə belə nəticəyə gəlmişdi ki, bu hal daha geniş tətbiqetmə sferasına malik olan cinayət prosesinin həyata keçirilməsinin qarşısını almırdı. Ona görə də ərizəçiyə qarşı irəli sürülmüş ittiham qüvvəsində saxlanılmışdı.

11. Avstriyanın Federal Prezidentinin əfvetmə haqqında qərar qəbul etmək hüququ əsasında 19 may 1999-cu ildə hökmlə təyin olunmuş altı ay müddətinə azadlıqdan məhrum etmə cəzası beş ay müddətinə azadlıqdan məhrum etmə cəzası ilə əvəz olunmuşdu.

*II. Tətbiq edilən milli qanunvericilik və hüquqtətbiqetmə təcrübəsi*

A. Yol hərəkəti qaydaları

12. 1960-cı il tarixli Yol Hərəkəti Qaydalarının 5(1) maddəsində təsbit olunmuşdur ki, qanında və yaxud nəfəsində alkoqolun miqdarı müvafiq olaraq bir litrdə 0,8 qram və ya bir litrdə 0,4 milliqram təşkil edən şəxs tərəfindən avtomobilin idarə edilməsi cinayət sayılır.

13. Hadisələr baş verən vaxt qüvvədə olmuş 1960-cı il Qaydalarının 99-cu maddəsində (bu işə aid olan hissədə) deyilirdi:

"(1) Aşağıdakı hərəkətlərin törədilməsi 8000 Avstriya şillinqindən 50 000 Avstriya şillinqinədək cərimə və ya cərimənin ödənilməsi mümkün olmadıqda bir həftədən altı həftəyədək azadlıqdan məhrum etmə ilə cəzalandırılmalı olan inzibati xəta hesab edilir:

(a) avtomobilin sərxoş vəziyyətdə idarə edilməsi /.../

(6) İnzibati xəta hesab olunmur, əgər : ...

(b) (2), (2a), (2b), (3) və ya (4) yarımbəndləri ilə nəzərdə tutulmuş hüquq pozuntularını yaradan əməllər həm də ümumi yurisdiksiyaları məhkəmələrin səlahiyyətlərinə aid edilmişdir ...".

14. Avstriyanın Konstitusiya Məhkəməsi 5 dekabr 1996-cı il tarixli qərarında sərxoş vəziyyətdə avtomobili idarə etmə kimi inzibati xətanın müəyyən edilməsini hüquq pozuntusunun ümumi yurisdiksiyalı məhkəmələrin

səlahiyyətlərinə aid olunmasından asılı etməyən Yol Hərəkəti Qaydalarının 99-cu maddəsinin (b), (c) bəndlərinin Konstitusiyaya uyğunluğunu yoxlamışdır. Konstitusiya Məhkəməsi qeyd etmişdir ki, bir əməlin birdən artıq hüquq pozuntusunu təşkil etdiyi hal Konvensiyaya dair 7 saylı Protokolun 4-cü maddəsini pozmur. Bu qayda Avropanın bir çox ölkələrinin cinayət qanunvericiliyində nəzərdə tutulmuşdur. Bununla belə, cinayət-hüquq doktrinasında o da qəbul olunur ki, bəzən bir əməl zahirən bir neçə hüquq pozuntusu yaradan əməl kimi görsənsə də, hüquqi normaların təfsiri onu aşkarlayır ki, əslində bir hüquq pozuntusu digər hüquq pozuntusunun zərərli nəticələrini bütövlüklə əhatə edir və bu üzdən əlavə cəzalandırılmaya zərurət qalmır. Beləliklə, Konvensiyaya dair 7 saylı Protokolun 4-cü maddəsi ilə şəxsin müxtəlif hüquq pozuntularına görə mühakimə edilməsi və cəzalandırılması o halda qadağan edilir ki, hüquqi normaların təfsiri nəticəsində bir hüquq pozuntusuna görə təyin edilmiş cəzanın digər pozuntuya görə cəzalandırılmanı istisna etdiyi müəyyən olunur. Əgər bu işdə olduğu kimi, qanunla qəti şəkildə təsbit olunsa ki, bir hüquq pozuntusu digərindən asılı deyil, onda qanunu təfsir edərkən Konvensiyaya dair 7 saylı Protokolun 4-cü maddəsi rəhbər tutulmalıdır. Avropa Məhkəməsinin "Qradinger Avstriyaya qarşı" iş üzrə 23 oktyabr 1995-ci il tarixli qərarında qeyd olunmuşdur ki, məhkəmə baxışının predmeti olmuş bir hüquq pozuntusunun mühüm (əhəmiyyətli) hissəsinə sonradan inzibati orqanlar tərəfindən baxılırsa, Konvensiyanın həmin norması pozulmuş olur.

Yol Hərəkəti Qaydalarının 99(1) (a) və (6) (c) maddələrinin birlikdə götürüldükdə mənası odur ki, avtomobili sərxoş vəziyyətdə idarə etmə kimi cinayət-inzibati hüquq pozuntusu hətta əməldə ümumi yurisdiksiyalı məhkəmələrin səlahiyyətlərinə aid olan hüquq pozuntusu müəyyən olunduqda belə, inzibati qaydada cəzalandırıla bilər. Cinayət məhkəmələrinin Cinayət Məcəlləsinin 81-ci maddəsinin 2-ci bəndinə (aşağıda təsvir olunur) dair formalaşmış təcrübəsinə görə nəqliyyat vasitəsini sərxoş vəziyyətdə idarə etmə onlar tərəfindən baxılan müəyyən hüquq pozuntularının mühüm hissəsini təşkil etmişdir. Nə qədər ki, Yol Hərəkəti Qaydalarının 99(6) (c) maddəsi inzibati xətalara əlavə kimi nəzərdən keçirilə bilən hüquq pozuntularını 99-cu maddənin (2) və (4)-cü bəndlərində sadalanan hallarla məhdudlaşdırmış və beləliklə bunların sırasından Qaydaların 99-cu maddəsinin (1) (a) bəndində qeyd olunan avtomobili sərxoş vəziyyətdə idarə etmə kimi halı istisna etmişdir, həmin norma Konvensiyaya dair 7 saylı Protokolun 4-cü maddəsinə ziddir.

B. Avstriyanın Cinayət Məcəlləsi

15. Avstriyanın Cinayət Məcəlləsinin 80-cı maddəsinə əsasən ehtiyatsızlıqdan adam öldürmə cinayəti bir il müddətinə azadlıqdan məhrum etmə ilə cəzalandırılır. Cinayət Məcəlləsinin 81-ci maddəsinin 2-ci bəndində təsbit edilmiş xüsusi hallar olduqda mümkün cəzanın yuxarı həddi 3 ilədək artırılır.
16. Cinayət Məcəlləsinin 81-ci maddəsinin 2-ci bəndi o halda tətbiq olunur ki, "şəxs yaxın zamanda böyük ehtimalla ətrafdakıların həyatı üçün təhlükə törədə biləcək hərəkətlər etməli olduğunu gördüyü və ya görməli olduğu halda alkoqoldan istifadə nəticəsində hətta ehtiyatsızlıqdan olsa da belə, özünü sərxoşluq halına (lakin cinayət məsuliyyətini istisna etməyən həddə) çatdırmaqla belə vəziyyətdə cinayət törətmiş olsun".
Cinayət məhkəmələrinin istifadə etdikləri təkzibedilməz prezumpsiyaya görə qanında alkoqolun miqdarı bir litrdə 0,8 qram və yaxud ondan artıq təşkil edən sürücü Cinayət Məcəlləsinin 81-ci maddəsinin 2-ci bəndinin mənasında "sərxoş vəziyyətdə olan" hesab edilir.

Hüquq

*I. Avstriya hökumətinin ilkin etirazları*

17. Avstriya hökuməti iddia edirdi ki, problem öz həllini tapmışdır. Çünki ərizəçinin azadlıqdan məhrum etmə müddəti bir ay azaldılmışdı. Hökumət sübut edirdi ki, azadlıqdan məhrum etmə müddətinin 30 gün azaldılması inzibati cinayət prosesinə uyğun olaraq ödənilməli olan 9000 Avstriya şillinqinə bərabərdir.
18. Ərizəçi etiraz edərək onu qeyd edirdi ki, azadlıqdan məhrum etmə müddətinin azaldılması onun sərxoş vəziyyətdə avtomobili idarə etdiyinə görə iki dəfə mühakimə olunması və cəzalandırılması kimi halları ortadan qaldırmırdı. Həmçinin onu qeyd edirdi ki, cinayət məhkəmələrinin təcrübəsində Cinayət Məcəlləsinin 81-ci maddəsinin 2-ci bəndində göstərilən xüsusi hallarda şəxslərin real azadlıqdan məhrum etməyə məhkum edilmələrinə rast gəlindiyi halda, bu cür xüsusi hallar olmadan ehtiyatsızlıqdan adam öldürmə törətmiş şəxslər barəsində məhkəmələr bir qayda olaraq azadlıqdan məhrum etməyə şərti məhkum etməni və yaxud cərimə cəzasını tətbiq edirdi.
19. Avropa Məhkəməsi hesab etdi ki, tərəflərin dəlilləri ərizəçinin şikayətinin əsaslandırılması ilə əlaqəlidir və bu səbəbdən cavabdeh dövlətin ilkin etirazlarını ərizəyə mahiyyəti üzrə baxılmasına daxil etdi.

*II. Konvensiyaya dair 7 saylı Protokolun 4-cü maddəsinin ehtimal olunan pozuntuları*

20. Ərizəçi iddia edirdi ki, Konvensiyaya dair 7 saylı Protokolun 4-cü maddəsinin aşağıda təsbit edilən müddəaları pozulmuşdur:

“1. Heç kəs hər hansı dövlətin qanunlarına və ya cinayət-prosessual normalarına müvafiq olaraq, artıq bəraət aldığı və ya məhkum edildiyi cinayətlərə görə həmin dövlətin yurisdiksiyası çərçivəsində cinayət qaydasında təkrar məhkum edilə və ya cəzalandırıla bilməz”.

Ərizəçi iddia edirdi ki, o, avtomobili sərxoş vəziyyətdə idarə etdiyinə görə iki dəfə cəzalandırılmışdı – birinci dəfə dairənin inzibati hakimiyyət orqanı tərəfindən Yol hərəkəti haqqında Qaydaların 5 (1) və 99 (1)-ci maddələrinə əsasən, ikinci dəfə isə Torpaq Məhkəməsi tərəfindən, hansı ki, baxılan işdə Cinayət Məcəlləsinin 81-ci maddəsinin 2-ci hissəsində nəzərdə tutulmuş xüsusi halların tətbiqini mümkün hesab etmişdi. Ərizəçinin mövqeyinə görə cinayət məhkəməsinin hökmü tamamilə, ən pis halda isə qismən, yəni ittiham yalnız Cinayət Məcəlləsinin 80-ci maddəsi ilə məhdudlaşmayıb 81-ci maddənin 2-ci bəndi ilə ağırlaşdırıldığı üçün Konvensiyaya dair 7 saylı Protokolun 4-cü maddəsini pozmuşdur. Ərizəçi hesab edirdi ki, hazırki işi “Oliveyra İsveçrəyə qarşı” işlə (Avropa Məhkəməsinin 30 iyul 1998-ci il tarixli qərarı) eyniləşdirmək olmaz. Çünki “Oliveyra İsveçrəyə qarşı” işdə cinayət məhkəməsi ərizəçiyə inzibati məhkəmə tərəfindən tətbiq olunmuş cərimə cəzasını ləğv etmişdi və qərara almışdı ki, cərimə artıq ödənilibsə, həmin məbləğ ikinci cərimədən çıxılmalıdır. Bu işdə isə ərizəçinin barəsində faktiki olaraq iki hökm çıxarılmışdır.

21. Avstriya hökuməti iddia edirdi ki, Avropa Məhkəməsi Konvensiyaya dair 7 saylı Protokolun 4-cü maddəsinin mənasında “hüquq pozuntusu” anlayışını təfsir etmək üçün “Qradinger Avstriyaya qarşı” işdə “analoji hərəkət (davranış)” meyarından istifadə etmişdi. “Oliveyra İsveçrəyə qarşı” işdə isə Avropa Məhkəməsi başqa yanaşmanı tətbiq edərək “hüquq pozuntusunun” eyni və yaxud fərqli olub-olmamasını müəyyən etmək üçün meyar olaraq hüquq pozuntusunun hüquqi tövsifini qəbul etmiş, biri digərini qismən təkrarlayan işin faktiki hallarını isə nəzərə almamışdı. Avstriya hökumətinin mövqeyinə görə hazırkı şikayət, “Oliveyra İsveçrəyə qarşı” işdə olduğu kimi eyni bir əməlin bir neçə hüquq pozuntusu yaratması kimi tipik bir hala aiddir. Yəni baxılan işdə bir cinayət iki fərqli hüquq pozuntusu kimi – birincisi avtomobili sərxoş vəziyyətdə idarə etmə, ikincisi isə Cinayət Məcəlləsinin 81-ci maddəsinin 2-ci bəndində təsbit olunmuş xüsusi (ağırlaşdırıcı) hallarla ehtiyatsızlıqdan adam öldürmə kimi çıxış etmişdir. Avstriya hökuməti onunla razılaşdı ki, hazırkı iş “Oliveyra İsveçrəyə qarşı” işdən fərqlənir, çünki İsveçrənin hüququna görə bu ölkədə hər iki hüquq pozuntusuna eyni hakimiyyət orqanı baxır və daha ağır cəza ilə daha yüngül cəza əhatə olunurdu. Bununla belə qeyd olunan aspektlərdən heç biri həlle-

dici hesab edilməmişdi. Sonda "Qradinger Avstriyaya qarşı" işdən fərqli olaraq hakimiyyət orqanları bu işdə işin faktiki hallarının müxtəlif cür qiymətləndirilməli olması barədə nəticələrə gəlməmişdilər. Yuxarıda qeyd olunanları ümumiləşdirərək Avropa Məhkəməsi Konvensiyaya dair 7 saylı Protokolun 4-cü maddəsinin pozuntusunu müəyyən etməmişdi ("Oliveyra İsveçrəyə qarşı" işdə).

22. Avropa Məhkəməsi xatırlatdı ki, Konvensiyaya dair 7 saylı Protokolun 4-cü maddəsinin məqsədi qəti qərarın qəbul edilməsi ilə nəticələnmiş cinayət prosesinin təkrarən aparılmasını qadağan etməkdir (bax, yuxarıda qeyd olunmuş "Qradinger Avstriyaya qarşı" iş üzrə qərar, 65-ci bənd, paraqraf 53).

23. Avstriya hökumətinin iddiasına görə "Qradinger Avstriyaya qarşı" və "Oliveyra İsveçrəyə qarşı" işlərdə Avropa Məhkəməsi ərizəçilərin "qəti olaraq məhkum olunduqları və yaxud bəraət aldıqları hüquq pozuntusuna görə" təkrarən məhkum olunub-olunmamaları və yaxud cəzalandırılıb-cəzalandılmamaları məsələsinin təfsirində ziddiyyətli yanaşma nümayiş etdirmişdir. Avropa Məhkəməsi xatırlatdı ki, hər iki işdə eyni bir yol-nəqliyyat hadisəsi iki prosesin aparılmasına səbəb olmuşdu. "Qradinger Avstriyaya qarşı" işdə ərizəçi əvvəlcə cinayət məhkəmələri tərəfindən ehtiyatsızlıqdan adam öldürməyə görə məhkum edilmiş, lakin Cinayət Məcəlləsinin 81-ci maddəsinin 2-ci bəndinə müvafiq olaraq bu əməlin xüsusi (ağırlaşdırıcı) hallarda törədilməsinə görə məsuliyyətdən azad olunmuşdu (Cinayət Məcəlləsinin həmin normasında "özünü sərxoşluq vəziyyətinə gətirmə" əlaməti nəzərdə tutulmuşdur, sərxoşluq vəziyyəti isə qanda alkoqolun miqdarı 0,8 qram/litr olduqda təkzibedilməz prezumpsiya kimi qəbul edilir). Daha sonra Qradinger Yol Hərəkəti Qaydalarının 5(1) və 99(1)-ci maddələrini pozmaqla avtomobili sərxoş vəziyyətdə idarə etdiyinə görə inzibati məhkəmələr tərəfindən məhkum olunmuşdu (Yol Hərəkəti Qaydalarına görə də şəxsin qanında alkoqolun miqdarı 0.8 qram/litr olduqda o alkoqol sərxoşluğu vəziyyətində olan kimi qəbul edilir).

"Oliveyra İsveçrəyə qarşı" işdə ərizəçi əvvəlcə yol şəraitinə uyğun olmayan sürət seçib avtomobilin idarəetməsini itirdiyinə görə İnzibati Polis Məhkəməsi tərəfindən məhkum olunmuşdu. Daha sonra isə o, ehtiyatsızlıqdan adam öldürməyə görə cinayət məhkəməsi tərəfindən məhkum olunmuşdu.

24. Avropa Məhkəməsi "Qradinger Avstriyaya qarşı" işdə hüquq pozuntularının mahiyyət və yönəldikləri obyektə görə fərqləndiklərini qəbul etsə də, Konvensiyaya dair 7 saylı Protokolun 4-cü maddəsinin pozuntusunu müəyyən etmişdi, çünki hər iki qərar ərizəçinin eyni hərəkətlərinə əsasla-

nırdı ("Qradinger Avstriyaya qarşı" iş üzrə qərarın 54-55-ci paraqrafları). "Oliveyra İsveçrəyə qarşı" işdə isə Avropa Məhkəməsi bu müddəaların pozuntusunu müəyyən etmədi o əsasa görə ki, həmin iş eyni bir əməlin iki müxtəlif hüquq pozuntusu yaratması (cinayətlərin məcmusu) kimi tipik halın nümunəsi idi və Konvensiyaya dair 7 saylı Protokolun 4-cü maddəsi ancaq eyni bir hüquq pozuntusuna görə şəxsin təkrarən mühakimə edilməsini qadağan etdiyi üçün Konvensiyanı pozmurdu (bax: yuxarıda qeyd olunan "Oliveyra İsveçrəyə qarşı" iş üzrə qərarın 26-cı paraqrafı).

25. Avropa Məhkəməsi qeyd etdi ki, Konvensiyaya dair 7 saylı Protokolun 4-cü maddəsinin məzmunu əslində "eyni hüquqpozmanı" deyil, ərizəçinin əvvəl qəti olaraq məhkum olunduğu və yaxud bəraət aldığı hüquq pozuntusuna görə "təkrarən" məhkum edilməni və cəzalandırılmanı ehtiva edir. Beləliklə, baxmayaraq ki, bir əməldən iki hüquq pozuntusunun törətdiyi hal Konvensiyanın sözügedən maddəsini pozmur, Avropa Məhkəməsi araşdırmasını ərizəçinin bir əməllə əlaqədar nominal olaraq müxtəlif hüquq pozuntularına görə məhkum edilib-edilməməsinin və yaxud cəzalandırılıb-cəzandırılmamasının müəyyən edilməsi ilə məhdudlaşdırmamalıdır. Avropa Məhkəməsi Avstriyanın Konstitusiya Məhkəməsi kimi qeyd etdi ki, elə hallar mümkündür ki, bir əməl ilk baxışdan bir neçə hüquq pozuntusunu törədən əməl kimi görünür, lakin daha dərindən işin öyrənilməsi onu göstərir ki, əslində cəza yalnız bir hüquq pozuntusuna görə təyin edilməlidir, çünki həmin hüquq pozuntusu digər hüquq pozuntusunu yaradan hüquqa zidd hərəkətləri bütövlüklə əhatə edir (bax: yuxarıda 14-cü paraqraf). Əyani misal olaraq elə əməl göstərilə bilər ki, onun meydana gətirdiyi iki hüquq pozuntusu tamamilə eyni əlamətlərə malik olmaqla yanaşı, onlardan biri digər hüquq pozuntusunda olmayan daha bir əlaməti nəzərdə tutmuş olsun. Hüquq pozuntularının qismən üst-üstə düşdüyü digər hallar da mümkündür. Beləliklə, şəxs bir əməldən törəyən müxtəlif hüquq pozuntularına görə ard-arda (birinə görə qəti qərar çıxarıldıqdan sonra) cəzalandırılırsa, Avropa Məhkəməsi o məsələni araşdırmalıdır ki, bu hüquq pozuntuları əhəmiyyətli ortaq elementlərə malikdirlər, ya yox.

26. Bu mövqe Avropa Məhkəməsinin "Ponsetti və Şesnel Fransaya qarşı" iş üzrə qərarında (36855/97 və 41731/98 saylı şikayətlər, ECHR 1999-VI, /14.9.99/) bir daha təsdiq olunmuşdur. Bu iş vergi deklarasiyasının təqdim edilməməsində ifadə olunan vergi cinayətlərinə görə müxtəlif hökmlərin çıxarılması ilə bağlı idi və hökumət sübut etməyə çalışırdı ki, həmin iş də eyni bir əməlin birdən artıq hüquq pozuntusunu yaratmasının nümunəsidir. Bununla

belə sözügedən işdə Avropa Məhkəməsi tədqiq edilən hüquq pozuntularının əhəmiyyətli hallar baxımından fərqli olub-olmamasını araşdırmışdı.
27. Onu da iddia etmək olar ki, məhz bu cür hal "Qradinger Avstriyaya qarşı" işi "Oliveyra İsveçrəyə qarşı" işdən fərqləndirirdi. "Qradinger Avstriyaya qarşı" işdə sərxoş vəziyyətdə avtomobili idarə etmədə ifadə olunmuş inzibati hüquqpozmanın əhəmiyyətli elementləri Cinayət Məcəlləsinin 81-ci maddəsinin 2-ci bəndinin nəzərdə tutduğu xüsusi (ağırlaşdırıcı) halın elementlərindən heç nə ilə fərqlənmirdi (hər iki halda avtomobilin qanında alkoqolun miqdarı 0,8 qram/litr və daha artıq olan şəxs tərəfindən idarə edilməsi ehtiva olunurdu). "Oliveyra İsveçrəyə qarşı" işdə isə baxılan hüquq pozuntularının onların mühüm halları baxımından bu cür açıq-aşkar üst-üstə düşməsi müəyyən olunmamışdı.
28. Hazırkı işdə ərizəçi əvvəlcə inzibati məhkəmələr tərəfindən avtomobili sərxoş vəziyyətdə idarə etdiyinə görə Yol Hərəkəti Qaydalarının 5(1) və 99(1) (a) maddələrinə uyğun olaraq məhkum edilmişdi. Bundan sonra başlanılmış cinayət prosesi nəticəsində ərizəçi Cinayət Məcəlləsinin 81-ci maddəsinin 2-ci bəndində nəzərdə tutulmuş xüsusi (ağırlaşdırıcı) halla, yəni "özünün sərxoşluq vəziyyətinə çatdırılmasına yol verməklə" ehtiyatsızlıqdan adam öldürməyə görə məhkum olunmuşdu. Avropa Məhkəməsi qeyd etdi ki, "Qradinger Avstriyaya qarşı" və hazırkı işlər iki məqama görə bir-birindən fərqlənirlər: əvvəla proseslərin ardıcıllığı tam əksinə olmuşdu, ikincisi də işin faktiki hallarının qiymətləndirilməsində inzibati və cinayət məhkəmələri arasında ziddiyyətlər mövcud deyildi – hər iki növ məhkəmələr ərizəçinin qanında alkoqolun miqdarının 0,8 qram/litr-dən artıq olduğunu müəyyən etmişdilər.
29. Bununla belə Avropa Məhkəməsi hesab etdi ki, işlər arasında olan həmin fərq əhəmiyyətli deyildir. Yuxarıda qeyd olunduğu kimi eyni hüquq pozuntusuna görə təkrar cəzalandırılmamaq hüququnun pozulmasının müəyyən edilməsi məsələsi iki hüquq pozuntusu arasındakı əlaqəyə aid olan məsələdir və bu səbəbdən həmin pozuntularla bağlı müvafiq proseslərin hansı ardıcıllıqla həyata keçirilməsindən asılı edilə bilməz. O ki qaldı Qradingerin Cinayət Məcəlləsinin 81-ci maddəsinin 2-ci bəndində nəzərdə tutulmuş xüsusi (ağırlaşdırıcı) halla hüquq pozuntusunu törətməsinə dair ittiham üzrə bəraət almasına və yalnız inzibati qaydada avtomobili sərxoş vəziyyətdə idarə etdiyinə görə məhkum edilməsinə, ərizəçinin isə hər iki hüquq pozuntusuna görə təqsirli bilinməsinə, Avropa Məhkəməsi xatırlatdı ki, Konvensiyaya dair 7 saylı Protokolun 4-cü maddəsi eyni hüquq pozuntusuna görə təkrar cəzalandırmaya məruz qalmamaq hüququnun müdafiəsi

ilə məhdudlaşmır, bu norma eyni hüquq pozuntusuna görə təkrar mühakimə olunmamaq hüququnu da əhatə edir. Bu işdə həlledici olan odur ki, eyni bir əməl əsasında ərizəçi iki dəfə mühakimə olunmuş və cəzalandırılmışdı, çünki Yol Hərəkəti Qaydalarının 5(1) və 99(1) (a) maddələrinə əsasən avtomobili sərxoş vəziyyətdə idarə etməkdə ifadə olunmuş inzibati xəta və Cinayət Məcəlləsinin 81-ci maddəsinin 2-ci bəndində nəzərdə tutulmuş xüsusi (ağırlaşdırıcı) hallar məhkəmələrin təfsirinə görə mühüm elementlər nöqteyi-nəzərindən fərqlənmirdilər.

30. Avstriya hökumətinin ərizəçiyə təyin olunmuş azadlıqdan məhrum etmə cəzasının inzibati qaydada ödənilmiş cərimənin miqdarına ekvivalent olan həcmdə - 1 ay müddətinə azaldılması və beləliklə, konfliktin öz həllini tapması barədə dəlilləri Avropa Məhkəməsini qane etmədi. Azadlıqdan məhrum etmə müddətinin Federal Prezidentin əfv etməyə dair qərar qəbul etmək hüququ əsasında azaldılması, ərizəçinin faktiki olaraq eyni bir hüquq pozuntusuna görə təkrarən məhkum edilməsi halını və hər iki hökmün qüvvədə olma faktını ortadan qaldırmırdı. Ona görə də Avropa Məhkəməsi cavabdeh dövlətin yuxarıda təsvir edilən dəlillər üzərində qurulmuş ilkin etirazlarını rədd etdi.

31. Nəhayət, Avropa Məhkəməsi qeyd etdi ki, Razılığa Gələn Dövlət iki hüquq pozuntusundan hansı birinin cəzalandırılmalı olması məsələsinin həllində mülahizə sərbəstliyinə malikdir. Daha sonra Avropa Məhkəməsi qeyd etdi ki, Konstitusiya Məhkəməsinin 5 dekabr 1996-cı il tarixli qərarından sonra Avstriyada hüquqi vəziyyət dəyişmişdir. Belə ki, sərxoş vəziyyətdə avtomobili idarə etmə inzibati xətası Yol Hərəkəti Qaydalarının 5(1) və 99(1) (a) maddələrinə əsasən əgər hüquq pozuntusunun həm də CM-in 81-ci maddəsinin 2-ci bəndində nəzərdə tutulmuş xüsusi (ağırlaşdırcı) halları müəyyən edilərsə, cəzalandırılmayacaq, lakin işə baxılma vaxtında ərizəçini eyni mühüm əlamətlərə malik olan iki hüquq pozuntusuna görə mühakimə etmiş və cəzalandırmışdılar.

32. Beləliklə, Konvensiyaya dair 7 saylı Protokolun 4-cü maddəsinin pozuntusuna yol verilmişdir.

*III. Konvensiyanın 41-ci maddəsinin tətbiqi*

33. Konvensiyanın 41-ci maddəsində deyilir:

“Məhkəmə Konvensiyanın və ya ona dair Protokolların pozulduğunu bəyan etdikdə, Yüksək Razılığa gələn Tərəflərin milli qanunvericiliyi isə bu pozuntunun nəticələrinin yalnız qismən aradan qaldırılmasına yol verdikdə, zərurət olarsa zərərçəkən tərəfə ədalətli kompensasiya təyin edir”.

A. Zərər

34. Ərizəçi Cinayət Məcəlləsinin 81-ci maddəsinin 2-ci bəndində təsbit olunmuş xüsusi hallar tətbiq edilmədiyi təqdirdə real azadlıqdan məhrum etməyə məhkum olunmayacağını iddia edərək, mənəvi zərərin əvəzi olaraq 100.000 Avstriya şillinqinin ödənilməsini tələb edirdi.
35. Avstriya hökuməti etiraz edir və bildirirdi ki, ərizəçinin azadlıqdan məhrum edilməsi ilə Konvensiyaya dair 7 saylı Protokolun 4-cü maddəsinin ehtimal olunan pozuntusu arasında səbəbli əlaqə yox idi. Hökumət iddia edirdi ki, əgər inzibati hüquqpozma cinayət məhkəmələrinin yurisdiksiyasına aid edilmiş hüquq pozuntusuna əlavə kimi nəzərdə tutulmuş olsaydı bu cür vəziyyətin baş verməsi asanlıqla istisna edilərdi. Hökumətin qeydinə görə Konstitusiya Məhkəməsinin 5 dekabr 1996-cı il tarixli qərarından sonra vəziyyət məhz bu yöndə dəyişmişdir.
36. Avropa Məhkəməsi onunla razılaşdı ki, ərizəçinin göstərdiyi zərərlə Konvensiyanın müəyyən olunmuş pozuntusu arasında səbəbli əlaqə yoxdur. Hətta Avropa Məhkəməsi o qənaətə gəldi ki, pozuntu faktının müəyyən edilməsi özü-özlüyündə ərizəçinin məruz qala biləcəyi istənilən mənəvi zərərin kifayətedici əvəzi kimi çıxış edir. Beləliklə, Avropa Məhkəməsi bu tələblə əlaqədar hər hansı ödəmə təyin etmədi.

B. Xərclər və məsrəflər

37. Ərizəçi milli məhkəmələr tərəfindən işə baxılması ilə əlaqədar çəkdiyi xərclərin əvəzi olaraq 43.532 Avstriya şillinqinin və Konvensiya orqanları tərəfindən ərizəyə baxılması ilə əlaqədar çəkdiyi xərclərin əvəzi olaraq 25.000 Avstriya şillinqinin ödənilməsini tələb edirdi. Həmçinin ərizəçi Avropa Məhkəməsinin Konvensiyaya dair 7 saylı Protokolun 4-cü maddəsinin pozuntusunu müəyyən etdiyi təqdirdə, bununla əlaqədar milli məhkəmələr tərəfindən onun işinə yenidən baxılmalı olmasını nəzərə alaraq əlavə olaraq 15.000 Avstriya şillinqinin ödənilməsini tələb edirdi.
38. Avstriya hökuməti ərizəçinin milli məhkəmələr və Konvensiya orqanları tərəfindən işə baxılması ilə əlaqədar tələb etdiyi kompensasiyanın miqdarı ilə razılaşdı, lakin gələcəkdə ola biləcək xərclərinə görə əvəzin ödənilməsindən imtina etdi.
39. Avstriya hökumətinin mövqeyini nəzərə alaraq Avropa Məhkəməsi ərizəçinin milli məhkəmələrdə və Konvensiya orqanlarında çəkdiyi xərclərə görə tələbi tam təmin etməklə, ərizəçiyə 68.642 Avstriya şillinqinin ödənilməsini təyin etdi.
Bununla belə ərizəçi tərəfindən hələ çəkilməyən xərclərə görə kompensasiyanın ödənilməsini Avropa Məhkəməsi qeyri-mümkün hesab etdi.

C. Ödəmələr gecikdirildikdə tətbiq edilən faiz dərəcəsi

40. Avropa Məhkəməsinin əldə etdiyi məlumata görə, hazırkı qərarın qəbul edildiyi tarix üçün Avstriyada tətbiq edilən illik faiz dərəcəsi 4 faiz təşkil edir.

BU ƏSASLARA GÖRƏ MƏHKƏMƏ YEKDİLLİKLƏ:

1) Avstriya hökumətinin ilkin etirazlarını baxılmaq üçün qəbuledilən hesab edib onları rədd etdi;

2) qərara aldı ki, Konvensiyaya dair 7 saylı Protokolun 4-cü maddəsi pozulmuşdur;

3) qərara aldı ki, həmin pozuntunun müəyyən edilməsi özü-özlüyündə ərizəçinin məruz qala biləcəyi mənəvi zərərə görə kifayət qədər ədalətli əvəzdir;

4) qərara aldı:

a) cavabdeh-dövlət bu qərarın Konvensiyanın 44-cü maddəsinin 2-ci bəndinə əsasən qəti qərar hesab edildiyi tarixdən 3 ay müddətində xərclər və məsrəflərin əvəzi olaraq ərizəçiyə 68.642 Avstriya şillinqi ödəməlidir;

b) 3 ay müddəti keçdikdə kompensasiya tam ödənilənədək həmin məbləğin üzərinə illik 4 faiz dərəcəsi üzrə sadə faiz hesablanmalıdır;

5) ədalətli əvəzin ödənilməsi üzrə ərizəçinin qalan tələblərini rədd etdi.

İngilis dilində tərtib edilmiş qərar və qərar haqqında xəbərnamə Məhkəmə Reqlamentinin 77-ci Qaydasının 2 və 3-cü bəndlərinə müvafiq olaraq yazılı şəkildə 29 may 2001-ci il tarixdə göndərilmişdir.

S.Dolle
*Məhkəmə Seksiyasının katibi*

J.-P.Kosta
*Palatanın sədri*



# NƏZƏRİYYƏ VƏ HÜQUQTƏTBİQETMƏ PROBLEMLƏRİ

**Yusifəli Süleyman oğlu Qurbanov**
*Naxçıvan Muxtar Respublikası*
*Ali Məhkəməsinin hakimi*

## Etibarnamə və əqdlərdə təmsilçilik institutları ilə bağlı bəzi mülahizələr

Nümayəndəlik institutu hazırda ictimai həyatın müxtəlif sahələrində geniş tətbiq edilir. Nümayəndəlik münasibətlərini təsdiq edən sənəd kimi isə etibarnamədən istifadə olunur. Azərbaycan Respublikası Mülki Məcəlləsinin (bundan sonra AR MM) 362.1-ci maddəsinə görə "*Bir şəxsin üçüncü şəxslər qarşısında təmsilçilik üçün başqa şəxsə verdiyi vəkalət etibarnamə sayılır...*".

Göründüyü kimi etibarnamə üçüncü şəxsə ünvanlanır və onların qarşısında nümayəndənin səlahiyyətini təsdiq etmək vəzifəsi daşıyır. Etibarnamə birtərəfli əqd olduğundan onun həyata keçirilməsi nümayəndənin razılığını tələb etmir. Lakin nümayəndə də öz növbəsində qanuna əsasən istənilən vaxt etibarnamədən imtina edə bilər. Vətəndaşın verdiyi etibarnamə onun tərəfindən imzalanmalı və səlahiyyətli orqan tərəfindən təsdiq edilməlidir. Belə ki, notarial forma tələb edən əqdlər bağlamaq, eləcə də təşkilatlar haqqında hərəkətlər üçün etibarnamələr qanunda nəzərdə tutulmuş hallar istisna olmaqla notarial qaydada təsdiq olunmalıdır.

Etibarnamə verilmiş şəxs vəkil edildiyi hərəkətləri şəxsən özü etməlidir. O, etibarnamə ilə buna vəkil edildikdə və ya etibarnamə verənin mənafelərinin qorunması üçün şəraitin buna məcbur etdiyi halda həmin hərəkətlərin icrasını başqa şəxsə etibar edə bilər. Əsas şərt ondan ibarətdir ki, səlahiyyətlərini başqa şəxsə vermiş nümayəndə bunu etibarnaməni verənə bildirsin və səlahiyyətləri verdiyi şəxs barəsində ona lazımi məlumat versin. Bu vəzifənin icra edilməməsi səlahiyyəti verən nümayəndənin üzərinə səlahiyyətləri verdiyi şəxsin hərəkətləri üçün öz hərəkətlərində olduğu kimi məsuliyyət qoyur. Burada digər şərt ondan ibarətdir ki, etibar edilmişi başqasına etibaretmə

qaydasında verilmiş etibarnamənin qüvvədə olma müddəti onun verilməsi üçün əsas götürülmüş etibarnamənin qüvvədə olma müddətindən artıq ola bilməz.

Etibarnamə ilə bağlı tez-tez rastlaşılan problemlərdən biri odur ki, təcrübədə ondan alqı-satqı münasibətlərini təsdiq edən sənəd kimi də istifadə edilir. Bu isə etibarnamənin təyinatına uyğun gəlməməklə yanaşı, gələcəkdə tərəflər üçün xoşagəlməz nəticələrin baş verməsinə səbəb olur. Belə ki, mövcud təcrübəyə əsasən müəyyən daşınar və ya daşınmaz əmlaka münasibətdə üçüncü şəxs qarşısında təmsil olunmaq üçün mülkiyyətçidən etibarnamə almış şəxs özünü faktiki olaraq həmin əşyanın mülkiyyətçisi hesab edir. Belə ki, daşınar və ya daşınmaz əmlakların özgəninkiləşdirilməsi barədə verilmiş etibarnaməni əldə edən şəxs **alqı-satqı müqaviləsi bağlamadan** həmin əmlakın faktiki razılaşdırılmış qiymətini mülkiyyətçiyə ödəyir və buna görə də mülkiyyətçi həmin əşyaya ümumiyyətlə, maddi marağını itirdiyindən əşyanın sonrakı taleyi ilə maraqlanmır. Bunu etibarnamənin məzmunundan, eləcə də onun verildiyi qüvvədə olma müddətindən[1] də aydın görmək olur. Məsələn, etibarnamədə uzun müddətə əmlakın əvəzli və ya əvəzsiz özgəninkiləşdirilməsinə yönələn bütün səlahiyyətlər, o cümlədən əmlakı satmaq, habelə onun bağışlanması səlahiyyəti də verilir. Belə çıxır ki, vəkalət alan əmlakı istər satsın, istərsə də bağışlasın mülkiyyətçi üçün heç bir əhəmiyyət kəsb etməyəcək. Çünki mülkiyyətçi həmin əmlakı əvvəlcədən etibarnamə verdiyi şəxsə satmış, müəyyən rüsumlardan azad olmaq üçün və ya daha sadə prosedura malik olduğu üçün alqı-satqı müqaviləsi bağlamadan etibarnamə vermişdir. Bu halda etibarnamə alqı-satqı müqaviləsini pərdələmək məqsədilə verilmiş sayılır və yalan əqd hesab olunur.

AR MM-in 340.2-ci maddəsinə görə *"Yalan əqd başqa əqdi pərdələmək məqsədilə bağlanan əqddir. Yalan əqd əhəmiyyətsizdir. Yalan əqdə onun mahiyyəti nəzərə alınmaqla, tərəflərin həmin əqdi bağlayarkən əslində nəzərdə tutduqları əqdə aid olan qaydalar tətbiq edilir"*. Belə halda tərəflər arasında əslində mövcud olan alqı-satqı müqaviləsinə aid qaydalar tətbiq olunmalıdır, yəni əmlak onu əldə edən şəxsin mülkiyyətinə verilməlidir. Bu tərəflər arasında mübahisə yarandığı hallara şamil edilir. Lakin onu da qeyd etmək lazımdır ki, etibarnamə onu almış şəxsə münasibətdə mülkiyyət hüququ yaratmadığından qanuna əsasən etibarnamə icra olunana qədər etibarnamə vermiş şəxs həmin əmlakın mülkiyyətçisi sayılır və istənilən vaxt etibarnaməni ləğv etmiş olsa, əmlak onun özünə qaytarılmalıdır və mübahisə halında əmlakın dəyərini ödəməsini iddia edən etibarnamə almış şəxs onu

[1] AR MM-in 363.1-ci maddəsində deyilir: "Bu Məcəllənin 363.3-cü maddəsində nəzərdə tutulmuş hal istisna olmaqla, etibarnamə istənilən müddətə verilə bilər...".

sübut etməlidir. Məhz bu səbəbdən də alqı-satqı münasibətlərinin etibarnamə vasitəsilə rəsmiləşdirilməsi sonradan bir çox çətinliklərə yol açmış olur.

*Birincisi,* elə hallar olur ki, birgə nikah dövründə qazanılmış pul hesabına ər və ya arvad başqa şəxslə alqı-satqı müqaviləsi bağlamadan yalnız etibarnamə əsasında daşınar və ya daşınmaz əmlak əldə edir, sonradan nikaha xitam verilərkən onlar arasında əmlak bölgüsü zamanı etibarnamə ilə daşınar və ya daşınmaz əmlakı alan ər (və ya arvad) etibarnaməyə əsaslanaraq iddia edir ki, həmin əmlakın mülkiyyətçisi deyil və birgə nikah dövründə qazanılmadığından qanuna əsasən bölünə bilməz. Hesab edirik ki, əgər bu zaman müəyyən edilsə ki, həmin əmlakın dəyəri ödənilmiş, lakin alqı-satqı müqaviləsini pərdələmək məqsədilə etibarnamə verilmişdir, onda həmin əmlakın əldə olunmasına xərclənmiş pul məbləği ər-arvad arasında bərabər bölünməlidir. Çünki həmin əmlak olan pul birgə nikah dövründə qazanılmışdır və bu pul bölünməsə, tərəflərdən birinin mülkiyyət hüquqları pozular. Belə ki, etibarnamə almış şəxs istənilən vaxt həmin əmlakı satıb pulunu götürmək imkanında olacaq, belə məqsəd olmadıqda isə əmlakı təyinatı üzrə istifadə edəcək və bu baxımdan mülkiyyətçidən əmlakı əvvəldən satın aldığına görə onun qarşısında hər hansı hesabat verməyəcək və bu halda birgə nikah dövründə qazanılmış həmin əmlakın alınmasına ödənilən pulun bölgüsündən onlardan biri məhrum olacaqdır. Belə halda məhkəmə əmlakın satışından əldə olunan məbləği deyil, onun alınmasına xərclənmiş pulu birgə nikah dövründə qazanılmış əmlak kimi qiymətləndirərək bölməlidir. Lakin hər bir halda məhkəmənin bu qərara gəlməsi üçün yuxarıda qeyd olunanlar sübut olunmalıdır, əks təqdirdə bu ər-arvaddan birinin hüquqlarının pozulmasına gətirib çıxarar.

Bundan başqa, eyni vəziyyət başqa cür də baş verə bilər, yəni ər (arvad) ümumi birgə mülkiyyətdə olan əmlakı etibarnamədən alqı-satqı münasibətlərini təsdiq edən sənəd kimi də istifadə etməklə faktiki olaraq başqa şəxsin "sərəncam"ına verir. Lakin, məlum olduğu kimi bu zaman etibarnamə verilən şəxsin həmin əmlak üzərində mülkiyyət hüququ mövcud olmur. Ər-arvad arasında nikahın pozulduğu və əmlakın bölüşdürülməsi məsələsi yarandığı halda qeyd etdiyimiz etibarnamə verilmiş şəxs alqı-satqı münasibətlərinin olduğunu və etibarnaməni həmin münasibətləri pərdələmək məqsədilə verildiyini sübut etməzsə, həmin əmlak ərlə arvad arasında bölüşdürülməlidir. Bu hal mülkiyyətçinin kreditor borclarının təmin olunması zamanı həmin borcların mülkiyyətçinin əmlakına yönəldiyi hallarda da baş verir. Yəni, mülkiyyətçi əmlakı özgəninkiləşdirərkən alqı-satqı müqaviləsi bağlamayıb etibarnamə verərsə, həmin əmlak onun mülkiyyətində qaldığından

kreditor borclarının ödənilməsi zamanı həmin əmlakdan da istifadə oluna bilər. Təsadüfi deyil ki, həmin hal 6 aprel 2012-ci il tarixinədək daha çox nəqliyyat vasitələrinin alqı-satqısı zamanı baş verirdi. Bu problemə "Azərbaycan Respublikasının Mülki Məcəlləsində dəyişikliklər edilməsi haqqında" 6 aprel 2012-ci il tarixli Azərbaycan Respublikası Qanununun qəbul edilməsi ilə son qoyulmuşdur. Belə ki, həmin dəyişiklikdən sonra etibarnamənin müddəti ilə bağlı münasibətləri tənzimləyən 363-cü maddəyə aşağıdakı üçüncü hissə əlavə edilmişdir: "Nəqliyyat vasitəsinə dair sərəncam vermə hüququnu nəzərdə tutan etibarnamə bir ildən artıq müddətə verilə bilməz".

*İkincisi,* təcrübədə birgə nikah dövründə qazanılmış əmlaka münasibətdə hər hansı hüquqi hərəkətlərin həyata keçirilməsi üçün birtərəfli əqd olan etibarnamə verilərkən ərin və ya arvadın razılığı alınmır, bu isə birtərəfli əqd kimi etibarnamənin sonradan etibarsızlığına səbəb olan haldır. Bu da mülki hüquq münasibətlərinin sabitliyinin pozulmasına gətirib çıxarır.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 11 sentyabr 2000-ci il tarixli 167 nömrəli qərarı ilə təsdiq edilmiş "Notariat hərəkətlərinin aparılması qaydaları" haqqında Təlimatın 49-cu bəndinə görə nikah müqaviləsində başqa qayda nəzərdə tutulmayıbsa, nikahın qeydə alınmasından sonra əldə edilən və ər-arvadın ümumi (birgə) mülkiyyəti olan əmlakın özgəninkiləşdirilməsi və ya girov qoyulması haqqında əqdlər o zaman təsdiq oluna bilər ki, əmlakın özgəninkiləşdirilməsinə və ya girov qoyulmasına ər-arvadın digərinin harada daimi qeydiyyatda olmasından asılı olmayaraq yazılı razılığı olsun. Əmlakı özgəninkiləşdirən və ya girov qoyan şəxs onun ərinin, arvadının olmaması (subay, dul olması) haqqında ərizə təqdim edərsə, notarius bunu əqdin digər iştirakçısının nəzərinə çatdırır, o isə ərizədə imza etməklə həmin halın ona məlum olduğunu təsdiq edir. Göstərilən ərizə əmlakı özgəninkiləşdirən və ya girov qoyan şəxsin özü tərəfindən, əqd nümayəndə tərəfindən bağlandıqda isə nümayəndə tərəfindən verilməlidir. Əmlakın özgəninkiləşdirilməsi və ya girov qoyulması haqqında əqdləri təsdiq edərkən notarius bu əmlak üzərində mülkiyyət hüququnun nə vaxtdan yaranmasını yoxlayır. Əgər özgəninkiləşdirilən və ya girov qoyulan əmlakın mülkiyyətçisi bu əmlakı nikaha daxil olmadan, habelə nikah müddətində hədiyyə şəklində və ya vərəsəlik qaydasında, digər təmənnasız əqdlər üzrə əldə etmişsə, bu əmlakın özgəninkiləşdirilməsinə və ya girov qoyulmasına ərin (arvadın) razılığı tələb edilmir. Bununla yanaşı göstərilmişdir ki, yaşayış evinin, mənzilin, bağın, bağ evinin özgəninkiləşdirilməsi və ya girov qoyulması haqqında əqdlər təsdiq edilərkən notarius özgəninkiləşdirilən yaşayış evində, mənzildə, bağda və bağ evində kimlərin yaşayış yeri üzrə

qeydiyyatda olması barədə arayış tələb edir və daimi qeydiyyatda olan yetkinlik yaşına çatmış bütün ailə üzvlərinin razılığını alır. Əmlakın özgəninkiləşdirilməsinə və ya girov qoyulmasına razılıq haqqında ərizə yazılı olmalıdır və bu ərizədəki imzanın həqiqiliyi notarius, notariat kontorları olmayan yaşayış məntəqələrində müvafiq icra hakimiyyəti orqanlarının vəzifəli şəxsləri və Azərbaycan Respublikası Konsulluqlarının səlahiyyətli vəzifəli şəxsləri tərəfindən təsdiq edilməlidir.

Göründüyü kimi ümumi birgə mülkiyyətdə olan əmlak barəsində etibarnamələrin verilməsi zamanı razılıq tələb olunur.

Təcrübədə şəxsin mülkiyyətində olmayan, onun istifadəsinə verilmiş torpaq sahəsinin özgəninkiləşdirilməsinə dair verilən etibarnamələrin notarius tərəfindən təsdiqlənməsi hallarına da rast gəlinir. Bu da qanunun tələbinə zidd olan birtərəfli əqd kimi etibarnamənin etibarsızlığına səbəb olan haldır, çünki əşyaya mülkiyyət hüququ olmadığı halda onun üzərində sərəncam vermək hüququ istisna edilir. Sözü gedən təlimatda birbaşa göstərilir ki, notariuslar daşınmaz əmlakın özgəninkiləşdirilməsi və ya girov qoyulması haqqında müqavilələri notariat qaydasında təsdiq edərkən onların özgəninkiləşdirən və ya girov qoyan şəxsə məxsus olmasını yoxlayırlar.

Beləliklə, bu nəticəyə gələ bilərik ki, etibarnamə qanunla müəyyən edilmiş qaydada təmsilçilik (nümayəndəlik) münasibətləri yaratdığından və həmin münasibətləri təsdiq edən sənəd kimi çıxış etdiyindən heç bir formada alqı-satqı münasibətlərində istifadə edilməməlidir. Bu istər etibarnamə verən, istərsə də onu alan şəxs üçün sonda müəyyən arzuolunmaz nəticələrin baş verməsinə səbəb olmaqla onların hüquqlarının pozulmasına gətirib çıxarır. Digər tərəfdən, ümumi birgə mülkiyyətdə olan əmlaka dair sərəncam verilməsi ilə bağlı etibarnamə verilərkən həmin əmlakda payı olan ər və arvadın hər ikisinin razılığı alınmalıdır.

Bir neçə kəlmə də əqdlərdə təmsilçilik institutu ilə bağlı qeyd etmək məqsədəmüvafiq olardı. Belə ki, AR MM-in 359.1-ci maddəsinə əsasən "Əqd təmsilçi vasitəsilə də bağlana bilər. Bir şəxsin (təmsilçinin) etibarnaməyə, qanunun göstərişinə və ya buna vəkil edilmiş dövlət və ya bələdiyyə orqanının aktına əsaslanan səlahiyyətə görə başqa şəxs (təmsil edilən) adından bağladığı əqd təmsil edilənin mülki hüquq və vəzifələrini bilavasitə yaradır, dəyişdirir və onlara xitam verir. Səlahiyyət həmçinin təmsilçinin fəaliyyət göstərdiyi şəraitdən də (pərakəndə ticarətdə satıcı, kassir və i.a.) bəlli ola bilər".

Sözügedən maddənin üçüncü hissəsinə görə "Təmsilçi təmsil edilən adından şəxsən özü barəsində əqdlər bağlaya bilməz. O, ... eyni zamanda təmsilçisi olduğu şəxs barəsində bu cür əqdlər bağlaya bilməz".

Fikrimizcə, həmin anlayışı əsas tutaraq qeyd edə bilərik ki, təmsilçi ər öz arvadı barəsində də əqd bağlaya bilməz, çünki nikah müqaviləsində ayrı qayda müəyyən edilməyibsə, ərin və ya arvadın birgə nikah dövründə əldə etdiyi əmlak onların ümumi birgə mülkiyyəti sayıldığına görə arvad tərəfindən əldə edilən əmlakda ərin payı olduğundan həmin əqd təmsilçi ərin özü barəsində bağlanmış əqd kimi qiymətləndirilməlidir. Bundan başqa, təmsilçi valideyn öz yetkinlik yaşına çatmamış uşaqları barəsində də belə əqd bağlaya bilməz, çünki qanuna görə valideynlər yetkinlik yaşına çatmamış uşaqlarının qanuni nümayəndələri sayılırlar, yəni onların təmsilçiləridirlər. Qanuna görə təmsilçi təmsilçisi olduğu şəxslər barəsində də bu cür əqd bağlaya bilməz.

Onu da qeyd edək ki, təmsil edilən tərəfindən etibarnamədə əqd bağlanacaq üçüncü şəxs konkret göstərilmədiyi halda təmsilçinin yetkinlik yaşına çatmış uşaqlarının və digər qohumlarının barəsində əqd bağlaması qanunla qadağan olunmayıb və həmin şəxslər də üçüncü şəxslər sırasına aid ola bilər.

## İstifadə olunmuş normativ-hüquqi aktların və ədəbiyyatın siyahısı:


1. Azərbaycan Respublikasının Mülki Məcəlləsi. Bakı, Qanun, 2010.
2. Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsi. Bakı, Qanun, 2010.
3. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2000-ci il 11 sentyabr tarixli qərarı ilə təsdiq edilmiş "Notariat hərəkətlərinin aparılması qaydaları haqqında Təlimat".
4. Əsgərov İ.Q. Azərbaycan Respublikası Mülki Məcəlləsinin kommentariyası. II kitab. Qanun, 2006.
5. Allahverdiyev S. S. Azərbaycan Respublikasının mülki hüququ. I cild. I kitab. Ümumi hissə. Dərslik. Digesta, 2003.

# HAKİMLƏRİN MİLLİ VƏ BEYNƏLXALQ QURUMLARINDA

**Mehdi Ədalət oğlu Əliyev**
*Mətbuat və ictimaiyyətlə əlaqələr üzrə baş məsləhətçi*

## “Ədalət mühakiməsinin büllur tərəzisi” mükafatı uğrunda 2012-ci ildə keçirilmiş beynəlxalq müsabiqə haqqında

Məlumat üçün qeyd edək ki, bülletenimizin bundan əvvəlki nömrələrində[2] Avropa Mülki Ədalət Mühakiməsi Günü və bu münasibətlə keçirilən “Ədalət mühakiməsinin Büllur tərəzisi” mükafatı haqqında söhbət açmışdıq. Avropa Mülki Ədalət Mühakiməsi Günü Avropa Şurası Nazirlər Komitəsinin və Avropa Komissiyasının birgə layihəsi kimi 05 iyun 2003-cü ildə, “Ədalət Mühakiməsinin Büllur Tərəzisi” mükafatı isə 2005-ci ildə Avropa Mülki Ədalət Mühakiməsi Gününə həsr olunmuş tədbirlər çərçivəsində təsis edilmişdir.

Müsabiqənin əsas məqsədi ədalət mühakiməsinin həyata keçirilməsi sahəsində Avropa ölkələrinin məhkəmələrində tətbiq olunan və digər ölkələr üçün də maraq kəsb edən innovativ layihələri müəyyən edib mükafatlandırmaq və bu yolla səmərəlilik və keyfiyyət baxımından fərqlənən mütərəqqi təcrübənin bütün Avropa Şurası ölkələrinə yayılmasına nail olmaq, habelə müxtəlif ölkələrin məhkəmə hakimiyyəti orqanları arasında əlaqələrin inkişafına, təcrübə mübadiləsinin genişlənməsinə kömək göstərməkdən ibarətdir.

Qeyd edək ki, mükafat uğrunda müsabiqədə iştirak etmək üçün təqdim olunan layihələr müəyyən kriteriyalara cavab verməlidir. Belə ki, layihə məhkəmə fəaliyyəti ilə bağlı olmalı, ədalət mühakiməsinin funksiyalarının daha səmərəli və keyfiyyətli şəkildə həyata keçirilməsinə yönəlməli, sınaqdan çıxmış, müsbət nəticələr vermiş olmalı, başqa ölkələrdə və yurisdiksiyalarda tətbiqi, o cümlədən müxtəlif hüquq sistemlərinə uyğunlaşa bilmə

---

[2] Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin Bülleteni. 2007-ci il, № 1, səh. 116-126; 2009-cu il, № 1, səh. 87-97; 2009-cu il, № 2, səh. 97-104; 2011-ci il, № 1, səh. 87-89.

imkanına malik olmalıdır. Ümumilikdə götürdükdə isə layihə müsabiqənin mahiyyət və məqsədlərinə zidd olmamalıdır.

2010-cu ilədək təşkil olunan 4 müsabiqədən üçü (2005, 2006, 2008-ci illər) mülki mühakimə, 2009-cu ildə təşkil olunan müsabiqə isə cinayət mühakiməsi sahəsini əhatə edirdi. İlk dəfə olaraq 2010-cu ildə keçirilən müsabiqədə həm mülki, həm də cinayət mühakiməsi ilə bağlı layihələr qiymətləndirildi.

Ötən il təşkil olunan 6-cı müsabiqə Avropa Mülki Ədalət Mühakiməsi Gününün əsas tədbirində Avropa Şurası və Avropa Komissiyası nümayəndələrinin, habelə, seçilmiş 4 layihəni təqdim edən qurumların təmsilçilərinin iştirakı ilə 25 oktyabr 2012-ci il tarixdə Litvanın paytaxtı Vilnüs şəhərində keçirilmişdir.

Müsabiqəyə 18 Avropa ölkəsindən 38 layihə təqdim edilmişdir. Mükafata Belçikanın Antverp Regional Məhkəməsi (I instansiya) tərəfindən təqdim olunmuş layihə layiq görülmüşdür. Layihə cinayət izlərinin açılması, məhkəmə ekspertizası sahəsində yeni həll metodlarının tətbiqini nəzərdə tutur. Layihənin zəruriliyi məsələsi əsaslandırılarkən ekspertizaların həddən artıq uzun sürməsi, keyfiyyətin aşağı olması və bunun məhkəmə prosesinin uzanmasına səbəb olmaqla vətəndaşların hüquqlarının pozulmasına gətirib çıxarması qeyd olunur. Layihə məhkəmədə ekspertizaların həyata keçirilməsinə məsul olan ayrıca şöbənin yaradılmasını nəzərdə tutur. Məqsəd ekspertizaların keyfiyyətinin artırılması və prosedur vaxta qənaət etməkdən ibarətdir. Bunun üçün şöbə ekspertizalara nəzarət edir və onların monitorinqini həyata keçirir. Düzgün monitorinqin aparılması üçün məhkəmənin katibliyində monitorinq xidməti yaradılır. Bundan əlavə, ekspertizaların keçirilməsi üçün xüsusi proqram təminatı da hazırlanmışdır. Komissiya üzvləri bu layihənin birinci yerə layiq görülməsini onunla əsaslandırmışlar ki, o səmərəlilik, innovativlik, davamlılıq, gələcək təkmilləşdirmələrə açıqlıq və digər sistemlər üçün tətbiqi imkanlarına malik olmaq kimi mühüm kriteriyalara cavab verir.

Bundan başqa 3 layihə - Sloveniya Ali Məhkəməsinin "Məhkəmə məlumatlarının elektron bazası və idarə edilməsi", İspaniya Ədliyyə Nazirliyi Baş Katibliyinin "LeksNet elektron kommunikasiya sistemləri" və Fransanın Taraskon Ali Məhkəməsinin "Ailə münaqişələrində uşaq mənafelərinin qorunması" layihələri mütərəqqi xüsusiyyətlərinə görə fərqləndirici yerə layiq görülmüşlər.

Avropa Mülki Ədalət Mühakiməsi Günü münasibətilə keçirilən "Ədalət Mühakiməsinin Büllur Tərəzisi" mükafatı uğrunda müsabiqə ölkəmizin və onun ayrılmaz tərkib hissəsi sayılan muxtar respublikamızın məhkəmə

hakimiyyəti orqanları üçün də bu sahədə yeni iş təcrübəsinin öyrənilməsi və tətbiqi baxımından mühüm əhəmiyyətə malikdir.

*Materialın hazırlanmasında Avropa Şurasının Ədalət Mühakiməsinin Səmərəliliyi Uğrunda Komissiyasının rəsmi internet səhifələrindəki (www.coe.int/CEPEJ) məlumatlara istinad olunmuşdur.*

≈ ≈ ≈ ≈ ≈ ≈ ≈ ≈ ≈ ≈
≈ ≈ ≈ ≈ ≈ ≈
≈ ≈ ≈

**Yunis Fərman oğlu Xəlilov**
*Naxçıvan Muxtar Respublikası*
*Ali Məhkəməsi Aparatının rəhbəri*

## Mülki işlər üzrə məhkəmə qərarlarının icrasına hakim nəzarətinin həyata keçirilməsi, bu sahədə problemlər və onların həlli yollarına dair mülahizələr

Məhkəmə qərarlarının icrası öz aktuallığı və əhəmiyyəti baxımından kifayət qədər mühüm məsələlərdən biridir. Yazımızda bu sahədə mövcud olan problemlərə milli və xarici ölkələrin qanunvericiliyi, eləcə də Avropa Məhkəməsinin təcrübəsi prizmasından yanaşaraq müqayisəli təhlillərimizi və mülahizələrimizi oxucularla bölüşmək istərdik.

Azərbaycan Respublikası Konstitusiyasının 60-cı, Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin 4-cü maddələri və İnsan Hüquqları və Əsas Azadlıqların müdafiəsi haqqında Avropa Konvensiyasının 6-cı maddəsinin birinci bəndi bütün fiziki və hüquqi şəxslərin onların mülki hüquq və vəzifələri müəyyən edilərkən öz hüquq və azadlıqlarını, eləcə də maraqlarını qorumaq və təmin etmək məqsədilə qanunla müəyyən edilmiş qaydada məhkəmə müdafiəsindən istifadə etmək haqqını tanıyır. Bu hüquq beynəlxalq sənədlərdə ədalətli məhkəmə araşdırmasına olan hüquq adlanır. Ədalətli məhkəmə araşdırmasına olan hüququn qüvvədə olduğu və tətbiq edildiyi zaman kəsiyi məhkəməyə müraciət anından həmin müraciət əsasında qəbul olunmuş və qanuni qüvvəyə minmiş məhkəmə qərarının icrasının başa çatdığı anadək davam edir. Milli qanunvericiliyimizin məhkəmə qərarlarının icrası qaydalarını və müddətlərini təsbit edən normalarının birgə təhlilinin nəticəsi və Avropa Konvensiyasının 6-cı maddəsi tələb edir ki, məhkəmə qərarları əsassız ləngiməyə yol verilmədən ağlabatan müddət ərzində icra olunsun. Qüvvəyə minmiş məhkəmə qərarlarının vaxtında icra olunmaması ədalətli məhkəmə baxışına olan hüququn pozulması hesab olunur. Məhkəmə qərarlarının icrasının məcburiliyi öz ifadəsini Konstitusiyada, mülki prosessual qanunvericilikdə tapmaqla yanaşı, Azərbaycan Respublikası Ali Məhkəməsinin 30 mart 2006-cı il tarixli “Ədalət mühakiməsinin həyata keçi-

rilməsi zamanı "İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında" Avropa Konvensiyası müddəalarının və İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin presedentlərinin tətbiqi haqqında" Plenum qərarında da xüsusilə vurğulanmışdır. Həmin qərarda məhkəmə qətnaməsinin icrası müddəti də məhkəmə baxışının tərkib hissəsi kimi qiymətləndirilir və məhkəmələrə tövsiyə olunur ki, "məhkəmə aktlarının icrasına möhlət verilməsi, icranın dayandırılması, icra üsulunun dəyişdirilməsi, həmçinin məhkəmə icraçılarının hərəkətlərindən verilən şikayətlərlə əlaqədar məsələlərə baxarkən Konvensiyanın məhkəmə qətnamələrinin ağlabatan müddətdə icra olunması tələbini nəzərə alsınlar".

Plenumun qərarına görə əgər məhkəmə qətnaməsi icra olunmamışdırsa, deməli, həmin iş üzrə məhkəmə baxışı da başa çatmamışdır. Əgər icra prosesi illərlə yubanırsa, tərəfin pozulmuş hüququ ilə bağlı məhkəmə araşdırmasının ağlabatan müddət ərzində həyata keçirilməsinə olan hüququ pozulur.

Qanuni qüvvəyə minmiş məhkəmə qətnaməsi əsasında formalaşmış mülki hüquq münasibətlərinin tanınması və onların icrasının təmin edilməsi təkcə "*fərdi maraq obyekti*", yəni yalnız qətnamənin bilavasitə aid olduğu şəxsləri maraqlandıran məsələ deyil. Bu, həm də "*ictimai maraq*" obyektidir. Cəmiyyət və dövlətimiz qanuni qüvvəyə minmiş məhkəmə qərarının şəksiz qəbul edilməsində və icra olunmasında maraqlıdır. Çünki, bütövlükdə mülki mühakimə sisteminin səmərəliliyi ilk növbədə qanuni qüvvəyə minmiş məhkəmə aktlarının hüquqi qüvvəsinin tanınmasından, onların icrasının təmin edilməsindən asılıdır. Ümumilikdə "*hüquqi-müəyyənlik*" prinsipi altında birləşən, ictimai maraqları əks etdirən prosessual qaydalar məcmusuna Mülki Prosessual Məcəllənin hüquqi qüvvəyə minmiş məhkəmə qərarının təkzibedilməzliyini, qətnamənin müstəsnalığını, məcburiliyini, icra edilənliyini müəyyən edən 15, 233, 234 və bir sıra başqa maddələrini aid etmək olar. Göstərilən normalar baxımından şübhəsiz ki, qüvvəyə minmiş məhkəmə aktının uzun müddət keçdikdən sonra belə icra olunmaması *fərdi maraq* ilə *ictimai maraq* arasında tarazlığı ictimai maraqların ziyanına pozur, məhkəmə qərarını xəyali bir sənədə, lazımsız kağız parçasına, boş bir illüziyaya çevirir.

Bəhs etdiyimiz bu mülahizələr İnsan hüquqları üzrə Avropa Məhkəməsi tərəfindən qanuni qüvvəyə minmiş məhkəmə aktlarının icra edilməməsi ilə bağlı bir sıra işlərə baxılan zaman həmin məhkəmənin nümayiş etdirdiyi və ardıcıl olaraq müdafiə etdiyi hüquqi mövqelərdən də qaynaqlanır.

Bu xüsusda öncə onu qeyd etmək lazımdır ki, Azərbaycan Respublikası Ali Məhkəməsinin Plenumu kimi, Avropa Məhkəməsi də qanuni qüvvəyə minmiş məhkəmə aktının icrası prosesini bütövlükdə həmin iş üzrə məh-

kəmə prosesinin bir hissəsi hesab edir. Sözügedən məhkəmə ***"Fridlender Fransaya qarşı"*** və ***"Qrişenko Rusiya Federasiyasına qarşı"*** işlər üzrə qəbul etdiyi qərarlarında xatırladır ki, "Avropa Konvensiyasının məqsədləri baxımından məhkəmə qətnamələrinin icrası ədalətli məhkəmə baxışına olan hüququn tərkib hissəsidir. Ona görə də məhkəmə baxışının uzanmasına aid olan prinsiplər həm də məhkəmə qətnamələrinin icrasının uzanmasına aid olan prinsiplərlə eynidir".

Avropa Məhkəməsinin mövqeyi bundan ibarətdir ki, "ədalətli məhkəmə baxışına olan hüquq qanuni qüvvəyə minmiş məhkəmə qətnaməsinin icra edilməsi vəzifəsini də özündə ehtiva edir" ***("Hornsbi Yunanıstana qarşı" iş)***. "Bu hüququn pozulması icranın tam yerinə yetirilməməsində, qanuni qüvvəyə minmiş məhkəmə qətnaməsinin icrasının gecikdirilməsində də təzahür edə bilər" ***("Burdov Rusiyaya qarşı" iş)***.

Məhkəmə qərarlarının icrası barədə məsələnin bilavasitə mahiyyəti ilə bağlı milli qanunvericiliyimizə söykənən mülahizələr əsasında və Avropa Məhkəməsinin göstərilən presedentləri işığında aydın ifadə olunan qəti mövqe belədir ki, "qanuni qüvvəyə minmə" ifadəsinin bütün mənaları baxımından məhkəmə icraçılarına təqdim olunmuş hər bir məhkəmə qətnaməsi qanun qüvvəsinə, qanun gücünə malikdir və bu səbəbdən də hər hansı qanunun icrası hamı üçün nə qədər məcburidirsə, həmin qətnamənin icrası da tərəflər və aidiyyatı şəxslər üçün bir o qədər məcburidir. Qüvvəyə minmiş məhkəmə aktının taleyi, onun yaratdığı hüquq münasibətləri barəsində uzun müddət sürən qeyri-müəyyənlik vəziyyəti, yuxarıda göstərilən presedentlər və həmin qərarlarda şərh edilən *hüquqi-müəyyənlik prinsipi* nöqteyinəzərdən məqbul sayıla bilməz. Qətnamənin hər hansı əsasla icra olunmaması yol verilməzdir və o, bütün mümkün qanuni vasitələrlə icra olunmalıdır.

Bəhs olunan qanuni vasitələri təsbit edən normalar qanunvericilik sistemimizdə mövcuddur. "İcra haqqında" Azərbaycan Respublikası Qanununun 43, 44-cü maddələri və 5-ci fəsli borclu tərəfindən könüllü icra edilməyən məhkəmə qətnaməsinin digər icra üsullarını müəyyən etmişdir. Qeyd edilən normalarda sadalanan üsullarla qanuni qüvvəyə minmiş bütün məhkəmə qərarlarının icrası təmin edilməli, bununla tale yüklü bir məhkəmə aktının çəkisi, hüquqi gücü və dəyəri qorunmalıdır.

Lakin təəssüflə qeyd etməliyik ki, bəzən subyektiv səbəbdən – məhkəmə qərarlarının icrasına məsul olan şəxslərin məsələyə ötəri yanaşması, bəzən isə obyektiv səbəbdən – məhkəmə qərarlarının icrası ilə bağlı mövcud normativ bazanın tam mükəmməl olmaması üzündən qanuni qüvvəyə minmiş bir sıra məhkəmə qərarlarının icrası uzun müddət ləngiyir, bəzən isə

ümumiyyətlə, icra mümkün olmur. Məcburi icra proseslərinə köhnəlmiş yanaşma, icra ilə bağlı ənənəvi köhnə mexanizmləri ictimai münasibətlərin tamamilə yenilənmiş modelinə tətbiq etmək cəhdləri sonda bir sıra hallarda məhkəmə qərarlarını nəticə törətmək qabiliyyəti olmayan bir sənədə çevirir. Ona görə istərdik ki, məhkəmə qərarlarının icrasına maneələr yaradan subyektiv və obyektiv amillər, bu amillərin aradan qaldırılması yolları barədə fikirlərimizi oxucularla bölüşək.

Məhkəmə qərarının icrası hər şeydən əvvəl subyektiv faktordan, yəni, insan amilindən, icraya nəzarət edən və icra ilə bilavasitə məşğul olan vəzifəli şəxslərin məsuliyət dərəcəsindən, işinə münasibətindən asılıdır. “İcra haqqında” Azərbaycan Respublikası Qanununun 12-ci maddəsinin tələbinə görə icraya yönəldilmiş məhkəmə qərarı ən geci iki ay, müstəsna hallarda isə üç ay ərzində könüllü və ya məcburi icra tədbirləri ilə tam icra olunmalıdır. *(Belə ki,müstəsna hallarda icra sənədində göstərilən tələblərin icra olunması icra qurumunun rəhbərinin təqdimatı əsasında icra xidmətinin rəhbəri (baş icra məmuru) tərəfindən 1 ay müddətinədək uzadıla bilər).*

Məhkəmə qərarının göstərilən müddət çərçivəsində icrasının təmin olunması həmin qərarı icra edən məmurun fəaliyyətini daimi nəzarət altında saxlamağı tələb edir və nəticə belə nəzarətin ciddiliyindən çox asılıdır. “İcra məmurları haqqında” Qanunun 11-ci maddəsində göstərilir ki, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin, Azərbaycan Respublikası Ali Məhkəməsinin və Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin icra məmurları istisna olmaqla, icra məmurlarının fəaliyyətinə nəzarət müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilmiş qaydada həyata keçirilir. Göstərilən norma ilk baxışdan sanki icra məmurlarının işinə birbaşa məhkəmə nəzarətini aradan qaldırır. Lakin “İcra məmurları haqqında” Qanunun sözügedən maddəsi, “İcra haqqında” Qanunun 26-cı, həmçinin “Məhkəmələr və hakimlər haqqında” Qanunun 98-ci maddələrinin sistemli təfsirinə və mənasına görə müvafiq icra qurumunun rəhbəri ilə yanaşı, məhkəmə də qəbul edilən qərarın icrasına nəzarəti həyata keçiririr. Lakin qeyd etmək lazımdır ki, “İcra haqqında” Qanunun 26-cı maddəsi çıxarılmış qərarın icrasına nəzarət səlahiyyətini məhkəməyə versə də, hansı məhkəmə instansiyası tərəfindən qərarın icrasına nəzarət edilməsini konkret müəyyən etmir. Bu zaman apellyasiya instansiyası məhkəməsi tərəfindən birinci instansiya məhkəməsinin qətnaməsinin ləğvi zamanı çıxarılmış yeni qətnamənin icrasına hansı instansiya məhkəməsinin nəzarət etməli olması sualı meydana çıxır. Yəni bu halda yeni çıxarılmış qətnamənin icrasına qətnaməsi

ləğv edilən birinci instansiya məhkəməsimi nəzarət etməlidir yoxsa yeni qətnamə çıxarmış olan apellyasiya instansiya məhkəməsimi?!

Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi Kollegiyasının 29 noyabr 2011-ci il tarixli 3-N nömrəli Qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının məhkəmələrində kargüzarlığın aparılmasına dair Təlimat"ın 362-ci bəndində deyilir ki, "yuxarı instansiya məhkəməsi tərəfindən ləğv edilmiş və ya dəyişdirilmiş məhkəmə qərarlarının icrası həmin hissədə yuxarı instansiya məhkəməsi tərəfindən həyata keçirilir". Buradan aydın olur ki, icra olunan qərarı qəbul etmiş məhkəmə və hakim öz qərarının icrasına nəzarət etməlidirlər. Qərarın icrasını tələb etmək hər bir hakimin nəinki hüququ, həm də vəzifəsidir. O, qəbul etdiyi qərarın vaxtında icra olunmasına məsuldur. Ona görə də icra ilə bağlı hər şeydən əvvəl hər bir hakim qəbul etdiyi qərarın icrasına nəzarət mexanizmi qurmalı, yuxarıda qeyd olunan müddətlər çərçivəsində qərarın icrası vəziyyəti barədə icra qurumundan məlumat tələb etməli, icrası ləngiyən qərarların icrasını təmin etməkdən ötrü zəruri tədbirləri görməlidir. Əks halda bəzi icraçıların işə məsuliyyətsiz yanaşması səbəbindən məhkəmə qərarlarının icrası əsassız olaraq ləngiyir.

Məhkəmə qərarlarının icrasına nəzarət sahəsində hakimlər qəbul etdikləri qərarların vaxtında icrasını təmin etməkdən ötrü hər şeydən əvvəl icra qurumu ilə intensiv əlaqədə işləməlidirlər. Konkret qərarların icra vəziyyəti tərəflərdən şikayətin daxil olub-olmamasından asılı olmayaraq qərarı qəbul etmiş hakim tərəfindən daimi nəzarətdə saxlanılmalı və qərarların ümumi icra vəziyyəti müəyyən müddətdən bir statistik ümumiləşdirmədən keçirilməklə yanaşı, icra məmurları ilə birlikdə müzakirə olunmalı, icrası ləngiyən qərarlar üzrə icraatın başa çatdırılması onlardan tələb edilməklə yanaşı, bununla bağlı onlara lazımi köməklər göstərilməlidir.

Qeyd edək ki, məhkəmələrdə qərarların icrasına konkret iş üzrə bütöv məhkəmə prosesinin bir hissəsi kimi elektron variantda nəzarət edilə bilər. Bunun üçün məhkəmədaxili lokal kompüter şəbəkəsi yaradıla və əsas mənbə kompüterində mülki mühakimə icraatı üzrə işlərin hərəkəti barədə, işin daxil olmasından başlayaraq həmin iş üzrə qəbul olunmuş qərarın icrası bitənədək olan dövrü əhatə edən cədvəl hazırlana bilər. Bu cədvəl məhkəmənin dəftərxanasında buna təhkim olunmuş işçi tərəfindən daxil olmuş məlumatlar əsasında daim yenilənə və yaradılmış belə mexanizm əsasında məhkəmə qəbul edilən qərarların gündəlik icra vəziyyətinə nəzarət edə bilər. Bununla da qərarların icrası ilə bağlı ləngimələr vaxtında müşahidə edilə və vəziyyətə adekvat addımlar vaxtında atıla bilər.

Bundan başqa, məhkəmələrdə daxili əmr əsasında məhkəmə tərəfindən qəbul olunmuş bütün qərarlar üzrə icra işlərinin vahid elektron reyestri aparıla bilər ki, həmin elektron reyestr də qərarların vaxtında ləngimədən icra olunması prosesinə xidmət edər.

Təsadüfi deyil ki, bir sıra dünya ölkələrində məhkəmə qərarlarının icrasına intensiv mərkəzləşdirilmiş nəzarət mövcuddur. Həmin ölkələrdə icra işlərinin vahid dövlət reyestri aparılır və həmin reyestr xidmətində icra işlərinin hərəkəti daimi müşahidə və nəzarət altında saxlanılır. Hazırda MDB məkanında Ukrayna Respublikasında belə reyestr xidmətinin formalaşdırılması ilə bağlı normayaradıcılığı prosesi gedir. Düşünürük ki, ölkəmizdə də belə reyestrin aparılması məhkəmə qərarlarının icrasına mərkəzləşdirilmiş nəzarəti gücləndirərdi və icraya əlavə təkan olardı.

Göstərilənlərlə yanaşı, qeyd etməliyik ki, subyektiv faktorla yanaşı, məhkəmə qərarlarının vaxtında icrasını ləngidən bir sıra obyektiv faktorlar da mövcuddur və bunlardan biri icra işlərinin yalnız dövlət resursları hesabına həyata keçirilməsidir. Əslində dövlətimizin və cəmiyyətimizin həyatında son iyirmi ildə baş verən hadisələr, mili məkanımızda hüquqi dövlətin formalaşması insanlar arasında münasibətlərə də təsir etmişdir və onlar öz aralarındakı mübahisələri əvvəlkindən daha çox hüquq müstəvisinə çıxarır, hüquqlarının məhkəmə müdafiəsinə üstünlük verirlər. Bu isə öz növbəsində son zamanlar məhkəmə qərarlarının xüsusi çəkisinin artmasına səbəb olmuşdur və getdikcə artan məhkəmə qərarlarının icrası mövcud icraçılar kontingenti və dövlət resusrsları ilə tam təmin edilə bilmir. Əslində bu problem hüquqi dövlət quran bütün cəmiyyətlərdə mövcud olmuşdur və bir sıra ölkələrdə icraçı “qıtlığı” başqa dövlət orqanları və qeyri-dövlət resurslarnın köməyi ilə, yəni özəl icraçılar hesabına aradan qaldırılmışdır.

Bu məsələ ilə bağlı bir neçə dövlətin təcrübəsinə nəzər salmaq maraqlı olardı. Belə ki, *ABŞ* kimi yüksək maliyyə resurslarına malik bir ölkədə məhkəmə qərarlarının icrası ilə şerif, marşal xidməti və məhkəmə məmurları ilə yanaşı, xüsusi hüquq agentlikləri də məşğul olur.

*Avropa ölkələrində* özəl məhkəmə məmurları şəbəkəsi fəaliyyət göstərir. Həmin məmurların fəaliyyəti özünüidarə orqanı olan regional və mili palatalar tərəfindən idarə olunur. Həmin ölkələrdə belə fəaliyyətlə məşğul olmaq üçün Ədliyyə Nazirliyindən müvafiq lisenziya alınmalıdır. Belə lisenziya almış özəl məmur məhkəmə qərarının icrası zamanı ortaya çıxan problemləri özü müstəqil həll edir. Həmin məmurun zəhmət haqqını isə onu işə cəlb etmiş müştəri ödəyir.

*Böyük Britaniyada* bir neçə ildir ki, qarışıq sistem fəaliyyət göstərir. Məhkəmə məmurları "beylif" adlanır. Onlar dövlət qulluqçuları sayılırlar və məhkəmə qərarlarının icrasında çətinlik yaranan zaman özəl icraçıları icra prosesinə cəlb edirlər.

*Fransada* icra ilə təkcə məhkəmə icraçıları deyil, baş prokuror, digər prokurorlar, polis qüvvələrinin komandirləri və zabitləri də məşğul olurlar.

*Yunanıstanda* icra işləri ilə həm də notariuslar məşğuldurlar. Onlar pul vəsaitlərinin tutulması barədə qərarları kütləvi hərraclar vasitəsilə icra edirlər və "kütləvi hərrac klerki" adlanırlar.

Qeyd etməliyik ki, təcrübəsindən bəhs olunan ölkələrdə məhkəmə qərarlarını icra edən əsas orqanlar dövlət orqanları olsalar da, özəl icra strukturlarının sayəsində onların yükü xeyli yüngülləşir və düşünürük ki, ölkəmizdə də icra ilə məşğul olan qeyri-dövlət icra strukturlarının formalaşdırılması məhkəmə qərarlarının icrasına əhəmiyyətli təsir göstərməklə yanaşı, büdcə resurslarına qənaət olunmasına da şərait yaradardı.

MDB məkanında *Ukrayna və Qazaxıstan* respublikalarında hazırda özəl icraçılar sisteminin yaradılması üzərində ciddi iş gedir.

Məhkəmə qərarlarının icrasını ləngidən obyektiv amillərin böyük bir qismi bilavasitə məcburi icra prosesi, icraçının məcburi icra zamanı qanunun icazəsi ilə tətbiq edə biləcəyi taktiki metodlar və icra zamanı görülə bilən digər tədbirlərlə bağlıdır. Bəzən icraçılar borclunun intizamsız davranışı, icradan yayınmaları qarşısında hüquqi baxımdan sözün əsl mənasında aciz qalırlar. Tez-tez təcrübədə belə hallara rast gəlinir ki, borclunun lazımi miqdarda vəsaitinin olmaması, verilməsi qət olunan əşyanın borcluda aşkar edilməməsi səbəbindən məhkəmə qətnaməsi icra olunmur. "İcra haqqında" Qanunun 23-cü maddəsi belə halları icranı qeyri-mümkün edən obyektiv hal kimi qiymətləndirir və bunu müvafiq qərarın icra olunmadan onu qəbul etmiş məhkəməyə qaytarılması üçün əsas hesab edir.

Qeyd etmək yerinə düşər ki, Avropa Məhkəməsinin borclunun lazımi miqdarda maliyyə vəsaitinin olmaması üzündən qətnamənin icra edilməməsi hallarına münasibəti belədir ki, *"məhkəmə qətnaməsi ilə müəyyən edilmiş borcun ödənilməməsinə bəraət qazandırmaq üçün maliyyə çatışmazlığına istinad etmək olmaz"* ***("Burdov Rusiyaya qarşı" iş)*** *və "maliyyə vəsaitlərinin çatışmaması məhkəmə qətnaməsi əsasında mövcud olan borcun ödənilməsinə maneçilik yaratmamalıdır"* ***("Kukalo Rusiya Federasiyasına qarşı" iş).***

Beynəlxalq təcrübənin öyrənilməsi göstərir ki, bir sıra ölkələrdə bəhs olunan situasiya ilə üzləşən icra məmurları normativ əsaslarla belə vəziyyətlərdə daha çox manevr etmək imkanları ilə təmin olunmuşlar. Maraqlı ola-

cağını nəzərə alıb həmin ölkələrdə məhkəmə qərarlarının bilavasitə icrası zamanı tətbiq olunan məcburiyyət tədbirləri barədə söhbət açmaq istərdik.

Belə tədbirlərdən biri hazırda mili hüququmuzda rast gəlinməyən həbsxanaya salınma tədbiridir. *ABŞ-da* əgər borclunun real ödəniş qabiliyyətinə şübhə yoxdursa, ödəniş qabiliyyətsizliyi barədə görüntüdən asılı olmayaraq könüllü icra barədə tələbin yerinə yetirilmədiyi zaman borclu tələbi yerinə yetirənədək icraçı tərəfindən müddətsiz həbsə alınır. Bir qədər obrazlı desək, belə hallarda həbsxananın "açarı" sanki borclunun əlində olur, ödənişi elədiyi təqdirdə özü öz qapısını aça bilir. Əslində belə sistem hüquq tarixində yeni deyil və bu barədə tarixdə "Moisey qanunları" və "12 cədvəl qanunları"nda vaxtilə bəhs olunmuşdu. *İsrail, Yunanıstan və Mərakeş* kimi ölkələrdə də eyni təcrübədən istifadə olunur.

Əgər mili qanunvericilik belə təcrübəni konkret normalarda təsbit etməyin vacibliyi qənaətinə gələrsə, fikrimizcə, bu məhkəmə qərarlarının icrasına əvəzsiz kömək edərdi.

ABŞ-da qərarı icra etməyən şəxslərlə bağlı digər maraqlı icra tədbirlərindən də istifadə olunur. Məsələn, xüsusi lisenziya əsasında fəaliyyət göstərən agentliklər tələbkarın müraciəti əsasında borcluya qərarı icra etməyəcəyi təqdirdə onu gözləyən ağır hüquqi prosedurlar barədə tez-tez yazılı təzyiqlər göstərirlər. Başqa bir halda həmin agentliklər borclunun borcları barədə kredit agentliklərinə və banklara mənfi məlumatlar verməklə onun kredit reytinqini aşağı salır və onu kredit götürmək imkanlarından məhrum edirlər. Sırf amerikan məcburetmə vasitələrindən biri də, borclunun sürücülük vəsiqəsinin və hər hansı bir fəaliyyət üçün verilmiş lisenziyasının əlindən alınmasıdır.

İcranı ləngidən başqa bir faktorla bağlı qeyd etməliyik ki, Respublikamızın hüquq məkanında əvvəllər olduğu kimi indi də tutmanın borcluya məxsus bir sıra əmlaklara yönəldilməsinə moratorium qoyan, Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Fiziki şəxs barəsində icra sənədi icra olunarkən, tələbin yönəldilməsinə yol verilməyən əmlak növlərinin dəqiq Siyahısının təsdiq edilməsi barədə" 05 iyun 2002-ci il tarixli, 89 №-li qərarı kimi hüquqi aktlar fəaliyyət göstərir. Hesab edirik ki, belə moratoriumun borcluya məxsus müəyyən əmlaka münasibətdə qismən qaldırılması borclular arasında icra intizamını gücləndirməklə yanaşı, dövlətin adından çıxarılan qərarların icrasına müsbət təsir göstərərdi.

Dediklərimizi yekunlaşdırsaq belə bir nəticəyə gəlmək olar ki, məhkəmə qərarlarının icrasına mane olan obyektiv və subyektiv amillərin aradan qalxması tərəflərin hüquqlarının pozulmasının qarşısını ala və ən əsası vətəndaşların məhkəmələrə olan inamının daha da artmasına səbə ola bilər.

**İstifadə olunmuş qanunvericilik aktlarının və ədəbiyyat siyahısı:**

1. Azərbaycan Respublikasının Konstitusiyası. Bakı. Qanun, 2011.

2. Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsi. Bakı. Qanun, 2011.

3. "İcra haqqında" Azərbaycan Respublikasının Qanunu. Bakı. Qanun, 2012

4. "İcra məmurları haqqında" Azərbaycan Respublikasının Qanunu. Bakı. Qanun, 2012

5. "Məhkəmələr və hakimlər" haqqında Azərbaycan Respublikasının Qanunu. Bakı. Qanun, 2011.

6. Məhkəmə qərarlarının icrası işinin təkmilləşdirilməsi və "Məhkəmə nəzarətçiləri və məhkəmə icraçıları haqqında", "Məhkəmə qərarlarının icrası haqqında" Azərbaycan Respublikasının qanunlarına, Azərbaycan Respublikasının Cinayət Məcəlləsinə, İnzibati Xətalar Məcəlləsinə və Cəzaların İcrası Məcəlləsinə dəyişikliklər və əlavələr edilməsi barədə" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 15 iyul 2010-cu il tarixli Fərmanı.

7. "Fiziki şəxs barəsində icra sənədi icra olunarkən, tələbin yönəldilməsinə yol verilməyən əmlak növlərinin dəqiq Siyahısının təsdiq edilməsi barədə" Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 05 iyun 2002-ci il tarixli 089 № li Qərarı.

8. "Ədalət mühakiməsinin həyata keçirilməsi zamanı "İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında" Avropa Konvensiyası müddəalarının və İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin presedentlərinin tətbiqi haqqında" Azərbaycan Respublikası Ali Məhkəməsinin 30 mart 2006-cı il tarixli Plenum Qərarı.

9. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi Kollegiyasının 29 noyabr 2011-ci il tarixli 3-N nömrəli Qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının məhkəmələrində kargüzarlığın aparılmasına dair Təlimat".

10. http://www.echr.coe.int/echr/



# ALİ MƏHKƏMƏNİN MƏTBUAT XİDMƏTİNDƏN

**Mehdi Ədalət oğlu Əliyev**
*Mətbuat və ictimaiyyətlə əlaqələr üzrə baş məsləhətçi*

## 2012-ci ilin noyabr-dekabr, 2013-cü ilin yanvar-aprel aylarında keçirilən tədbirlərin xülasəsi

28 noyabr 2012-ci il tarixdə Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin sədri Ramiz Süleymanov Məhkəmə-Hüquq Şurasının növbəti iclasında iştirak etmişdir.

İclasda Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi altında həyata keçirilən genişmiqyaslı məhkəmə-hüquq islahatlarının uğurlu nəticələri, məhkəmə sisteminin müasirləşdirilməsi üzrə tədbirlər qeyd olunmuş, yeni istifadəyə verilmiş məhkəmə binalarında vətəndaşların müraciət imkanlarının asanlaşdırılması, məlumat almaları üçün şəffaflığın, o cümlədən elektron xidmətlərin təmin edilməsi, insanlara hüquqlarını həyata keçirməsi üçün əlverişli şəraitin yaradılması barədə məlumat verilmişdir.

İclasda həmçinin, qanunvericiliyin tələblərinin pozulması hallarına yol verdiklərinə görə bir hakim barəsində intizam icraatının başlanması qərara alınmış, bir hakimə töhmət verilmiş, bir hakimə isə irad tutulmuşdur.

≈≈≈

16 yanvar 2013-cü il tarixdə keçirilmiş Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin Rəyasət Heyətinin iclasında 2012-ci ildə muxtar respublika məhkəmələrinin fəaliyyətinin yekunları müzakirə olunmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin sədri Ramiz Süleymanov ötən ildə muxtar respublika məhkəmələri tərəfindən ədalət mühakiməsinin həyata keçirilməsi, insan hüquq və azadlıqlarının təmin olunması sahəsində, eləcə də əhalinin hüquqi maarifləndirilməsi istiqamətində görülən işlər barədə məlumat vermişdir. Qeyd olunmuşdur ki, əvvəlki illərdə olduğu kimi 2012-ci ildə də Naxçıvan Muxtar Respublikasında hüquq institutlarının inkişaf etdirilməsi, məhkəmə orqanlarının fəaliyyətinin müasirləşdirilməsi istiqamətində zəruri addımlar atılmış, məhkəmələrin fəaliyyətində yeni informasiya və

kommunikasiya texnologiyalarının tətbiq olunması sahəsində bir sıra işlər görülmüşdür.

Sonra muxtar respublikanın ixtisaslaşdırılmış, şəhər və rayon məhkəmələrinin sədr və hakimlərinin 2012-ci ildə gördükləri işlərə dair məlumatları dinlənilmişdir.

Tədbirdə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının Qanunçuluq və hüquq-mühafizə orqanları ilə iş şöbəsinin müdiri Cəlil Rüstəmov çıxış etmişdir.

≈≈≈

Fevral ayının 6-da Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin sədri Ramiz Süleymanov Məhkəmə-Hüquq Şurasının növbəti iclasında iştirak etmişdir.

Tədbirdə Dövlət başçısı cənab İlham Əliyev tərəfindən 2013-cü ilin "İKT İli" elan olunması nəzərə alınaraq informasiya-kommunikasiya texnologiyalarının tətbiqi dairəsinin genişləndirilməsi, şəffaflığın artırılması, iş üsul və vasitələrinin təkmilləşdirilməsi ilə bağlı tədbirlərdən bəhs olunmuşdur.

İclasda qeyd olunmuşdur ki, Məhkəmə-Hüquq Şurası tərəfindən ötən il səlahiyyət müddətləri başa çatan 100-ə yaxın hakimin fəaliyyəti öyrənilməklə qiymətləndirilmiş və onlar müxtəlif hakim vəzifələrinə təyin edilmişlər.

İclasda vurğulanmışdır ki, təkcə son 2 il ərzində müxtəlif qanun pozuntularına görə 26 hakim barədə intizam icraatı başlanılmış, o cümlədən korrupsiyaya şərait yaradan hallara yol verdiklərinə görə 2 hakimin səlahiyyətlərinə vaxtından əvvəl xitam verilmiş, 1 nəfərin iş yeri dəyişdirilmişdir. Ötən il hakimliyə namizədlərin yeni qaydalarla, çoxsaylı şəffaf imtahanlar vasitəsilə seçimi davam etmiş və uğur qazanmış 76 nəfər yüksək hazırlıqlı hüquqşünas hakim vəzifəsinə hazırlanmaları üçün bir illik tədris kursuna cəlb edilmişlər.

Tədbirdə həmçinin Məhkəmə-Hüquq Şurası sədrinin səlahiyyət müddətinin bitməsi ilə bağlı sədr seçkisi keçirilmiş və Ədliyyə Naziri Fikrət Məmmədov yenidən Şuranın sədri seçilmişdir.

İclasda 3 hakim barədə intizam icraatına baxılaraq qanunvericiliyin tələblərinin pozulmasına, korrupsiyaya şərait yaradan hallara yol verdiklərinə görə 2 hakimin iş yerinin dəyişdirilməsi barədə qərarlar qəbul edilmiş, 1 hakimə irad tutulmuş, birinci instansiya məhkəmələrinin qanunvericiliyin tələblərini pozan 4 hakimi barədə intizam icraatları başlanılmışdır.